**“Statistika xəbərləri” elmi-praktik**
**jurnalının redaksiya heyəti**

**Baş redaktor**

**Sakit YAQUBOV** *iqtisad elmləri doktoru, professor*

**Redaksiya heyəti:**

**Ziyad SƏMƏDZADƏ** ***iqtisad elmləri doktoru,*** *professor*

***Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi*** **üzvü**

**Şahin SADIQOV** *iqtisad elmləri doktoru, professor*

**Ədalət MURADOV** *iqtisad elmləri doktoru, professor*

**Vahid NOVRUZOV** *iqtisad elmləri doktoru, professor*

**Nazim İMANOV** *iqtisad elmləri doktoru, professor*

**Süleyman QASIMOV** *iqtisad elmləri doktoru, professor*

**Tahir BUDAQOV** *tibb üzrə fəlsəfə doktoru*

**Azər ƏMİRASLANOV** *iqtisad üzrə fəlsəfə doktoru*

***Mehman TAĞIYEV*** *iqtisad üzrə fəlsəfə doktoru*

***Saleh MÖVLAMOV*** *iqtisad üzrə fəlsəfə doktoru*

***Aleksey PONOMARENKO*** *iqtisad üzrə fəlsəfə doktoru, dosent (Rusiya Federasiyası)*

***Roumen VESSELİNOV*** *iqtisad üzrə fəlsəfə doktoru, dosent (Amerika Birləşmiş Ştatları)*

**Alxan MANSUROV** *məsul katib*

## *"Statistika xəbərləri" elmi-praktik jurnalının rubrikaları*

- Statistikanın inkişaf strategiyası və taktikası
- Statistik təsnifatlar, standartlar və registrlər
- Statistik müşahidə metodları
- Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması texnologiyası
- İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları
- Statistik informasiya sisteminin təkmilləşdirilməsi
- Milli Hesablar Sistemi
- Statistik tədqiqatlar
- Statistika sahəsində beynəlxalq əməkdaşlıq
- Statistika: xronika, informasiya
- Biblioqrafiya: yeni nəşrlər
- Oxucuların rəy və təklifləri
- Statistika: rəsmi sənədlər
- Statistika: metodoloji təminat (metodoloji əlavələr)
- Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

## Mündəricat


səh.

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***Şəfa Qarayeva, Leyla İsmayılova***
Azərbaycan Respublikasında statistik vahidlərin dövlət reyestrinin aparılması və aktuallaşdırılması məsələləri........ 4

***Orxan Əhmədov***
Pandemiya və dünyada baş verən proseslər fonunda Azərbaycanda inflyasiyanın səviyyəsi və dinamikası........ 14

***Arzu Tağıyeva***
Azərbaycanda istilik effekti yaradan qazların emissiyasını xarakterizə edən göstəricilərin statistik təhlili........ 27

***Məhəmməd Xəlilov***
Azərbaycanda iqtisadi innovasiya........ 33

**METODOLOGİYA**

***Эльдар Гулиев***
Туристический рынок азербайджана в русле тенденций развития международного туризма........ 39

***Рауф Салаев***
Роль налогового контроля в предпринимательстве в условиях цифровой экономики ........ 50

***Qalib Hacıyev***
Rəqabətqabiliyyətli və ixrac yönümlü innovativ aqrobiznes sahələrinin tənzimlənməsi istiqamətləri........ 63

***Müşfiqə Məmmədova, Aygül Səlimova, Rəna Musayeva***
Müasir iqtisadi şəraitdə xarici ölkələrin aqrobiznes sistemində sahibkarlara dövlət dəstəyi təcrübəsindən........ 73

**2022-ci İLİN YANVAR-SENTYABR AYLARININ YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR**

Makroiqtisadi göstəricilər........ 86
Ümumi Daxili Məhsul istehsalı........ 88
Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər........ 88
İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri........ 89
Pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu........ 90
İqtisadiyyata kredit qoyuluşu........ 90
Dövlət büdcəsinin gəlirləri........ 90
Dövlət büdcəsinin xərcləri........ 91
Nəqliyyat sektorunda yük dövriyyəsi........ 91
Nəqliyyat sektorunda sərnişin dövriyyəsi........ 92
Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri........ 92
İxrac olunan mühüm növ məhsullar........ 93
İdxal olunan mühüm növ məhsullar........ 94
2022-ci ildə "Statistika xəbərləri" jurnalında dərc olunmuş məqalələrin mövzu-əlifba üzrə siyahısı........ 95

UOT: 338
DOI: 10.338.70/2413-6557-2022-8-4-4-13

# AZƏRBAYCAN RESPUBLİKASINDA STATİSTİK VAHİDLƏRİN DÖVLƏT REYESTRİNİN APARILMASI VƏ AKTUALLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

***Şəfa Qarayeva***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma*
*şöbəsinin baş məsləhətçisi*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: shafa.garayeva@stat.gov.az*

***Leyla İsmayılova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma*
*şöbəsinin baş məsləhətçisi*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: leyla.ismayilova@stat.gov.az*

**Açar sözlər:** Statistik vahidlərin dövlət reyestri (SVDR), reyestr, təsnifat, hüquqi şəxs, fiziki şəxs, aktuallaşma, göstərici, statistik vahid, inzibati məlumatlar.
**Ключевые слова:** Государственный реестр статистических единиц (ГРСЕ), реестр, классификатор, юридическое лицо, физическое лицо, актуализация, показатель, статистическая единица, административные данные.
**Keywords:** The State register of statistical units (SRSU), register, classification, legal entity, individual entrepreneurs, actualization, indicator, statistical unit, administrative data.

Beynəlxalq statistika təcrübəsində Statistik Biznes Reyestr (SBR) istehsal olunan statistik məlumatların uyğunluğunu və dinamikliyini təmin edən statistik infrastrukturun vacib elementi hesab olunur. SBR statistik müayinələrin keçirilməsi üçün hədəf kütləni düzgün müəyyən etmək, tədqiq ediləcək vahidləri təyin etmək və sorğuda iştirak edən respondentlərlə bağlı məlumatları ümumiləşdirmək üçün baş məcmunu təmin edir. Həmçinin SBR-dən istifadə zəngin statistik məlumatların əlçatanlığını təmin etməklə bərabər, məlumatların inteqrasiyası prosesini asanlaşdırır və beləliklə, məlumatların analitik dəyərini artırır.

Azərbaycan Respublikasının rəsmi statistika sistemində istifadə edilən və aparılan Azərbaycan Respublikasının statistik vahidlərin Dövlət reyestri (SVDR) Azərbaycan Respublikası ərazisində qeydiyyatdan keçmiş bütün hüquqi şəxslər (onların filial və nümayəndəlikləri) və eləcə də, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətilə məşğul olan fiziki şəxslərə (fərdi sahibkarlara) dair inzibati və statistik məlumatları (yaradılma tarixi, məlumatlarla bağlı dəyişikliklər, ləğv edilmə tarixi, iqtisadi göstəricilər və s.) özündə ehtiva edən və statistik tədqiqatların təşkili üçün lazımi məlumatları əlaqələndirən çoxməqsədli məlumat toplusu olmaqla bərabər, həm də ən əhəmiyyətli statistik alətlərdən biridir. Eyni zamanda, SVDR ölkə üzrə müəssisələrin demoqrafik vəziyyətini əks etdirən, iqtisadi statistik məlumatların istehsalı üçün aparılan müayinələrin həyata keçirilməsində istinad edilən baş məcmudur [13].

Ölkəmizdə SVDR-in yaradılması prosesi ötən əsrin 90-cı illərinə təsadüf edir. Belə ki, “Azərbaycan Respublikasının uçot vahidlərinin Dövlət reyestrinin yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 09 sentyabr tarixli 496 nömrəli Qərarı ilə bu prosesə start verilmiş və “Azərbaycan Respublikası statistik vahidlərin Dövlət Reyestri haqqında

Əsasnamə" təsdiq edilmişdir [5]. Bundan sonra müxtəlif ölkələrin bu sahədə təcrübəsi və istifadə edilən metodologiyalar öyrənilmiş, reyestrin strukturu, reyestrə daxil ediləcək məlumatların siyahısı dəqiqləşdirilmiş, reyestr məlumatlarının kodlaşdırılması məqsədilə təsnifatlar hazırlanmış və nəhayət 1995-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində reyestrin ilkin prototipi yaradılmış, statistik vahidlərin reyestrə daxil edilməsi, müəssisə və təşkilatların müraciətləri əsasında reyestr üzrə şəhadətnamələrin təqdim edilməsi, statistik vahidlər üçün statistik kodun xüsusi düstur əsasında hesablanması və ümumilikdə reyestrin aparılması üçün müvafiq alqoritmlər yazılmış, yeni proqram təminatı işlənib hazırlanmış və 1996-cı ildən statistika sistemində reyestrdən istifadə edilməyə başlanılmışdır.







Şəkil 1. Reyestr kartı [5]    Şəkil 2. Şəhadətnamə [5]

İnformasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar olaraq, SVDR-də qeydiyyata alınması üçün həmin dövrdə müəssisə və təşkilatların müvafiq məlumatlarını özündə əks etdirən kağız formatda təqdim etdikləri "reyestr kartı" və onların SVDR-də qeydiyyatlarının mövcudluğunu təsdiq edən sənəd qismində təqdim edilən "şəhadətnamə" forması, eləcə də hazırlanmış bəzi alqoritmlər artıq öz aktuallığını itirmişdir.

Ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 25 oktyabr tarixli 2458 nömrəli "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Sərəncamına əsasən 2008-ci il 1 yanvar tarixindən hüquqi və fiziki şəxslərin vahid qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi (hazırda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti) müəyyən edilmişdir [6]. Beləliklə, 2008-ci ildən SVDR-in müvafiq inzibati və statistik məlumatlar əsasında formalaşdırılmasına başlanmışdır. Ümumilikdə, SVDR yarandığı gündən bu günə qədər dünya praktikasında istifadə edilən metodologiyalar, tövsiyələr əsasında daim genişləndirilir, inkişaf etdirilir və təkmilləşdirilir.




Şəkil 3. SVDR-də qeydiyyatda olan statistik vahidlərin sayı (ilin sonuna olan məlumat əsasında**)**

2022-ci il yanvarın 1-i vəziyyətinə SVDR-də qeydiyyatda olan hüquqi şəxslərin (filial və nümayəndəliklər də daxil olmaqla) sayı 167140, fiziki şəxslərin sayı isə 1168921 olmuşdur. Qeyd edilən statistik vahidlər üzrə məlumatlar Azərbaycanın bütün regionlarında baş verən inkişaf tempini əks etdirməklə bərabər, iqtisadiyyatın bütün sahələrini əhatə edir.







Şəkil 4. SVDR-də qeydiyyatda olan hüquqi şəxslərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, yekuna nisbətən (01.01.2022-ci il tarixinə) [13]

Şəkil 5. SVDR-də qeydiyyatda olan fiziki şəxslərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, yekuna nisbətən (01.01.2022-ci il tarixinə) [13]

SVDR mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş bütün müəssisə və təşkilatlar, onların nümayəndəlik və filialları, eyni zamanda xarici təşkilatların Azərbaycan Respublikasının ərazində fəaliyyət göstərən filial və nümayəndəlikləri və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətilə məşğul olmaq üçün müvafiq qaydada qeydiyyatdan keçmiş fiziki şəxslərə dair məlumatları əhatə etməklə, hər bir statistik vahid üzrə 70-ə yaxın göstəricini özündə əks edir. Göstəricilər dedikdə, statistik vahidin adı, VÖEN-i (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi), əsas və əlavə fəaliyyət növləri, əlaqə məlumatları (hüquqi və faktiki ünvan, əlaqə nömrələri və s.), dövlət qeydiyyatına alındığı tarix, iqtisadi göstəricilər və s. nəzərdə tutulur. Reyestr üzrə göstəricilərin tamlığı və dəqiqliyi daim nəzarətdə saxlanılır və aktuallığı təmin edilir. Reyestrin aparılması və aktuallaşdırılması, eləcə də məlumatların beynəlxalq müqayisəliliyinin və inteqrasiya zamanı uzlaşmanın təmin edilməsi məqsədilə beynəlxalq təsnifatlar əsasında və ya yerli şəraitə və qanunvericilik aktlarına uyğunlaşdırılaraq hazırlanmış statistik təsnifatlardan istifadə edilir:

1. İqtisadi fəaliyyət növləri təsnifatı (İFNT);
2. İnzibati ərazi bölgüsü təsnifatı (İƏBT);
3. Dünya ölkələri təsnifatı (DÖT);
4. Təşkilati-hüquqi formaların statistik təsnifatı (THFST);
5. Mülkiyyət növlərinin statistik təsnifatı (MNST);
6. İdarəetmə orqanlarının təsnifatı (İOT);
7. İqtisadiyyatın institusional sektorlarının təsnifatı (İİST).

Yuxarıda qeyd edilən təsnifatlardan 4-ü (İnzibati ərazi bölgüsü, Təşkilati-hüquqi formaların statistik, Mülkiyyət növlərinin statistik və İdarəetmə orqanlarının təsnifatları) milli qanunvericiliyin tələbləri gözlənilərək hazırlanmışdır və qanunvericilik aktlarında olan dəyişikliklər müvafiq olaraq təsnifatlarda da mütəmadi olaraq öz əksini tapır.

Hazırda reyestrdə iqtisadiyyatın institusional sektorları təsnifatının 2-ci variantı tətbiq edilməkdədir. O, birinci variantın yenilənmiş redaksiyası hesab edilir və 2008-ci il milli hesablar sistemində (MHS-2008) iqtisadiyyatın sektorlarının təsnifləşdirilməsinə dair verilmiş tövsiyələr əsasında işlənib hazırlanmışdır [13].

Dünya ölkələri təsnifatının reyestrdə hazırda 3-cü variantından istifadə edilir və təsnifat Birləşmiş Millətlər Təşkilatının Statistika şöbəsi tərəfindən hazırlanmış Birləşmiş Millətlər Təşkilatı ölkələrinin Standart kodlarının (Seriya M, №49) yenidən baxılmış variantı əsasında tərtib edilmişdir [13].

Reyestrdə istifadə edilən digər bir təsnifat – İqtisadi fəaliyyət növləri təsnifatının 3-cü variantıdır. Sözügedən təsnifat Avropa İttifaqının (Aİ) İqtisadi fəaliyyət növləri təsnifatının (NACE rev.2) 2-ci redaksiyası əsasında hazırlanmışdır. Onu da qeyd etmək lazımdır ki, İFNT-nin 1-ci variantı (NACE rev.1) 1995, 2-ci variantı (NACE rev.1.1) 2002, 3-cü variantı (NACE rev.2) isə 2008-ci ildən tətbiq edilmişdir [13].

SVDR tarixi reyestrdir və yarandığı gündən bu günə kimi qeydiyyatda olan statistik vahidlərə dair bir çox göstəriciləri özündə ehtiva etməklə yanaşı, həm də hər bir statistik vahidin göstəricilərində baş vermiş dəyişiklikləri əhatə edir. Bununla yanaşı SVDR– “canlı” reyestrdir, belə ki, məlumatlar daim yenilənir, yeni müəssisələr “doğulur”, “ölür”, birləşir, bölünür, əlaqə məlumatları, fəaliyyət növü və s. dəyişir. Bu isə o deməkdir ki, reyestrdə olan məlumatlar daim yenilənməli və onların aktuallığı təmin edilməlidir. Reyestrin aktuallığının təmin edilməsi müxtəlif mənbələrdən daxil olan məlumatlar vasitəsilə həyata keçirilir.




Şəkil 6. SVDR-in aktuallaşdırılması üçün istifadə edilən məlumat mənbələri.

İnzibati mənbələr statistika üçün əhəmiyyətlidir və bir çox üstünlüklərə malikdir. İnzibati məlumatlardan istifadə iqtisadi cəhətdən daha səmərəlidir və daha dəqiq məlumatlar əsasında statistik müşahidələrin aparılmasına zəmin yaradır. Belə ki, inzibati məlumatlardan istifadə zamanı daha az işçi qüvvəsi tələb olunur, təkrarçılıq aradan qalxır, respondentlərin üzərinə düşən yük və eynilə də, reyestrin aparılmasında iştirak edən əməkdaşların iş yükü azalır, seçmə müşahidələrdən fərqli olaraq baş məcmu demək olar ki, tam əhatə olunur, vaxtlı-vaxtında olma və məlumatların aktuallığı təmin olunur.

Bu gün tək SVDR-in aparılması və yenilənməsi məqsədilə deyil, həm də ümumi statistika sistemində inzibati məlumat istehsalçılarının əməkdaşlığa cəlb edilməsi və inzibati məlumatların statistik məqsədlər üçün istifadəsi əsas prioritet məsələlərdən biridir və bu sahədə fəaliyyətin təşkil olunmasına mövcud qanunvericilik tam imkan verir. Statistik vahidlərin üzərinə düşən məlumat yükünün azaldılması üçün onlar tərəfindən müxtəlif dövlət qurumlarına təqdim edilən məlumatlar üzrə təkrarçılığın aradan qaldırılması, inzibati vəzifələrinin yerinə yetirilməsilə əlaqədar dövlət qurumları tərəfindən toplanan məlumatların rəsmi statistikada istifadəsinin genişləndirilməsi və həmin məlumatların Dövlət Statistika Komitəsinin statistik məlumat bazalarına inteqrasiyası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etmək məqsədilə Dövlət Statistika Komitəsinin 2016-cı il 11 oktyabr tarixli, 159/t nömrəli əmrilə tərkibinə 27 dövlət qurumu və təşkilatın nümayəndələrinin daxil olduqları işçi qrupları yaradılmışdır. Eyni zamanda inzibati məlumatlardan istifadə ilə bağlı işlərin daha da sürətləndirilməsi və planlı şəkildə təşkili üçün Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planının 5.3.2-ci bəndində "Dövlət qurumlarının məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına "Elektron hökumət" şlüzü vasitəsilə inteqrasiyası" nəzərdə tutulmuşdur [7].

İnzibati məlumatlardan istifadənin genişləndirilməsilə əlaqədar işçi qruplarının qarşısında duran vəzifələrin və dövlət proqramının müvafiq bəndinin icrası məqsədilə məlumatların

inteqrasiyası üzrə 5 dövlət orqanı ilə 3 tərəfli razılaşmalar imzalanmış, digər inzibati məlumat istehsalçıları ilə danışıqlar davam etdirilir. Razılaşmanın tərəfləri inzibati məlumatlara malik müvafiq dövlət qurumu, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və əlaqələndirici orqan qismində isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir. İmzalanmış razılaşmalar əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət İmtahan Mərkəzinin müvafiq məlumatları Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiya edilmiş, Ədliyyə və Təhsil nazirliklərinin, eləcə də Dövlət Miqrasiya Xidmətinin məlumatlarının isə Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyası istiqamətində zəruri texniki tədbirlər həyata keçirilməkdədir.

İnteqrasiya ilə bağlı əldə olunmuş və eləcə də gələcəkdə inteqrasiyası nəzərdə tutulmuş göstəricilər sayəsində təkrarçılığın aradan qaldırılması nəticəsində respondentlərin üzərinə düşən yükün və statistik hesabat formalarında olan göstəricilərin sayının nəzərəçarpacaq dərəcədə azaldılması, SVDR-in əhatə dairəsinin genişləndirilməsi, biznes demoqrafiyasına dair məlumatların hazırlanması, müəssisə qruplarının müəyyən edilməsi üçün göstəricilərin əldə edilməsinə hədəflənmişdir və bu sahədə işlər davam etdirilir.

Statistika sisteminin və eləcə də statistik məlumatların toplanılmasında "təməl daşı" olan reyestrin inkişaf etdirilməsi hər zaman ən prioritet məsələlərdən biri olmuş və bu məqsədlə müxtəlif layihələr həyata keçirilmişdir. Bu layihələrdən 2020-ci ilin sentyabr ayından başlanılmış və 2022-ci ilin aprel ayında yekunlaşmış Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Dövlət Statistika Komitəsinin benefisiarı olduğu "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" Tvinninq layihəsini qeyd etmək yerinə düşərdi. Layihənin "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətilə Dövlət Statistika Komitəsi arasında mövcud olan məlumat mübadiləsinin keyfiyyətinin yaxşılaşdırılması" komponenti çərçivəsində reyestrin yenilənməsilə bağlı mövcud vəziyyətin ekspert qiymətləndirilməsi həyata keçirilmiş, məlumat mübadiləsi standartları ilə bağlı tələblər müəyyən edilmiş, məlumatların yenilənməsi metodları öyrənilmiş, Dövlət Statistika Komitəsi tərəfindən rəsmi statistik məlumatların istehsalında istifadəsi nəzərdə tutulan inzibati məlumatların əhatə dairəsinin müəyyən olunması üzrə biznes prosesinin xəritəsi hazırlanmış, Dövlət Statistika Komitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti arasında mövcud olan razılaşmaların birləşdirilməsi və SVDR-in məlumatlarının əhatə dairəsinin genişləndirilməsi məqsədilə yeni razılaşma layihəsi hazırlanmış və baxılması üçün işçi qaydada Dövlət Vergi Xidmətinə təqdim olunmuş, statistik vahid, müəssisə və müəssisə qrupları, profilləşdirmə eyni zamanda statistik biznes demoqrafiyasının əhatəsi və hesablanması qaydalarına dair ekspertlər tərəfindən metodoloji məlumat verilmiş və layihədə iştirak edən ölkələrin (Litva, Niderland, Danimarka, Finlandiya) bu sahədəki təcrübələri öyrənilmişdir. Əldə edilmiş yeni biliklər və inzibati məlumatlar gələcəkdə SVDR-i daha da təkmilləşdirməyə imkan verəcəkdir.

SVDR məlumatlarının əhatəsinin genişləndirilməsiylə yanaşı məlumatların aktuallığının təmin edilməsi də vacibdir. Nəzəri olaraq, SVDR-in aktuallaşdırılmasını 3 mərhələyə bölmək olar:

1. Birinci mərhələ – inzibati məlumatlardan istifadədir. Belə ki, ölkə ərazisində yeni qeydiyyatdan keçmiş, ləğv edilmiş, fəaliyyətini müvəqqəti olaraq dayandırmış, fəaliyyətini bərpa etmiş və ya məlumatlarında digər hər hansı dəyişiklik edilmiş hüquqi və fiziki şəxslərin məlumatlarının SVDR-ə inteqrasiyası (hazırda – aylıq dövriliklə, gələcəkdə gündəlik olaraq yenilənmə nəzərdə tutulur), eyni zamanda "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nə ötürülməsi məqsədilə mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin müəyyən olunmasında istifadə edilən illik dövriyyə və işçilərin illik orta siyahı sayı ilə bağlı məlumatların (hər il) reyestrə daxil edilməsi yalnız müvafiq inzibati məlumat mənbələrindən əldə edilmiş məlumatlardan istifadə edilməklə avtomatlaşdırılmış formada həyata keçirilir.
2. İkinci mərhələ – cari aktuallaşmadır. Cari aktuallaşma dedikdə, gündəlik olaraq SVDR məlumatları üzərində aparılan əməliyyatlar nəzərdə tutulur. Belə ki, SVDR göstəricilərinin hər hansı birində baş vermiş dəyişiklik gündəlik olaraq reyestrdə öz əksini

tapmalıdır. Məsələn: müəssisənin iqtisadi fəaliyyət növü dəqiqləşdirilərkən yerli statistika orqanları tərəfindən statistik vahidlə əlaqə saxlanılır, dəyişiklik Komitənin müvafiq sahə şöbələrilə razılaşdırılır və dərhal reyestrdə zəruri qaydada düzəliş edilir.

3. Üçüncü mərhələ – iqtisadi göstəricilərin aktuallaşdırılması və ya SVDR-in illik aktuallaşdırılmasıdır. Metodologiyaya uyğun olaraq, hər il yanvarın 1-i vəziyyətinə illik məlumatların rayon (şəhər) bölgüləri, aktuallaşmanın qrafiki hazırlanır və müvafiq yerli statistika orqanlarına təqdim edilir. İllik aktuallaşmanın aparılma dövrü müvafiq olaraq, illik hesabatların yekunlaşma dövrünə - hər sonrakı ilin aprel-may aylarına təsadüf edir. Belə ki, SVDR-in aparılması qaydalarına uyğun olaraq hər bir yerli statistika orqanı onlara təqdim olunmuş reyestr siyahısı üzrə məlumatları dəqiqləşdirərək, qrafikdə nəzərdə tutulmuş müddət ərzində aktuallaşma materiallarını Komitəyə təqdim edirlər. Təqdim edilmiş materiallar SVDR-in aparılması və aktuallaşdırılmasına cavabdeh olan mütəxəssislər tərəfindən yoxlanılaraq qəbul edildikdən sonra inteqrasiya üçün hazırlanır və SVDR-in yenilənməsi həyata keçirilir.

İqtisadi göstəricilərin aktuallaşdırılması sona çatdıqdan sonra SVDR ümumi olaraq yenidən təhlil edilir, aktuallaşmış məlumatlar nəzərdən keçirilir, SVDR-in əsasında statistik reyestr formalaşdırılır və o, il ərzində dəyişməz olaraq qalır. SVDR üzrə ümumilikdə və eləcə də rayon bölgüsündə aktuallaşmanın keyfiyyəti qiymətləndirilir və sonda aktuallaşdırılmış məlumatların iqtisadi rayonlar və sahə şöbələri üzrə bölgüsü hazırlanaraq və xidməti istifadə üçün aidiyyəti üzrə təqdim edilir.

**Cədvəl**

**01.01.2022-ci il tarixinə SVDR-də qeydiyyatda olan statistik vahidlərin iqtisadi fəaliyyət növləri üzrə sayı (fərdi sahibkarlar istisna olmaqla) [13]**

| Fəaliyyət növünün | | 01.01.2022-ci il vəziyyətinə statistik vahidlərin sayı | | Ümumi saya görə, faizlə | 01.01.2021-ci il vəziyyətinə olan statistik vahidlərin sayına görə, faizlə |
|---|---|---|---|---|---|
| Hərf işarəsi | Adı | Cəmi* | o cümlədən kommersiya təşkilatları | | |
| | **CƏMİ** | **167140** | **149950** | **100,0** | **107,5** |
| **A** | o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 11936 | 11189 | 7,1 | 103,3 |
| **B** | Mədənçıxarma sənayesi | 985 | 985 | 0,6 | 104,1 |
| **C** | Emal sənayesi | 9343 | 9332 | 5,6 | 109,9 |
| **D** | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 343 | 309 | 0,2 | 103,9 |
| **E** | Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 673 | 582 | 0,4 | 115,2 |
| **F** | Tikinti | 15887 | 15818 | 9,5 | 107,7 |
| **G** | Ticarət; nəqliyyat vasitələrinin təmiri | 48844 | 48827 | 29,2 | 111,0 |
| **H** | Nəqliyyat və anbar təsərrüfatı | 4092 | 4072 | 2,5 | 116,5 |
| **İ** | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 3665 | 3648 | 2,2 | 108,7 |
| **J** | İnformasiya və rabitə | 4674 | 4615 | 2,8 | 113,9 |
| **K** | Maliyyə və sığorta fəaliyyəti | 2068 | 2019 | 1,2 | 108,5 |
| **L** | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 2365 | 2183 | 1,4 | 109,5 |
| | **1** | **2** | **3** | **4** | **5** |
| **M** | Peşə, elmi və texniki fəaliyyət | 11556 | 10853 | 6,9 | 110,0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **N** | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 8347 | 8216 | 5,0 | 107,6 |
| **O** | Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4898 | 0 | 2,9 | 99,0 |
| **P** | Təhsil | 5069 | 2888 | 3,0 | 108,1 |
| **Q** | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2595 | 2097 | 1,6 | 111,8 |
| **R** | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 2284 | 1801 | 1,4 | 105,4 |
| **S** | Digər sahələrdə xidmətlərin göstərilməsi | 27417 | 20516 | 16,4 | 100,6 |
| **U** | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 99 | 0 | 0,1 | 102,1 |

** Bu və sonrakı cədvəllərdə statistik vahidlərin sayına dair son tarixə olan məlumatlarda əvvəlki dövrlərdə yaranmış və ya ləğv edilmiş statistik vahidlərin sayı ilə bağlı inzibati mənbələrdən əldə edilmiş məlumatlar əsasında aparılmış dəqiqləşmələr də öz əksini tapmışdır.*

Dövlət Statistika Komitəsi tərəfindən hazırlanan "Ölkənin sosial-iqtisadi inkişafına dair aylıq məruzə"də rüblük dövrilikdə SVDR məlumatları əsasında hazırlanmış məlumatlar da öz əksini tapır. Məcmuədə reyestr əsasında hazırlanmış məlumatlarda iqtisadi fəaliyyət növləri və iqtisadi rayonlar üzrə statistik vahidlərin sayı, qeydiyyatda olan statistik vahidlərin iqtisadi fəaliyyət üzrə mülkiyyət növlərinə görə bölgüsü, statistik vahidlərin demoqrafiyasına dair məlumatlar, sahibkarlıq subyektlərinin meyar bölgüsünə uyğun olaraq sayları, fərdi sahibkarların sayı və gender bölgüsü məlumatları da öz əksini tapır. Həmçinin yerli və xarici istifadəçilər üçün eyni səpkili məlumatlar Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində azərbaycan və ingilis dillərində təqdim edilir.

Eyni zamanda, hər il may ayında reyestr əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli, 556 nömrəli Qərarına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Dövlət Statistika Komitəsinə təqdim edilmiş məlumatlardan istifadə edilərək sahibkarlıq subyektlərinin aid olduqları kateqoriyalar üzrə bölgüsü hazırlanır və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nə ötürülməsi təmin edilir [8]. Həmçinin, sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakı üçün aid olduqları kateqoriyaya dair məlumat əldə etmək məqsədilə Dövlət Statistika Komitəsinə rəsmi qaydada müraciətləri əsasında bölgü nəticəsində hazırlanmış məlumatlardan istifadə edərək, onlara müvafiq arayışlar təqdim edilir. Bununla yanaşı, hazırda dövlət satınalmalarında iştirak etmək üçün sahibkarlıq subyektlərinə müvafiq arayışların elektron qaydada təqdim edilməsi üçün lazımi tədbirlər görülməkdədir.

## Nəticə

Azərbaycan Respublikasının statistik vahidlərin Dövlət reyestri iqtisadi statistikanın əsasını təşkil edir və yarandığı gündən bu günə kimi SVDR uzun bir təkamül yolu keçərək genişlənmiş və daim inkişaf etdirilmişdir. SVDR məlumatlarından istifadə edilməsi müşahidələrin təşkilindəki iqtisadi səmərəlilik, vaxtlı-vaxtında olma, əlverişlilik, respondentlərin üzərinə düşən yükün azaldılması, eyni zamanda təkrarçılığın aradan qaldırılması baxımından çox əlverişlidir.

SVDR məlumatlarının aktuallığı statistik müşahidə və müayinələrin nəticələrinə təsir edən başlıca amillərdən biridir. Odur ki, reyestrin aparılması zamanı məlumatların aktuallığını təmin etmək əsas vəzifələrdən biridir və hazırda bu proseslərin daha səmərəli və operativ formada həyata keçirilməsində mövcud qanunvericilik aktları mühüm rol oynayır.

SVDR məlumatları statistik və inzibati məlumatlar əsasında formalaşdırılır və aktuallaşdırılır. SVDR "canlı" reyestr olduğu üçün yarandığı gündən reyestr məlumatlarında baş vermiş dəyişikliklərin və eləcə də ölkə üzrə iqtisadi inkişaf tempinin izlənilməsi üçün ən əlverişli vasitədir.

**Şəfa Qarayeva, Leyla İsmayılova**
**Azərbaycan Respublikasında statistik vahidlərin Dövlət reyestrinin aparılması və aktuallaşdırılması məsələləri**
**Xülasə**
Məqalədə Statistik Biznes Reyestr, statistik vahidlərin Dövlət reyestrinin yaradılması, reyestr məlumatlarının formalaşdırılması, reyestrdə məlumatların kodlaşdırılması üçün istifadə edilən təsnifatlar, SVDR-in keçdiyi inkişaf yolu, reyestr göstəricilərinin aktuallaşdırılması prosesi, istifadə edilən məlumat mənbələri, statistikada reyestrlərdən istifadənin üstünlükləri, statistik məlumatların toplanması və emalı prosesində reyestrin rolu, reyestr məlumatlarından istifadə edərək istehsal edilən statistik məlumatlar haqqında məlumat verilmişdir. Reyestr yönümlü statistikanın təşkili və eləcə də statistikada inzibati məlumatlardan istifadə daha operativ və aktual statistik məlumatların istehsalına, iqtisadi səmərəliliyə və respondentlərin məlumat yükünün azaldılmasına zəmin yaradır. Odur ki, SVDR göstəricilərinin genişləndirilməsi, məlumatların aktuallığının təmin edilməsi məqsədilə yeni inzibati mənbələrdən istifadə statistik istehsalın səmərəliliyinin təmin edilməsində ən prioritet məsələlərdən biridir.

**Шафа Караева, Лейла Исмаилова**
**Государственного реестра статистических единиц в Азербайджанской Республике вопросы проведения и актуализации**
**Резюме**
В статье представлена информация о Статистическом Бизнес Регистре, о создании Государственного реестра статистических единиц (ГРСЕ), о формировании данных реестра, о классификациях, используемых для кодирования данных в реестре, о путях развития ГРСЕ, о процессе актуализации показателей реестра, об используемых источниках информации, о преимуществах использования реестров для производства статистики, о сборе статистических данных, а также о роли реестра в процессе обработки статистических данных. Организация статистики, основанной на данных регистров, а также использование административных данных в статистике обеспечивает основу для производства более оперативной и актуальной статистики, повышает экономическую эффективность и снижает статистическую нагрузку на респондентов. Следовательно, расширение показателей ГРСЕ и использование новых административных источников для обеспечения актуальности данных является одним из главных приоритетов в обеспечении эффективности статистического производства.

**Shafa Garayeva, Leyla Ismayilova**
**The State Register of statistical units in the Republic of Azerbaijan conduct and actualization issues**
**Summary**
The article presents short information about the Statistical Business Register, about the creation of the State register of statistical units (SRSU), about the formation of the register data, about the classifications used to encode data in the register, about the development path of the GRSU, about the process of updating the register indicators, about the sources of information used, on the benefits of using registers in the statistical system, on the collection of statistical data, and on the role of the register in the processing of statistical data. The organization and implementation of register-based statistics, as well as the use of administrative data in statistics, provides a basis for producing more accurate and relevant statistics, enhances economic efficiency and reduces the burden on the respondents. Consequently, expanding the SRSU indicators and using new administrative sources to ensure the relevance of data is one of the main priorities in ensuring the efficiency of statistical production.

## Ədəbiyyat

1. Dövlət reyestrinin aparılması qaydaları haqqında təlimat. Bakı - 1999
2. Statistik müşahidələrin keçirilməsi metodologiyasının yeni tələblərinə (müəssisə qruplarının

uçotu, maliyyə əlaqələrinin əks olunması və s.) uyğun olaraq statistik registrin aparılması, formalaşdırılması və təkmilləşdirilməsinə dair metodoloji izahatlar. Bakı-2010
3. Statistik vahidlərin Dövlət registrində baş verən dəyişikliklərin tədqiqi konsepsiyası. Bakı-2013
4. İnzibati məlumat mənbələrindən alınan məlumatların statistika məlumatlarının hazırlanması mərhələlərinə, o cümlədən registr və hesabat sisteminə inteqrasiya olunmasına dair tövsiyələr. Bakı-2013
5. “Azərbaycan Respublikasının uçot vahidlərinin Dövlət registrinin yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. 09 sentyabr 1992-ci il
6. “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 25 oktyabr 2007-ci il
7. “2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 14 fevral 2018-ci il
8. “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. 21 dekabr 2018-ci il
9. Guidliness on Statistical Business Registers (UNECE 2015) www.unece.org/fileadmin/DAM/stats/publications/2015/ECE_CES_39_WEB.pdf
10. www.onlinelibrary.wiley.com
11. www.unstats.un.org
12. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası: www.e-qanun.az
13. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi: www.stat.gov.az

Məqalə redaksiyaya daxil olmuşdur: 27.09.2022
Təkrar işlənməyə göndərilmişdir: 30.09.2022
Çap üçün qəbul olunmuşdur: 19.11.2022

UOT:33; 311
DOI: 10.338.70/2413-6557-2022-8-4-14-25

# PANDEMİYA VƏ DÜNYADA BAŞ VERƏN PROSESLƏR FONUNDA AZƏRBAYCANDA İNFLYASİYANIN SƏVİYYƏSİ VƏ DİNAMİKASI

***Orxan Əhmədov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Qiymət statistikası şöbəsinin baş məsləhətçisi*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: orkhan.ahmadov@stat.gov.az*

**Açar sözlər**: iqtisadi aktivlik, qiymət, tələb, təklif, inflyasiya, istehlak qiymətləri indeksi, istehsalçı qiymətləri indeksi, pandemiya.
**Ключевые слова:** экономическая активность, цена, спрос, предложение, инфляция, индекс потребительских цен, индекс цен производителей, пандемия.
**Keywords:** economic activity, price, demand, supply, inflation, consumer price index, producer price index, pandemic.

Son dövrlər pandemiya, Qarabağ müharibəsi və dünyada baş verən gərgin qlobal proseslərlə yadda qalmışdır. Belə ki, son 3 ili iqtisadi aktivlik və inflyasiya baxımından aşağıdakı kimi xarakterizə etmək olar:

2020-ci il - karantin tədbirləri çərçivəsində bəzi ticarət və xidmət sahələrinin fəaliyyətinin məhdudlaşdırılması, artan iqtisadi qeyri-müəyyənliklər fonunda inflyasiyanın aşağı səviyyədə qərarlaşması

2021-ci il - iqtisadi artımın bərpası fonunda inflyasiya təzyiqlərinin güclənməsi

2022-ci il - gərgin geosiyasi və geoiqtisadi proseslər fonunda inflyasiyanın yüksəlməsi

2020-ci ildə Çində meydana gələn və dünyaya yayılaraq qlobal pandemiya elan edilən COVİD-19 virusu epidemioloji vəziyyət yaratmış və bununla əlaqədar olaraq qlobal ticarətin kəskin azalması, təchizat zəncirində pozulmalar, bir çox ticarət və xidmət sahələrinin fəaliyyətinin məhdudlaşdırılması və artan qeyri-müəyyənliklər qlobal iqtisadi aktivliyə mənfi təsir göstərmiş, azalan qlobal tələb əmtəə qiymətlərinin kəskin enişilə müşayiət olunmuşdur. Qlobal iqtisadi mühitdə qeyri-müəyyənliklər neftin kəskin ucuzlaşmasına, maliyyə bazarlarında dalğalanmalara səbəb olmuşdur. Ölkəmizdə də virusun yayılmasının qarşısının alınması məqsədilə karantin tətbirləri həyata keçirilmiş və bir çox ticarət və xidmət sahələrinin fəaliyyəti müvəqqəti məhdudlaşdırılmışdır. Xüsusi karantin rejiminin tətbiq olunması ilə bir çox ticarət və xidmət sahələrinin fəaliyyətinin müvəqqəti məhdudlaşdırılması nəticəsində işsiz kimi qeydiyyatda olan şəxslərə, aztəminatlı ailələrə, qeyri-formal çalışanlara birdəfəlik ödəmənin verilməsi həyata keçirilmişdir ki, bu da əhalinin azalan gəlirlərinin qismən kompensasiyasına şərait yaratmışdır.

Karantin rejiminin sərtləşməsilə əlaqədar ərzağa tələbin qısamüddətli yüksəlməsi, eləcə də istehsal və daşınma xərclərinin artımı istehlak səbətində əhəmiyyətli çəkiyə malik ərzaq məhsullarının qiymətlərinin daha çox yüksəlməsinə, inflyasiyanın digər komponentləri olan qeyri-ərzaq məhsulları və xidmətlərə isə tələbin azalması, bəzi tərəfdaş ölkələrdə milli valyutaların ucuzlaşması, habelə inzibati metodlarla tənzimlənən qiymətlərin sabitliyi qeyri-ərzaq məhsulları və ödənişli xidmətlər üzrə qiymətlərin nisbətən aşağı səviyyədə qərarlaşmasına səbəb olmuşdur. Belə

ki, 2020-ci ildə istehlak qiymətləri indeksi əvvəlki ilə nisbətən 102,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105,0 faiz, qeyri-ərzaq məhsulları üzrə 101,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 101,1 faiz təşkil etmişdir [1].




Şəkil 1. 2020-ci ildə istehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)

Göründüyü kimi, pandemiyanın neqativ təsirləri fonunda ilin əvvəlinə nisbətən ilin sonuna doğru inflyasiyanın artım tempi aşağı düşmüşdür.

Müqayisə üçün qeyd edək ki, 2020-ci ildə istehlak qiymətləri indeksi əvvəlki ilin müvafiq dövrünə nisbətən Ukraynada 102,7 faiz, Rusiyada 103,4 faiz, Moldovada 103,8 faiz, Gürcüstanda 105,2 faiz, Belarusda 105,5 faiz, Qırğızıstanda 106,3 faiz, Qazaxıstanda 106,8 faiz təşkil etmişdir [6, 7, 8, 9, 10, 11, 12, 13].




Şəkil 2. 2020-ci ildə bəzi ölkələr üzrə istehlak qiymətləri indeksi (əvvəlki ilə nisbətən, faizlə)

İnflyasiyaya təsir edən amilləri təhlil edərkən ərzaq bazarında formalaşan qiymətlərin inflyasiyanın əsas determinantı olduğu nəzərə alınmalıdır. Bu dövrdə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə ən çox bahalaşma tütün məmulatlarının qiymətlərində (16,5 faiz) müşahidə olunmuşdur. Bununla yanaşı, qeyd olunan dövrdə ərzaq məhsullarından yumurta üzrə istehlak qiymətləri indeksi 112,5 faiz, meyvə və tərəvəz üzrə müvafiq olaraq 109,0 və 107,0 faiz, balıq və balıq məhsulları üzrə 104,8 faiz, çörək, çörək məmulatları və yarmalar üzrə 103,6 faiz, ət və ət məhsulları üzrə 103,3 faiz, spirtli içkilər üzrə 103,2 faiz, süd və süd məhsulları üzrə 102,7 faiz, çay,

qəhvə və kakao üzrə 101,1 faiz, qənd, cem, bal, şokolad və konfetlər üzrə 100,8 faiz, kərə və bitki yağları üzrə istehlak qiymətləri indeksi 100,4 faiz təşkil etmişdir [2].




Şəkil 3. 2020-ci ildə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilə nisbətən, faizlə)

2020-ci ildə ayrı-ayrı ərzaq məhsullarının istehlak qiymətləri indeksi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 1**

**2020-ci ildə bəzi ərzaq məhsullarının istehlak qiymətləri indeksləri (əvvəlki ilə nisbətən, faizlə) [2]**

| | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | yerli məhsullar üzrə | idxal məhsulları üzrə |
| Uzun düyü | 102,7 | 102,0 | 103,0 |
| Yumru düyü | 107,5 | 105,2 | 108,8 |
| Buğda unu | 102,8 | 101,7 | 105,4 |
| Əla növ buğda çörəyi | 100,8 | 100,8 | - |
| Makaron | 104,5 | 103,8 | 105,3 |
| Mal əti | 104,3 | 104,3 | - |
| Qoyun əti | 103,2 | 103,2 | - |
| Pasterizə olunmamış üzlü süd | 106,9 | 106,9 | - |
| Brınza pendiri | 102,3 | 102,5 | 101,8 |
| Yumurta | 112,5 | 112,5 | - |
| Kərə yağı | 99,6 | 100,0 | 99,3 |
| Zeytun yağı | 100,0 | 100,5 | 99,6 |
| Qarğıdalı yağı | 99,4 | 98,5 | 100,3 |
| Günəbaxan yağı | 102,7 | 103,9 | 101,6 |
| Şəkər | 101,7 | 101,4 | 102,2 |
| Şəkər tozu | 98,4 | 98,1 | 98,7 |
| Çay | 101,0 | 100,5 | 101,4 |

Yuxarıda göstərilən məhsullardan buğda unu, mal, qoyun ətinin, pasterizə olunmamış üzlü südün, yumurtanın pərakəndə satış qiymətlərinə əsasən həmin məhsullar üzrə istehsalçı qiymətlərinin dəyişməsi təsir göstərmişdir. Belə ki, bu dövrdə buğda ununun istehsalçı qiyməti 1,7 faiz, mal və qoyun ətinin müvafiq olaraq 4,8 və 2,6 faiz, pasterizə olunmamış üzlü südün 3,5 faiz, yumurtanın istehsalçı qiyməti isə 25,5 faiz artmışdır. Uzun və yumru düyünün, makaronun, şəkərin, çayın istehlak qiymətləri isə həmin məhsulların idxal qiymətlərinin yüksəlməsi hesabına artmışdır.

Qeyd edildiyi kimi, 2020-ci ildə qeyri-ərzaq məhsullarına tələbin azalması bu məhsulların qiymətlərinin aşağı səviyyədə qərarlaşmasına səbəb olmuşdur.




Şəkil 4. 2020-ci ildə qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilə nisbətən, faizlə) [2]

Göründüyü kimi, 2020-ci ildə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma dərman vasitələri istisna olmaqla digər tibb təyinatlı məhsulların qiymətlərində müşahidə edilmişdir ki, bu da pandemiya dövründə həmin məhsullara tələbin artması ilə əlaqədar olmuşdur. Belə ki, qeyd olunan dövrdə tibbi spirtin pərakəndə satış qiyməti 13,8 faiz, tibbi pambığın 4,4 faiz, tibb termometrinin 6,1 faiz, qan təzyiqini ölçmək üçün elektron aparatın 4,4 faiz, şprisin pərakəndə satış qiyməti 0,9 faiz bahalaşmışdır.

2020-ci ildə karantin rejimilə əlaqədar bir sıra xidmət sahələrinə məhdudiyyətlərin tətbiq edilməsi və ayrı-ayrı xidmət növlərinə tələbin azalması bu sahədə də qiymətlərin nisbətən sabitliyinə səbəb olmuşdur.




Şəkil 5. 2020-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilə nisbətən, faizlə) [2]

Qeyd olunan dövrdə elektrik enerjisi təchizatı xidmətinin qiymətinin 2,1 faiz ucuzlaşması xüsusi karantin dövründə "Əhalinin elektrik enerjisinin istehlakı üzrə kommunal ödənişlərə dəstək proqramı" çərçivəsində 2020-ci ilin aprel ayından iyun ayınadək elektrik enerjisinin güzəştli istehlak limitinin 300 kVt-saatdan 400 kVt-saatadək artırılması ilə əlaqədar olmuşdur. Bu dövrdə nəqliyyat vasitələrilə bağlı digər xidmətlərin qiymətlərinin 23,5 faiz yüksəlməsinə isə səbəb 2020-ci ilin yanvar ayında avtomobillərin texniki baxış xidməti üzrə qiymətin 50,0 faiz artırılması olmuşdur.

2021-ci il dünyada iqtisadi artımın bərpası və inflyasiya təzyiqlərinin güclənməsilə əlamətdar olmuşdur. Belə ki, epidemioloji məhdudiyyətlərin yumşaldılması və tələbin artması iqtisadi artıma

müsbət təsir etmiş, lakin artan enerji və ərzaq qiymətləri, tədarük zəncirində problemlər bir çox ölkələrdə gözləniləndən daha yüksək və davamlı inflyasiya ilə nəticələnmişdir. Bu dövrdə xüsusilə xarici xərc amilləri birbaşa və dolayı yolla ölkə daxilində də qiymət artımına təsir göstərmişdir.




Şəkil 6. 2021-ci ildə istehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [3]

Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə istehlak qiymətləri indeksi əvvəlki ilə nisbətən Moldovada 105,1 faiz, Rusiyada 106,7 faiz, Qazaxıstanda 108,0 faiz, Ukraynada 109,4 faiz, Belarusda 109,5 faiz, Gürcüstanda 109,6 faiz, Qırğızıstanda 111,9 faiz təşkil etmişdir [6, 7, 8, 9, 10, 11, 12, 13].




Şəkil 7. 2021-ci ildə bəzi ölkələr üzrə istehlak qiymətləri indeksi (əvvəlki ilə nisbətən, faizlə)

2021-ci ildə də, əvvəlki ildə olduğu kimi, ölkədə ümumi inflyasiya səviyyəsinin formalaşmasına ərzaq məhsullarının bahalaşması təsir göstərmişdir. Bu dövrdə ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki ilin müvafiq dövrünə nisbətən 108,1 faiz təşkil etmişdir. Ölkədə ərzaq məhsullarının qiymət artımına dünya bazarında ərzaq məhsullarının bahalaşması təsir göstərmişdir. 2021-ci ildə qeyri-ərzaq məhsulları və əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də artım qeydə alınmışdır. Belə ki, 2021-ci ildə qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi 105,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə 105,8 faiz təşkil etmişdir.




Şəkil 8. 2021-ci ildə ərzaq, qeyri-ərzaq məhsulları və ödənişli xidmətlərin istehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [3]

2021-ci ildə əvvəlki illə müqayisədə ərzaq məhsullarından çörək, çörək məmulatları və yarmalar üzrə istehlak qiymətləri indeksi 106,4 faiz, ət və ət məhsulları üzrə 100,8 faiz, balıq və balıq məhsulları üzrə 105,2 faiz, süd və süd məhsulları üzrə 106,5 faiz, yumurta üzrə 115,3 faiz, kərə və bitki yağları üzrə 108,2 faiz, meyvə və tərəvəzlər üzrə müvafiq olaraq 106,8 və 124,7 faiz, qənd, cem, bal, şokolad və konfetlər üzrə 108,0 faiz, çay, qəhvə və kakao üzrə 104,4 faiz, mineral sular,

sərinləşdirici içkilər və şirələr üzrə 104,6 faiz təşkil etmişdir. Bu dövrdə istehlak qiymətləri indeksi spirtli içkilər üzrə 102,5 faiz, tütün məmulatları üzrə isə 109,5 faiz olmuşdur.




Şəkil 9. 2021-ci ildə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilə nisbətən, faizlə) [3]

Göründüyü kimi, 2021-ci ildə ərzaq məhsulları üzrə ən yüksək artım tərəvəzlərin, ən az artım isə ət və ət məhsullarının qiymətlərində müşahidə olunmuşdur. Ayrı-ayrı əsas ərzaq məhsullarının qiymət dəyişməsini təhlil etdikdə bu dövrdə buğda ununun, bitki yağlarının, şəkər və şəkər tozunun bahalaşdığını və bahalaşmaya bu məhsulların və onların xammalının dünya bazarında qiymətlərinin kəskin yüksəlməsinin təsir göstərdiyini müəyyən etmək olar. Belə ki, 2021-ci ildə buğda ununun istehlak qiyməti 4,0 faiz, günəbaxan və qarğıdalı yağlarının müvafiq olaraq 15,9 və 9,8 faiz, şəkər və şəkər tozunun müvafiq olaraq 8,5 və 9,3 faiz artmışdır. Qeyd olunan dövrdə mal və toyuq ətinin, yumurtanın istehlak bazarındakı qiymətlərinə onların istehsalçı qiymətləri təsir göstərmişdir. Belə ki, 2021-ci ildə mal ətinin istehsalçı qiyməti 1,1 faiz, istehlak qiyməti 1,3 faiz ucuzlaşmış, toyuq ətinin istehsalçı qiyməti 21,0 faiz, istehlak qiyməti 1,4 faiz, yumurtanın istehsalçı qiyməti 22,8 faiz, istehlak qiyməti isə 14,6 faiz bahalaşmışdır.

2021-ci ildə qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi 105,1 faiz təşkil etmişdir.




Şəkil 10. 2021-ci ildə qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilə nisbətən, faizlə) [3]

Bu dövrdə qeyri-ərzaq məhsullarından ən çox artım yanacaq məhsullarının qiymətlərində qeydə alınmışdır. Belə ki, 2021-ci ildə yanacaq məhsullarından Aİ-92 markalı benzinin və dizel yanacağının qiymətləri müvafiq olaraq 11,1 faiz və 33,3 faiz bahalaşmışdır.

2021-ci ildə əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də artım müşahidə edilmişdir. Artıma əsasən qiymətləri dövlət tərəfindən tənzimlənən mal və xidmətlərin qiymət və tariflərinin dəyişdirilməsi təsir göstərmişdir. Belə ki, bu dövrdə qiymətləri dövlət tərəfindən tənzimlənən xidmətlərdən su təchizatı və tullantı sularının axıdılması üzrə xidmətlərin tarifləri 91,7

faiz, elektrik enerjisi və təbii qaz təchizatı üzrə xidmətlərin tarifləri isə müvafiq olaraq 4,3 faiz və 19,5 faiz artmışdır.




Şəkil 11. 2021-ci ildə əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilə nisbətən, faizlə) [3]

Bu dövrdə kommunal xidmətlərlə yanaşı, hava nəqliyyatı ilə sərnişindaşıma xidmətlərinin qiymətləri də digər ödənişli xidmətlərlə müqayisədə daha çox artmışdır. Belə ki, MDB və digər ölkələrə hava nəqliyyatı ilə sərnişindaşıma xidmətlərinin qiymətləri müvafiq olaraq 76,5 və 31,7 faiz artmışdır [3].

2022-ci il dünya iqtisadiyyatı üçün pandemiya ilə əlaqədar məhdudiyyətlərin tədricən aradan qaldırılması, gərgin qlobal proseslər fonunda inflyasiyanın artması ilə xarakterizə olunur. Xüsusilə, enerji və ərzaq qiymətlərində rekord səviyyədə artımlar qeydə alınmışdır. Artan əmtəə qiymətləri, gərgin geosiyasi və geoiqtisadi proseslərlə əlaqədar tədarük zəncirində problemlərin artması bir çox ölkələrdə gözləniləndən daha yüksək inflyasiyaya səbəb olmuşdur. Geosiyasi və geoiqtisadi proseslərin təsirilə dünyanın əksər ölkələrində inflyasiyanın yüksəlməsi Azərbaycanda da inflyasiya proseslərinə təsir göstərmişdir. Belə ki, ölkədə 2022-ci ilin birinci yarımilində əvvəlki ilin müvafiq dövrünə nisbətən istehlak qiymətləri indeksi 112,9 faiz təşkil etmişdir [4].




Şəkil 12. 2022-ci ilin birinci yarımilində istehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)

Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin yanvar-iyun aylarında istehlak qiymətləri indeksi əvvəlki ilin müvafiq dövrünə nisbətən Qazaxıstanda 111,9 faiz, Qırğızıstanda 112,8 faiz, Gürcüstanda 113,1 faiz, Rusiyada 114,3 faiz, Belarusda 114,6 faiz, Ukraynada 115,1 faiz, Moldovada 124,3 faiz təşkil etmişdir [6, 7, 8, 9, 10, 11, 12, 13].




Şəkil 13. 2022-ci ilin birinci yarımilində bəzi ölkələr üzrə istehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)

2022-ci ilin yanvar-iyun aylarında ümumi inflyasiya səviyyəsinin yüksəlməsinə ərzaq məhsullarının bahalaşması daha çox təsir göstərmişdir. Belə ki, bu dövrdə ölkədə ərzaq məhsullarının istehlak qiymətləri indeksi 118,4 faiz təşkil etmişdir. 2022-ci ilin ilk 6 ayında qeyri-ərzaq məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlər üzrə isə istehlak qiymətləri indeksi müvafiq olaraq 106,7 və 110,3 faiz olmuşdur.




Şəkil 14. 2022-ci ilin birinci yarımilində ərzaq, qeyri-ərzaq məhsulları və ödənişli xidmətlərin istehlak qiymətləri indeksi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [4]

2022-ci ilin ilk 6 ayı üzrə ərzaq məhsulları, içkilər və tütün məmulatlarının istehlak qiymətlərinin müqayisəli təhlili göstərir ki, bu dövrdə istehlak qiymətlərinə təsir göstərən əsas amil ölkəyə idxal olunan ərzaq məhsullarının, eləcə də kənd təsərrüfatı və qida sənayesi məhsullarının istehsalçı qiymətlərinin artması olmuşdur.




Şəkil 15. 2022-ci ilin birinci yarımilində ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymət indekslərinin müqayisəsi (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [5]




Şəkil 16. 2022-ci ilin birinci yarımilində ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [4]

2022-ci ilin birinci yarımilində istehlak bazarında "Ərzaq məhsulları, içkilər və tütün" qrupu məhsullarından ən çox bahalaşma qida məhsullarının qiymətlərində müşahidə edilmişdir. Belə ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qida məhsulları üzrə istehlak qiymətləri indeksi 119,0 faiz, o cümlədən çörək, çörək məmulatları və yarmalar üzrə 118,1 faiz, ət və ət məhsulları üzrə 109,6

faiz, balıq və balıq məhsulları üzrə 115,2 faiz, süd və süd məhsulları üzrə 113,5 faiz, yumurta üzrə 96,1 faiz, kərə və bitki yağları üzrə 114,3 faiz, meyvələr üzrə 114,1 faiz, tərəvəzlər üzrə 165,0 faiz, qənd, cem, bal, şokolad və konfetlər üzrə 111,3 faiz, çay, qəhvə və kakao üzrə 107,6 faiz, mineral sular, sərinləşdirici içkilər və şirələr üzrə 108,5 faiz təşkil etmişdir. Bu dövrdə istehlak qiymətləri indeksi alkoqollu içkilər üzrə 105,8 faiz, tütün məmulatları üzrə isə 107,1 faiz olmuşdur.

2022-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən ayrı-ayrı ərzaq məhsullarının istehlak qiymətləri indeksi aşağıdakı kimi olmuşdur:

**Cədvəl 2**

**2022-ci ilin birinci yarımilində bəzi ərzaq məhsullarının istehlak qiymətləri indeksləri (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)** [4]

| | Cəmi | o cümlədən: yerli məhsullar üzrə | o cümlədən: idxal məhsulları üzrə |
|---|---|---|---|
| Uzun düyü | 106,8 | 106,4 | 106,9 |
| Yumru düyü | 105,1 | 104,5 | 105,3 |
| Buğda unu | 115,6 | 115,8 | 111,9 |
| Əla növ buğda çörəyi | 129,2 | 129,2 | - |
| Makaron | 113,6 | 107,9 | 117,6 |
| Mal əti | 109,4 | 109,4 | - |
| Qoyun əti | 108,0 | 108,0 | - |
| Toyuq əti | 111,9 | 114,6 | 104,5 |
| Pasterizə olunmamış üzlü süd | 112,5 | 112,5 | - |
| Brınza pendiri | 110,9 | 110,9 | 111,0 |
| Kərə yağı | 112,6 | 110,0 | 113,7 |
| Zeytun yağı | 106,1 | 107,4 | 105,6 |
| Qarğıdalı yağı | 115,9 | 116,9 | 115,4 |
| Günəbaxan yağı | 124,6 | 127,1 | 123,4 |
| Şəkər | 117,8 | 121,4 | 111,9 |
| Şəkər tozu | 124,1 | 124,0 | 124,2 |
| Çay | 107,5 | 111,2 | 104,9 |

2022-ci ilin birinci yarımilində dünya bazarında ərzaq xammalının, xüsusilə, buğdanın, kərə, bitki yağları və şəkər xammalının qiymətlərinin yüksəlməkdə davam etməsi ölkə daxilində həm istehsalçı qiymətlərinə, həm də istehlak bazarındakı qiymətlərə ciddi təsir göstərmişdir. Belə ki, xammal qiymətlərinin yüksəlməsi buğda ununun istehsalçı qiymətlərinin 44,9 faiz, kərə yağının 19,1 faiz, zeytun yağının 16,0 faiz, günəbaxan yağının 49,9 faiz, qarğıdalı yağının 35,7 faiz, şəkərin isə istehsalçı qiymətlərinin 10,5 faiz artmasına səbəb olmuşdur.

Müqayisə olunan dövrdə mal, qoyun və toyuq ətinin, südün istehlak qiymətlərinin yüksəlməsi sözügedən məhsulların istehsalçı qiymətlərinin bahalaşması ilə əlaqədar olmuşdur. Bu dövrdə mal və qoyun ətinin istehsalçı qiymətləri müvafiq olaraq 10,0 və 10,2 faiz, toyuq ətinin 57,4 faiz, südün 7,6 faiz artmışdır.

İstehlak qiymətləri indeksinin komponentlərindən biri olan qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi 2022-ci ilin birinci yarımilində 106,7 faiz təşkil etmişdir.




Şəkil 17. 2022-ci ilin birinci yarımilində qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [4]

Göründüyü kimi, bu dövrdə qeyri-ərzaq məhsulları üzrə ən çox artım dəftərxana ləvazimatlarının qiymətlərində müşahidə olumuşdur. Belə ki, 2022-ci ilin ilk 6 ayında dəftərxana ləvazimatlarından yazı kağızının istehlak qiyməti 79,4 faiz artmışdır. Bunlarla yanaşı, müqayisə olunan dövrdə kəsilmiş taxtanın istehlak qiyməti 31,4 faiz, ağac-yonqar və ağac-lifli lövhələrin müvafiq olaraq 28,0 və 34,6 faiz, sementin 8,4 faiz, kərpicin 9,5 faiz, yataq və mətbəx mebelinin müvafiq olaraq 7,8 və 11,1 faiz, soyuducunun 6,9 faiz, tibb termometri və spirtin müvafiq olaraq 26,2 və 5,2 faiz, tibbi pambığın 14,0 faiz, minik avtomobilləri üçün akkumulyator və amortizatorların müvafiq olaraq 11,9 və 22,1 faiz bahalaşmışdır.

2022-ci ilin birinci yarımilində əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də artım müşahidə edilmiş və qiymət indeksi 110,3 faiz təşkil etmişdir.




Şəkil 18. 2022-ci ilin birinci yarımilində əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi, qruplar səviyyəsində (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə) [4]

Cari ilin birinci yarımilində əvvəlki ilin müvafiq dövrünə nisbətən hava nəqliyyatı ilə MDB ölkələrinə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində 41,3 faiz, ölkədaxili sərnişindaşıma xidmətlərinin qiymətlərində isə 1,6 faiz artım müşahidə olunmuşdur. Bununla yanaşı, müqayisə olunan dövrdə paltarların təmiri və kimyəvi təmizlənməsi xidmətlərinin qiyməti müvafiq olaraq 13,7 və 14,6 faiz, soyuducu və paltaryuyan maşınların təmiri xidmətlərinin qiyməti müvafiq olaraq 9,1 və 12,2 faiz, terapevt və göz həkimi xidmətlərinin qiyməti müvafiq olaraq 11,7 və 14,6 faiz, minik avtomobili üçün mühərrik yağının dəyişdirilməsi xidmətinin qiyməti 17,5 faiz, çayxana xidmətinin qiyməti 16,4 faiz, kişi və qadınlar üçün saç kəsimi xidmətlərinin qiyməti isə müvafiq olaraq 12,6 və 8,3 faiz artmışdır..

Yekun olaraq qeyd olunmalıdır ki, son zamanlar baş verən qlobal geosiyasi, geoiqtisadi proseslər nəticəsində dünya ölkələrinin bir çoxunda ərzaq qıtlığı yaşanmış və buna bağlı olaraq ərzaq məhsullarının, eləcə də onların xammalının qiymətləri kəskin yüksəlmişdir. Ölkəmizdə dünyanın bir çox ölkələrinə nisbətən vəziyyətin sabit olmasını ilk növbədə hökumətin milli iqtisadiyyata qlobal təsirlərin minimuma endirilməsi istiqamətində atdığı addımların nəticəsi kimi qiymətləndirmək olar.

Belə ki, daxili bazarda satılan un və un məmulatlarının hər tonu üçün subsidiya məbləği artırılmış, buğdanın idxalı və satışının, buğda ununun və çörəyin istehsalı və satışının ƏDV-dən azad edilməsi müddəti 2024-cü ilədək uzadılmış, iri taxıl istehsalçılarının maliyyə vəsaitlərinə əlçatanlığını artırmaq üçün onlara aşağı faizlərlə kreditlərin ayrılması təmin olunmuşdur. Lakin makroiqtisadi sabtiliyin təmin olunması istiqamətində görülən kompleks tədbirlərə baxmayaraq dünya iqtisadiyyatında cərəyan edən təlatümlərin təsirlərindən tam şəkildə qorunmaq mümkün olmamışdır. 2022-ci ildə ərzaq məhsullarının qiymətlərinin artması ilə əlaqədar olaraq inflyasiya yüksəlmişdir. Bütün bunlar bir daha göstərir ki, uzunmüddətli dövrdə, xüsusilə, strateji ərzaq məhsulları üzrə xaricdən asılılığın azaldılması əsas şərtlərdəndir. Bu məqsədlə strateji kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, əkin sahələrinin genişləndirilməsi və intensiv əkin sahələrinin yaradılması, qida sənayesinin inkişaf etdirilməsi və potensialının artırılması ən vacib məsələlərdəndir. Bu baxımdan ölkəmizdə sözügedən sahələrdə atılan uğurlu addımlar, xüsusilə, 44 günlük Vətən müharibəsində Azərbaycanın parlaq qələbə qazanaraq Qarabağın münbit, bərəkətli torpaqlarının işğaldan azad olunması və orada aparılan sürətli quruculuq işlərinin əsas tərkib hissələrindən biri olan əkinçilik və heyvandarlıq sahələrinin bərpası, ağıllı kənd təsərrüfatı və suvarma sistemlərinin yaradılması olduqca ümidvericidir.

## Nəticə

Son 3 ildə pandemiya və dünyada baş verən gərgin qlobal proseslər fonunda Azərbaycanda inflyasiya göstəricisi kimi qəbul olunmuş istehlak qiymətləri indeksinin dövrlər üzrə dəyişməsi məqalədə öz əksini tapmışdır.

Yazılanlardan belə nəticəyə gələ bilərik ki, son dövrlər, xüsusilə, 2022-ci ildə Azərbaycanda inflyasiyanın yaranması dünya bazarında ərzaq məhsullarının, eləcə də onların xammalının qiymətlərinin kəskin yüksəlməsi ilə əlaqədar olmuşdur. Uzunmüddətli dövrdə xarici amillərin ölkə iqtisadiyyatına təsirinin azaldılması üçün strateji ərzaq məhsullarının və onların xammalının istehsalının daha da genişləndirilməsi qarşıda duran mühüm vəzifələrdəndir.

**Orxan Əhmədov**

## Pandemiya və dünyada baş verən proseslər fonunda Azərbaycanda inflyasiyanın səviyyəsi və dinamikası

### Xülasə

Məqalədə 2020-2021-ci illərdə və 2022-ci ilin birinci yarımilində inflyasiyanın yaranmasının səbəbləri, pandemiya və dünyada baş verən gərgin proseslər fonunda ölkədə qiymətlərin ümumi səviyyəsinin artıb-azalması təhlil edilir. Belə ki, 2020-ci ildə karantin rejimilə əlaqədar bir çox ticarət və xidmət sahələrinin fəaliyyətinin müvəqqəti məhdudlaşdırılması və artan iqtisadi qeyri-müəyyənliklər fonunda inflyasiyanın aşağı səviyyəsi, 2021-ci ildə iqtisadi artımın bərpası fonunda inflyasiya təzyiqlərinin güclənməsi, 2022-ci ildə gərgin geosiyasi və geoiqtisadi proseslər nəticəsində inflyasiyanın yüksəlməsi müşahidə olunmuşdur. Məqalədə eyni zamanda, qiymət artımının səbəbləri və Azərbaycanda xarici amillərin təsirilə qiymətlərin yüksəlməsinin qarşısının alınması istiqamətində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilməsi haqqında məlumat verilmişdir.

**Орхан Ахмедов**

## Уровень и динамика инфляции в Азербайджане на фоне пандемии и глобальных процессов

### Резюме

В статье анализируются причины инфляции в стране в 2020-2021-х годах и в первой половине 2022-го года, падения и роста общего уровня цен на фоне пандемии и интенсивных мировых процессов. Так, в 2020 году вследствие временного ограничения деятельности в сфере торговли и услуг в связи с карантийным режимом, а также на фоне роста экономической неопределенности был зафиксирован низкий уровень инфляции, в 2021 году на фоне экономического роста усилилось инфляционное давление, а в 2022 году в результате интенсивных геополитических и геоэкономических процессов наблюдается рост уровня

инфляции. В статье также предоставлена информация о причинах роста цен и реализации государством комплексных мер по предотвращению роста цен в Азербайджане под воздействием внешних факторов.

**Orkhan Ahmadov**

**The level and dynamics of inflation in Azerbaijan against the background of a pandemics and global processes**

**Summary**

İn the article was noted the causes of inflation in 2020-2021 and in the first half of 2022, the pandemic and the increase and decrease of the general level of prices in the country against the background of intense global processes. So that, low inflation in 2020 against the background due to the quarantine regime and growing economic uncertainty, intensification of inflationary pressures against the background of the restoration of economic growth in 2021, in 2022, rising inflation was observed as a result of intense geopolitical and geoeconomic processes. At the same time, in the article, the reasons for price increase and the implementation of comprehensive measures by the state to prevent the rise in prices in Azerbaijan under the influence of external factors were reported.

**Ədəbiyyat**

1. “Azərbaycanda qiymətlər” statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2022-ci il.
2. “Qiymətlər və qiymət indeksləri” statistik bülleten. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2020-ci il, dekabr.
3. “Qiymətlər və qiymət indeksləri” statistik bülleten. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2021-ci il, dekabr.
4. “Qiymətlər və qiymət indeksləri” statistik bülleten. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2022-ci il, iyun.
5. "İstehsalçı qiymət indeksləri" statistik bülleten. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2022-ci il, iyun.
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı: http://www.stat.gov.az/
7. Rusiya Federasiyası Federal Dövlət Statistika Xidmətinin rəsmi internet saytı: https://gks.ru/bgd/free/B09_03/Main.htm
8. Belarusiya Statistika və Təhlil Nazirliyinin rəsmi internet saytı: https://www.belstat.gov.by/ofitsialnaya-statistika/realny-sector-ekonomiki/tseny/potrebitelskie-tseny/operativnye-dannye/
9. Qazaxıstan Respublikası Statistika Agentliyinin rəsmi internet saytı: https://stat.gov.kz/
10. Qırğızstan Respublikasının Milli Statistika Komitəsinin saytı: http://stat.kg/en/statistics/ceny-i-tarify/
11. Gürcüstan Milli Statistika İdarəsinin rəsmi internet saytı: https://www.geostat.ge/en/ka
12. Ukrayna Dövlət Statistika Komitəsinin rəsmi internet saytı: http://ukrstat.gov.ua/
13. Moldova Statistika və Sosiologiya Departamentinin rəsmi internet saytı: https://statistica.gov.md/?lang=en

Məqalə redaksiyaya daxil olmuşdur: 21.06.2022
Təkrar işlənməyə göndərilmişdir: 23.06.2022
Çap üçün qəbul olunmuşdur: 19.11.2022

UOT: 331.5
DOI: 10.338.70/2413-6557-2022-8-4-26-32

# AZƏRBAYCANDA İSTİLİK EFFEKTİ YARADAN QAZLARIN EMİSSİYASINI XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏHLİLİ

***Arzu Tağıyeva***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Dayanıqlı inkişaf statistikası şöbəsinin aparıcı məsləhətçisi,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: arzu.taghiyeva@stat.gov.az*

**Açar sözlər:** dayanıqlı inkişaf, istilik effekti yaradan qazlar, iqlim dəyişikliyi, karbon qazı, metan, azot bir oksid, F-qazlar, emissiya.
**Ключевые слова:** устойчивое развитие, парниковые газы, изменение климата, углекислый газ, метан, оксид азота, F-газы, выбросы.
**Keywords:** sustainable development, greenhouse gases, climate change, carbon dioxide, methane, nitrous oxide, F-gases, emission

Sənaye İnqilabı ilə başlayan sürətli inkişafın nəticəsi olaraq dünyada yaşayan canlılar üçün həyati önəmə sahib olan atmosfer havasının tərkibində istilik effekti[1] yaradan qazların (İEYQ) miqdarı əhəmiyyətli dərəcədə artmışdır. Bu isə öz növbəsində ozon qatının zədələnməsi, qlobal iqlim dəyişiklikləri, eroziya, içməli su ehtiyatlarının tükənməsi, havanın çirklənməsi, səhralaşma, torpağın deqradasiyası, biomüxtəlifliyin azalması və sair kimi ekoloji problemlərin yaranmasına gətirib çıxarmışdır. Lakin qlobal miqyasda ortaya çıxan ekoloji problemlər və bu problemlərin canlı həyata mənfi təsirləri bütün dünyada ekoloji şüurun formalaşmasına səbəb olmuşdur [1]. Belə ki, bu günə qədər ətraf mühitin mühafizəsinə dair bir çox beynəlxalq konfranslar keçirilmiş, sənədlər qəbul edilmişdir. Gələcək nəsillərin imkanlarını məhdudlaşdırmadan bugünkü nəsillərin rifahının yaxşılaşdırılması məsələsini özünə prioritet qəbul edən Azərbaycan Respublikası da 1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına, 2000-ci ildə Konvensiyaya əlavə olunan Kioto Protokoluna, 2015-ci ildə "BMT-nin "İqlim Dəyişmələri Haqqında" Çərçivə Konvensiyasına dair Kioto Protokolu"na Doha Düzəlişinə, 2016-cı ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı tərəflərin 21-ci konfransında qəbul olunmuş Paris Sazişinə qoşulmuşdur. Habelə BMT-nin 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən ("Gündəlik-2030") irəli gələn öhdəliklərinin yerinə yetirilməsi məqsədilə 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulmuşdur. "Gündəlik-2030"-da 13-cü DİM[2] bütövlükdə insan fəaliyyəti nəticəsində yaranan İEYQ-lərin emissiyası nəticəsində əmələ gələn iqlim dəyişikliyinin törətdiyi fəsadların aradan qaldırılması və onun təsirlərinin azaldılmasına həsr olunmuşdur. Bu məqsədlə DİM 13-də iqlimlə bağlı təhlükələrə və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması və uyğunlaşma potensialının gücləndirməsi, iqlim dəyişikliyi ilə bağlı tədbirlərin milli siyasətlərə, strategiyalara və planlaşdırmaya daxil edilməsi, bu barədə maarifləndirmə işlərinin həyata keçirilməsi, eləcə də zəif inkişaf etmiş ökələrdə iqlim dəyişikliyi ilə bağlı effektiv planlaşdırma və idarəçilik üzrə potensialın artırılması mexanizmlərinin təşviq edilməsi kimi hədəflər qarşıya qoyulmuşdur [2].

Eyni zamanda, Azərbaycan, Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrdəki

[1] Yer kürəsindən əks olunan günəş şüalarının istilik effekti yaradan qazlar tərəfindən tutulub saxlanılması
[2] İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək

çıxışında da qeyd etdiyi kimi, Paris Sazişinə əsasən baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Bununla yanaşı, Paris Sazişi çərçivəsində 2050-ci il üçün şərti hədəflərin[3] müəyyən edilməsi imkanları araşdırılır [3].

İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC)[4] hesabatlarına əsasən birbaşa insan fəaliyyəti nəticəsində atmosfer havasındakı konsentrasiyası artan İEYQ Karbon qazı ($CO_2$), Azot bir oksid ($N_2O$), Metan ($CH_4$) və F-qazlarıdır (hidroflüorokarbonlar (HFCs), perflüorokarbonlar (PFCs), kükürd heksaflüorid ($SF_6$) və azot triflüorid ($NF_3$)). Belə ki, $CO_2$, $CH_4$ və $N_2O$ atmosfer havasında təbii şəkildə mövcud olmasına baxmayaraq sənaye inqilabından sonra onların miqdarı əhəmiyyətli şəkildə artmışdır. F qazları isə birbaşa insan fəaliyyətinin nəticəsində yaranmışdır [3].

İndi isə antropogen amillərin təsiri nəticəsində konsentrasiyası artan hər bir İEYQ-nin qısa xarakteristikası ilə tanış olaq.

***Karbon qazı ($CO_2$)*** insan fəaliyyətinin təsiri nəticəsində konsentrasiyası artan başlıca İEYQ-dir. Karbon qazı təbii olaraq atmosferdə, okeanlarda mövcud olduğu kimi mədən yanacaqlarının (kömür, təbii qaz və neft), bərk tullantıların, ağacların və digər bioloji materialların yandırılması, həmçinin müəyyən kimyəvi reaksiyalar (məsələn, sement istehsalı) nəticəsində də atmosferə daxil olur. Karbon qazı bioloji karbon dövrünün bir hissəsi kimi bitkilər tərəfindən udularaq atmosferdən çıxarılır. Karbon qazının atmosferdə mövcud olma müddəti 50-200 il arasında dəyişə bilir [4].

***Metan ($CH_4$)*** çoxlu təbii və antropogen mənbələrə malikdir. Metan oksigensiz şəraitdə parçalanma və ya çürümə yolu ilə meydana gəlir. Metan emissiyaları həmçinin heyvandarlıq və digər kənd təsərrüfatı fəaliyyətləri, torpaqdan istifadə və bərk məişət tullantıları poliqonlarında üzvi tullantıların çürüməsi nəticəsində yaranır. Metanın atmosferdəki yaşama müddəti 12 il, qlobal istilikvermə potensialı (GWP)[5] isə 28-36 olaraq dəyərləndirilir ki, bu da digər İEYQ ilə müqayisədə azdır [4].

***Azot bir oksid ($N_2O$)*** kənd təsərrüfatı, torpaqdan istifadə və sənaye fəaliyyəti zamanı, qalıq yanacaqların və bərk tullantıların yanması, eləcə də kanalizasiya sularının təmizlənməsi zamanı yaranır. N2O-nun atmosferdə artmasına səbəb olduğu düşünülən əsas proseslər azot və ammonium gübrələrinin tətbiqi nəticəsində torpaqda $N_2O$ istehsalı və daha az dərəcədə qalıq yanacaqların istehlakı və biokütlə yandırılmasıdır. Bu qazın atmosferdə qalma müddəti təqribən 121 il, GWP-si isə 265-298-dir. Buna görə də $N_2O$-nun iqlim dəyişikliyi üzərində təsiri böyükdür [4].

***F – qazları*** müxtəlif məişət, kommersiya və sənaye tətbiqləri və prosesləri nəticəsində atılan sintetik, güclü istixana qazlarıdır. Flüorlu qazlar (xüsusilə hidrofluorokarbonlar) bəzən stratosferdəki ozonu məhv edən maddələrin (məsələn, xlorflüorokarbonlar, hidrokloroflorokarbonlar və halonlar) əvəzediciləri kimi istifadə olunur. Digər istixana qazlarından fərqli olaraq, flüorlu qazların əhəmiyyətli təbii mənbələri yoxdur və demək olar ki, tamamilə insan fəaliyyəti nəticəsində yaranır. Onlar ozonu məhv edən maddələrin əvəzedicisi kimi (məsələn, soyuducu kimi) və alüminium və yarımkeçiricilərin istehsalı kimi müxtəlif sənaye prosesləri zamanı istifadə olunmaqla yayılır. Bir çox flüorlu qazlar digər istixana qazlarına nisbətən daha çox GWP-yə malikdir (ən yüksək 23500 olaraq kükürd heksafloriddə müşahidə olunur). Buna görə də kiçik atmosfer konsentrasiyaları qlobal temperatura qeyri-mütənasib dərəcədə böyük təsir göstərə bilər. Onların həm də uzun atmosfer ömürləri ola bilər - bəzi hallarda min illərlə davam edir. Digər uzunömürlü istixana qazları kimi,

---

[3] Paris Sazişində nəzərdə tutulduğu kimi, qlobal istiləşməni 1,5°C-dən çox olmayan səviyyədə saxlamaq üçün emissiyalar 2050-ci ilə qədər xalis sıfıra endirilməlidir.

[4] İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (ing. Intergovernmental Panel on Climate Change (IPCC))- iqlim dəyişikliyinin qiymətləndirilməsi üzrə beynəlxalq qurumdur. Bu qurum Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı və Dünya Meteorologiya Təşkilatı tərəfindən iqlim dəyişikliyi və onun potensial ekoloji və sosial-iqtisadi təsirləri haqqında məlumatların mövcud vəziyyəti ilə əlaqədar dünyanı açıq elmi mülahizələrlə təmin etmək üçün yaradılmışdır [5].

[5] İstixana qazları qlobal istiləşmə potensialını nəzərə alaraq hesablamalara daxil edilir. IPCC-nin tərifinə görə, qlobal istilikvermə potensialı, müəyyən bir müddət üçün $CO_2$-nin təsiri 1 vahid kimi qiymətləndirildikdə (Kioto Protokolunda bu müddət 100 ildir) bir maddənin atmosferdə nisbi istilikvermə təsirinin dəyəridir. İEYQ-nin qlobal istiləşmədə payı qazın saxladığı istiliyə, atmosferdə qalma müddətinə, atmosferdəki miqdarına və digər qazlara təsirinə görə hesablanır [5].

flüorlu qazların əksəriyyəti atmosferə yaxşı qarışır və onlar buraxıldıqdan sonra bütün dünyaya yayılır. Bir çox flüorlu qazlar atmosferdən yalnız yuxarı atmosferdə günəş işığı ilə məhv edildikdə çıxarılır. Ümumiyyətlə, flüorlu qazlar insan fəaliyyəti nəticəsində buraxılan istixana qazlarının ən güclü və ən uzunömürlü növüdür [4].

Ölkəmizdə atmosfer havasına atılan İEYQ-nin inqredientlər üzrə miqdarının 2018-2020-ci illərə dair məlumatları aşağıdakı cədvəldə əks olunmuşdur.

**Cədvəl 1**

**2018-2020-ci illərdə İEYQ-nin emissiyası (milyon ton CO2 ekvivalentində) [6]**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Karbon qazı ($CO_2$) | 32.7 | 32.6 | 31.6 |
| Azot bir oksid ($N_2O$) | 1.3 | 0.8 | 1.0 |
| Metan ($CH_4$) | 18.7 | 19.9 | 20.5 |
| F-qazlar | 0.9 | 0.8 | 0.8 |

Cədvəl 1-ə əsasən tərtib olunmuş 2020-ci il üzrə İEYQ-nin ümumi emissiyasında inqredientlərin payı aşağıdakı qrafikdə göstərilmişdir.




Şəkil 1. 2020-ci ildə İEYQ-nin emissiyasında inqredientlərin (milyon ton CO2 ekvivalentində) payı

Cədvəl 1-dən də göründüyü kimi, atmosfer havasında konsentrasiyası ən çox olan İEYQ $CO_2$ ən az olan isə F-qazlarıdır. Belə ki, məlumat mövcud olan sonuncu ilə (2020-ci il) nəzər salsaq görərik ki, İEYQ-nin illik ümumi emissiyasında $CO_2$-nin payı 58.63 faiz, $CH_4$-ün payı 38.03 faiz, $N_2O$-nun payı 1.86 faiz, F-qazlarının payı isə 1.48 faiz təşkil etmişdir.

İndi isə İEYQ-nin emissiyasının dinamikasına sektorlar üzrə nəzər salaq. Aşağıdakı cədvəldə Azərbaycanda sektorlar üzrə İEYQ-nin atılmasının 1990, 1995, 2000, 2005, 2010-2020-ci illər üzrə dinamikası verilmişdir.

**Cədvəl 2**

**Sektorlar üzrə istilik effekti yaradan qazların atılması (milyon ton CO2 ekvivalentində) [6]**

| | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Energetika | 74.1 | 47.2 | 40.4 | 40.9 | 41.0 | 43.2 | 44.6 | 45.8 | 46.8 | 47.7 | 48.1 | 47.4 | 47.5 | 49.0 | 49.8 |
| Sənaye | 1.5 | 0.5 | 0.5 | 1.9 | 2.0 | 2.2 | 3.3 | 3.2 | 3.3 | 3.7 | 3.1 | 3.2 | 3.4 | 3.3 | 3.2 |
| Kənd təsərrüfatı | 6.3 | 3.8 | 5.4 | 6.5 | 7.2 | 8.2 | 8.4 | 8.4 | 8.6 | 8.6 | 8.7 | 8.7 | 8.7 | 8.0 | 8.0 |
| | **1990** | **1995** | **2000** | **2005** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| Torpaqdan istifadə, onun | -3.7 | -2.4 | -4.9 | -5.3 | -5.4 | -5.8 | -6.1 | -6.3 | -7.0 | -7.1 | -7.2 | -7.2 | -7.2 | -7.5 | -8.5 |

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| dəyişdirilməsi və meşə təsərrüfatı* | | | | | | | | | | | | | | | |
| Tullantılar | 0.8 | 0.8 | 0.9 | 1.0 | 1.2 | 1.2 | 1.2 | 1.3 | 1.3 | 1.3 | 1.3 | 1.3 | 1.3 | 1.4 | 1.4 |
| Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı nəzərə almaqla, cəmi | 79.0 | 49.9 | 42.2 | 44.9 | 46.0 | 49.0 | 51.4 | 52.4 | 52.9 | 54.2 | 54.0 | 53.4 | 53.6 | 54.1 | 53.9 |
| Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı istisna olmaqla, cəmi | 82.7 | 52.3 | 47.1 | 50.2 | 51.4 | 54.8 | 57.5 | 58.7 | 59.9 | 61.3 | 61.2 | 60.6 | 60.8 | 61.6 | 62.4 |

Cədvəl 2-də göstərilmiş Azərbaycanda sahələr üzrə İEYQ-nin emissiya dinamikasının qrafiki təsviri aşağıdakı kimidir:




Şəkil 2. Sahələr üzrə istilik effekti yaradan qazların atılmasının (milyon ton $CO_2$ ekvivalentində) dinamikası

Dinamikaya əsasən qeyd etmək olar ki, İEYQ-nin emissiyasında energetika, sənaye, kənd təsərrüfatı sektorları üzrə 1990-cı illə müqayisədə 2000-ci ildə müvafiq olaraq 45.5 faiz, 66.7 faiz, 14.3 faiz azalma, tullantılar üzrə isə 12.5 faiz artım baş verrmişdir. 2000-ci illə müqayisədə isə 2020-ci ildə energetika, kənd təsərrüfatı və tullantılar üzrə uyğun olaraq 23.3 faiz, 48.1 faiz və 55.6 faiz, sənaye sektoru üzrə isə 6.4 dəfə artım qeydə alınmışdır. Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı fəaliyyəti nəticəsində udulan İEYQ-nin $CO_2$ ekvivalentində miqdarı üzrə 1900-1995-ci illər üzrə azalma qeydə alınsa da, 1995-ci ildən etibarən 3.5 dəfədən çox artaraq müsbət

* mənfi " - " işarəsi ilə İEYQ-nin absorbsiyası (udulması) göstərilmişdir

nəticə olaraq 8.5 milyon ton $CO_2$ ekvivalentində qərarlaşmışdır. Ümumilikdə isə 2020-ci ildə İEYQ-nin emissiyası torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı nəzərə alınmaqla və alınmamaqla müvafiq olaraq 1990-cı illə müqayisədə 31.8 faiz və 24.5 faiz azalmış, 2000-ci illə müqayisədə isə 27.7 faiz və 32.5 faiz artmışdır. Cədvələ 2-ə əsasən demək olar ki, İEYQ-nin emissiyasındakı artım ən çox energetika sektorunun hesabına baş verir. Belə ki, ümumi emissiyada energetikanın payı 79.81 faiz, sənayenin payı 5.13 faiz, kənd təsərrüfatının payı 12.82 faiz, tullantıların payı isə 2.24 faiz təşkil etmişdir. Bunu 2020-ci ildə sahələr üzrə İEYQ-nin atılmasının payı qrafikinə əsasən daha aydın görmək olar.




Şəkil 3. 2020-ci ildə sahələr üzrə İEYQ-nin (milyon ton CO2 ekvivalentində) emissiyası payı (Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı nəzərə alınmamaqla)

Cədvəl 2-dəki məlumatlara əsasən qeyd etmək olar ki, 2010-2020-ci illərdə torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı nəzərə alınmaqla İEYQ-nin emissiyasının orta illik səviyyəsi 52.3 milyon ton $CO_2$ ekvivalentində, orta mütləq artım isə 0.79 milyon ton $CO_2$ ekvivalentində təşkil etmişdir. Belə ki, qeyd olunan zaman intervalında İEYQ-nin emissiyası orta hesabla 52.3 milyon ton $CO_2$ ekvivalentində olmaqla hər il orta hesabla 0.79 milyon ton $CO_2$ ekvivalentində artmışdır. 2020-ci ilin 2019-cu illə müqayisəsinə nəzər salsaq görərik ki, torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatı fəaliyyəti nəticəsində udulan İEYQ-nin hesabına 0.37 faiz və ya 0.2 milyon ton $CO_2$ ekvivalentində azalma baş vermişdir.

Qeyd edək ki, energetika, sənaye, kənd təsərrüfatı sektorları üzrə İEYQ emissiyalarının 1990-2020-ci illər ərzində azalması Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə təsdiq olunmuş Dövlət Proqramları əsasında bölgələrin qazlaşdırılması, sənaye müəssisələri, xüsusən də enerji istehsalı ilə məşğul olan müəssisələr tərəfindən texnoloji proseslərin təkmilləşdirilməsi vəazkarbonlu yanacaqdan istifadənin təmin olunması (məsələn; mazutun təbii qazla əvəz edilməsi) və s. ilə izah oluna bilər. Sözügedən sektorlar üzrə 2000-ci ildən etibarən İEYQ emissiyalarının tədricən artması isə iqtisadiyyatın ildən-ilə sürətlə canlanması, istehsal həcminin artması ilə əlaqəlidir. Bunu daha aydın görmək üçün aşağıdakı cədvəldə əks olunmuş statistik məlumatlara nəzər salaq:

**Cədvəl 3**

**Sektorların inkişaf dinamikası [6]**

| | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Enerji istehsalı, min NET | 28619,0 | 7267,0 | 68254,6 | 62541,5 | 60973,9 | 61699,5 | 61132,0 | 61084,2 | 59977,6 | 57036,0 | 8133,4 | 61724,7 | 60458,3 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, milyon manat | 3639,0 | 308,8 | 27978,2 | 35026,9 | 34565,0 | 33898,1 | 32110,3 | 26369,4 | 32300,2 | 39892,5 | 7677,0 | 46999,2 | 37269,9 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat | 1112,4 | 877,7 | 3877,7 | 4525,2 | 4844,6 | 5244,6 | 5225,8 | 5635,3 | 5632,4 | 6580,0 | 010,0 | 7836,7 | 8428,9 |
| Tullantıların yaranması, min ton | 1236,1 | 572,0 | 2281,5 | 2789,7 | 3096,7 | 2575,6 | 2386,0 | 2350,4 | 3015,7 | 2675,7 | 876,6 | 3256,0 | 3452,3 |

Belə ki, Cədvəl 3-ün məlumatlarına əsasən 2000-ci ilə nəzərən 2020-ci ildə enerji istehsalı 2.1, sənaye məhsulunun dəyəri 10.2, kənd təsərrüfatının ümumi məhsulu faktiki qiymətlərlə 7.6, yaranmış tullantıların miqdarı isə 2.8 dəfə artmışdır. Bu isə İEYQ-nin emissiya miqdarındakı artımın əsas səbəbinin iqtisadi inkişafla əlaqəli olduğunu göstərir.

## Nəticə

Nəticə etibarilə deyə bilərik ki, Azərbaycanda energetika sektorunun istilik effektinin səbəb olduğu ekoloji problemlərin yaranmasında payı olduqca yüksəkdir. Belə ki, təkcə energetika sektoru üzrə atılan İEYQ-nin emissiya olunan ümumi İEYQ-də payı 2020-ci ilin məlumatlarına əsasən 79.81 faiz təşkil edir. Bu isə alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə xüsusi diqqət ayrılmasını, bu sahədə fəaliyyətlərin sürətləndirilməsini və yeni texnologiyaların tətbiqini zəruri edir.

Digər tərəfdən, iqtisadi fəaliyyət zamanı meydana çıxan ciddi ekoloji problemləri aradan qaldırmaq, onları məhdudlaşdırmaq məqsədilə əsaslandırılmış qərarların qəbul edilməsi üçün dolğun məlumat bazasının olması vacib məsələlərdəndir. Bu səbəbdən İEYQ-nin emissiyasına dair statistik məlumatların toplanması, təhlili və ümumiləşdirilməsi prosesinə ciddi nəzar edilməlidir. Eyni zamanda İEYQ-nin emissiya miqdarının hesablanması metodologiyası beynəlxalq metodologiyalara uyğunlaşdırılmalıdır.


**Arzu Tağıyeva**

**Azərbaycanda istilik effekti yaradan qazların emissiyasını xarakterizə edən göstəricilərin statistik təhlili**

**Xülasə**

Məqalədə Karbon qazı ($CO_2$), Azot bir oksid ($N_2O$), Metan ($CH_4$) və F qazlarının yaranma mənbəyi, atmosferdə qalma müddəti və qlobal istilikvermə potensialı barədə məlumat verilmiş, ölkəmizdə atmosfer havasına atılan İEYQ-nin inqredientlər üzrə miqdarının 2018 və 2019-ci illərə dair məlumatları, eləcə də sahələr üzrə İEYQ-nin atılmasının 1990, 1995, 2000, 2005, 2010-2020-ci illər üzrə dinamikası təhlil edilmişdir. Eyni zamanda istilik effektinin artmasında energetika sektorunun payının olduqca yüksək olduğu nəzərə alınaraq bu istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsinin zəruriliyi vurğulanmışdır.



**Арзу Тагиева**

**Статистический анализ показателей, характеризующих выбросы парниковых газов в Азербайджане**

**Резюме**

В статье представлена информация об источнике углекислого газа ($CO_2$), закиси азота ($N_2O$), метана ($CH_4$) и газов F, время пребывания в атмосфере и потенциале глобального потепления. проанализированы данные о выбросах парниковых газов в атмосферу по ингредиентам в нашей стране за 2018 и 2019 годы, а также динамика выбросов парниковых газов по отраслям за 1990, 1995, 2000, 2005, 2010-2020 годы. При этом, учитывая, что доля энергетики в повышении теплового эффекта достаточно велика, подчеркнута необходимость принятия превентивных мер в этом направлении.

**Arzu Taghiyeva**

**Statistical analysis of indicators characterizing the emission of heat-producing gases in Azerbaijan**

**Summary**

The article provides information about the source of Carbon dioxide ($CO_2$), Nitrous oxide ($N_2O$), Methane ($CH_4$) and F gases, lifetime in the atmosphere and the global warming potential. the data on greenhouse gases emissions into the atmosphere by ingredients in our country for 2018 and 2019 years, as well as the dynamics greenhouse gases emissions by sectors for the years 1990, 1995, 2000, 2005, 2010-2020 were analyzed. At the same time, taking into account that the share of the energy sector in the increase of the heating effect is quite high, the need to take preventive measures in this direction was emphasized.

**Ədəbiyyat**

1. Deniz Babuş. Küresel ısınma sorununun uluslararası çevre politikası içerisinde irdelenmesi ve Türkiyenin yeri. Yüksek lisans tezi, Çukurova Üniversitesi, Fen Bilimleri Enstitüsü, 2005, 212 səh.
2. https://unstats.un.org/sdgs/metadata/?Text=&Goal=13&Target=
3. Akalın, M., Bağcı, S., Kökçam, Z., 1997. Birleşmiş Milletler İklim Değişikliği Çerçeve Sözleşmesi 3. Taraflar Konferansı Toplantı Raporu. 14 Kasım 1997 tarih ve M-466 sayılı Bakan Oluru.
4. https://www.epa.gov/ghgemissions/overview-greenhouse-gases
5. https://www.ipcc.ch
6. https://www.stat.gov.az/source/environment/

Məqalə redaksiyaya daxil olmuşdur: 16.08.2022
Təkrar işlənməyə göndərilmişdir: 20.08.2022
Çap üçün qəbul olunmuşdur: 19.11.2022

UOT:33:33:311
DOI: 10.338.70/2413-6557-2022-8-4-33-38

# AZƏRBAYCANDA İQTİSADİ İNNOVASİYA

***Məhəmməd Xəlilov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Cəbrayıl Rayon Statistika İdarəsi aparıcı məsləhətçi*
*AZ 1022, Bakı şəhəri, S .Vurğun 112*
*e-poçt:mehemmedx7@gmail.com*

**Açar söz:** innovasiya, iqtisadiyyatda inovasiyaya keçid, inkişaf, kapital, makroiqtisadiyyat.
**Ключевые слова:** инновации, переход к экономике, развитие, капитал, макроэкономика.
**Keywords:** innovation, transition to economy, development, capital, macroeconomics.

Müasir dövrdə Azərbaycan Respublikasının dövlət siyasətinin ən vacib prioritetlərindən biri iqtisadiyyatın müasir inkişaf yoluna, yəni innovasiya iqtisadiyyatına keçididir. Biliyə əsaslanan iqtisadiyyat beynəlxalq xüsusiyyətə malikdir və beynəlxalq bazara istiqamətlənib. Müasir dünya təcrübəsinə görə yeni iqtisadiyyata keçidin optimal innovasiya mühitini təmin etməyə imkan verən yeni və müasir alətlərin yaradılmasını tələb edir.

Azərbaycan Respublikasının innovasiya iqtisadiyyatına keçidin, iqtisadi artımın təmin edilməsinin əsas şərti elmi-tədqiqat və işləmələrin nəticələrinin səmərəli istifadəsidir. Bu şəraitdə texniki, istehsal, təşkilati, marketinq, maliyyə əməliyyatlarının məcmusu olan və səmərəli yeniliklərin iqtisadiyyat və sosial sahələrə tətbiqini təmin edən innovasiya potensialının inkişafı daha böyük məna kəsb edir.

İnnovasiya potensialının təhlil edilməsi, sosial-iqtisadi siyasətin aparılması, zəruri tədbirlərin müəyyən edilməsi innovasiyanı inkişaf etdirilməsi və investisiya mühitinin təşkil edilməsi üçün vacib amilərdən biridir.

Səmərəli fəaliyyət göstərən makroiqtisadi sistemin malik olduğu innovasiya potensialının ölçülərini müəyyən etmək, həmçinin innovasiya potensialının milli iqtisadiyyatın inkişafına təsirinin düzgün qiymətləndirilməsi üçün, birincisi, innovasiya potensialı anlayışının, ikincisi, onun tərkibinin dəqiq tərifini vermək lazımdır. Bu məqsədlə inovasiya dinamikasını öncədən müəyyən edən bütün vacib amilləri dəqiqliklə müəyyən etmək lazımdır.

İnnovasiya potensialı sosial iqtisadi inkişafın nəzərdə tutulmuş məqsədlərinin cəmiyyət tərəfindən reallaşdırılması imkanlarını genişləndirir, cəmiyyət üçün əmək, sərmayə qoyuluşu və təbii resurslara qənaət edib saxlanılmasına imkan yaradır [9]. İnnovasiya potensialı 80-ci illərin əvvələrindən etibarən sürətlə inkişafa başlamışdır. İnnovasiya potensialı məhsuldar qüvvələrin və istehsal proseslərinin bir-birilə qarşılıqlı əlaqəsini mürəkkəb iqtisadi mexanizm ilə müəyyən edir [1]. Buna əsaslanıb qeyd edə bilərik ki, innovasiya potensialı bir cəhətdən, innovasiya fəaliyyətinin təşkil edilməsi üçün lazım olan müxtəlif növ ehtiyatların məcmusudur; digər cəhətdən isə, yenidən istehsal prosesində innovasiya potensialı fəaliyyətinin həyata keçirilməsinə yönələn müştərək innovasiya qabiliyyətinin formalaşdırılması üçün fərqli təsərrüfat fəaliyyəti subyektlərinin iqtisadi münasibətlərinin ümumi sistemidir.

İnnovasiya potensialı adətən innovasiya fəaliyyəti kimi və ya innovasiya aktivliyi vasitəsilə reallaşdırıla bilər. İnnovasiya prosesinə əsaslanan rəqabətlilik kompleks bir xüsusiyyətdir. Onun üçün biliyin generasiyası vacib şərtlərdən biridir, ancaq kifayət deyil.

Ölkə hüdudlarında innovasiyanın ümumi xüsusiyyətini və onun siyasətlə əlaqəsini araşdırıb açmağa imkan verən rəqabətqabiliyyətlilik və artım üçün lazım olan potensialın dərindən istifadəsinə imkan verən real model milli innovasiya potensialıdır [1].

## Bilik iqtisadiyyatının formalaşması

XX əsrin 90-cı illərindən etibarən "bilik iqtisadiyyatı" və ya "biliyə əsaslanan iqtisadiyyat" terminləri elmdə çox geniş istifadə olunmağa başlamışdır. Bu müasir və yeni iqtisadiyyatı bu dövrə

qədər mövcud olan aqrar və sənaye iqtisadiyyatından fərqləndirən əsas cəhətlərdən biri, onun əsas amilinin bilik və insan kapitalının formalaşdırılmasıdır. Bu gün inkişaf etmiş ölkələrdə iqtisadi artımın əsas mənbəyi məhz bilik istehsalıdır.

Dünya Bankının tədqiqatlarının nəticələrinə görə: "cəmiyyətin biliyi yaratmaq, seçmək, uyğunlaşdırmaq, gəlir mənbəyinə çevirmək qabiliyyəti sabit iqtisadi inkişaf və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün həlledici əhəmiyyətə malikdir" [1], bilik iqtisadiyyatı hər hansı bir fərdin şəxsi inkişafını daha da sürətləndirən və rəqabət qabiliyyətini yüksəltmək üçün biliyi yaradan, yayan və istifadəsini təmin edən iqtisadiyyatdır.

Bilik iqtisadiyyatının bu səviyyəyə qədər formalaşmasının və inkişafının əsas amillərindən ən vacibi insan kapitalıdır. Bilik iqtisadiyyatı və ya bilik əsasında formalaşan iqtisadiyyat - maddi nemətlərin istehsal üsullarından biridir. Bilik iqtisadiyyatının əsas tərkib hissəsinə aşağıdakılar aiddir [1]:

1. təhsil;
2. fundamental elm;
3. elmi-texniki vençur biznesi;
4. geniş mənada insan kapitalı;
5. bilik və yüksək texnologiyaların istehsalı;
6. informasiya cəmiyyəti və ya bilik cəmiyyəti;
7. ideya-ibtidai elmdən innovasiya istehsalına və istehsala qədər olan kəşf və ixtiraların həyata keçməsini və transferini nəzərdə tutan müasir infrastrukturudur.

Son 15 il ərzində elm sahəsini inkişaf etdirmək və daha da yaxşılaşdırmaq üçün Azərbaycanda xeyli işlər görülmüş, elmin inkişafı üçün qanunverclik bazası yaradılmışdır. Aşağıdakı şəkildən aydın görmək olar ki, son 15 il ərzində ölkədə elmə çəkilən xərclər 5,2 dəfə artmışdır [5].




Şəkil. Dövlət büdcəsindən elmə çəkilən xərclər, mln manatla (2000-2021-ci il) [5]

**Cədvəl 1**

**Elmi təşkilatların və kadrların sayı, nəfərlə [5]**

| İllər | Tədqiqat işləmələri yerinə yetirən təşkilatların sayı | Elmi işçilərin sayı | Elmlər doktorları | Fəlsəfə doktorları |
|---|---|---|---|---|
| **2005** | 146 | 18164 | 705 | 3322 |
| **2009** | 148 | 17401 | 777 | 3321 |
| **2010** | 145 | 17924 | 843 | 3554 |
| **2012** | 140 | 21573 | 1329 | 5433 |
| **2013** | 140 | 22358 | 1392 | 5444 |
| **2014** | 145 | 22329 | 1554 | 6568 |
| **2015** | 141 | 23093 | 1534 | 6532 |
| **2016** | 135 | 22527 | 1476 | 6296 |
| **2017** | 137 | 20580 | 1414 | 6243 |
| **2018** | 133 | 20179 | 1415 | 6137 |
| **2019** | 132 | 20790 | 1466 | 6302 |
| **2020** | 127 | 20522 | 1433 | 6218 |
| **2021** | 134 | 19754 | 1351 | 5819 |

Son illər ərzində ölkəmizdə innovasiyaların tiplərinə görə elmi sahədə innovasiyalara çəkilən xərclərin strukturunda əsaslı dəyişiklik qeydə alınmışdır (cədvəl 1). Misal üçün qeyd edə bilərik ki, 2005-ci ildə elmi işçilərin sayı 18164 nəfər olmuşdursa, 2020-ci ildə isə bu rəqəm 20522 nəfər olmuşdur. Bundan əlavə, 2005-ci ildə dövlət büdcəsindən elmə çəkilən xərclər 28.8 milyon manat olduğu halda, 2020-ci ildə 143.6 milyon manat təşkil etmiş, yəni dövlət büdcəsi tərəfindən elmə çəkilən xərclər kifayət qədər artmışdır.

Beləliklə, ölkədə elm və innovasiya fəaliyyətinin inkişaf etdirilməsi üçün münbit şərait yaradılmışdır. Hazırda Azərbaycan elmi dünyanın bir çox inkişaf etmiş dövlətlərin elmi dairələrilə geniş əməkdaşlıq edir və sürətli inkişaf tempinə malikdir. Buradan aydın şəkildə göstərmək olar ki, respublikamız qlobal dəyişikliklərin öyrənilməsi və dərindən proqnoz edilməsi, elm sahəsinin yüksək bir potensiala malik olması üçün əhəmiyətli tədbirlər görmüşdür.

**Milli innovasiya sisteminin inkişaf modelləri.**

Ölkəmizin milli innovasiya sisteminin inkişaf etdirilməsi dövlətin siyasətində xüsusi yer tutmaqdadır. Ölkənin milli innovasiya sisteminin inkişaf yollarını dərindən təhlil etmək və istiqamətlərini qiymətləndirmək üçün iqtisadi yenilikləri və milli innovasiya sistemlərinin xüsusiyyətlərini dərindən araşdırıb nəzərdən keçirmək lazımdır. Ölkə innovasiya sistemi daima fəaliyyət göstərmək üçün müəyyən növ struktura malik olmalıdır və başqa sözlə desək qarşılıqlı əlaqəli sistemlərin məcmusundan ibarət olmalıdır. Hər bir milli innovasiya sisteminin tərkib hissəsində mütləq 5 aşağıdakı blok olmalıdır:

1. kreativ blok – bilik yaradan blok;
2. texnologiyaların transferi bloku;
3. maliyyə bloku;
4. istehsal bloku;
5. kadr hazırlığı bloku.

**Cədvəl 2**

**İnnovasiya prosesləri modellərinin təkamülü [6]**

| Nəsil | Dövr | İnnovasiya prosesi modeli |
|---|---|---|
| I | 1940-1960 | " Texnoloji təkan" modeli |
| II | 1960-1970 | "Tələbin çağırışı" modeli |
| III | 1970-1980 | Uyğunlaşmış model, zəncirvari model |
| IV | 1980-1990 | Birləşmiş (inteqrə edilmiş) model |
| V | 1990-2000 | Sistem və şəbəkə modeli |
| VI | 2000- hal-hazıradək | Nanotexnologiyalar |

I nəsil innovasiya prosesi zamanında sadə xətti model daha geniş yayılmışdı. Bu model "texnoloji yenilik" adlandırılırdı (Technology push və ya science push).

II nəsil innovasiya proseslərinin "Tələbin çağırışı" adlandırılmış modeli (market pull və ya demand-pull) xətti modeldir. İstehlakçılarda daima yüksək tələbin olması innovasiya mənbəyi modelinin çatışmazlığıdır.

III nəsil innovasiya prosesi modeli əsasən yuxarıda göstərilən modellərin müasir çatışmayan tələblərini nəzərə almaqla, uyğunlaşdırılmış və zəncirvari qeyri-xətti model adlandırılır. Bu modellər texnologiyanın bazardakı tələbini nəzərə alaraq I və II nəsil modellərinin yenilənmiş formasıdır.

IV və V nəsil innovasiya prosesləri modelləri müasir dövr üçün yaranmış bir modeldir. 1980-ci illdə K.Friman nəzəriyyəsinə əsasən milli innovasiya sistemi müasir texnologiya, məhsul və yeni xidmətə keçən, bilikləri yaradan və yayan iqtisadi subyekt və ictimai institutların (dəyər, norma, hüquq) qarşılıqlı təsirinə əsaslanan mürəkkəb sistemidir. Milli innovasiya sisteminin yaranma konsepsiyası innovasiya prosesi nəzəriyyəsinin yeni inkişafının əsas nəticələrindən biridir [1].

VI nəsil inovasiya prosesi 2000-ci ildən hazırkı dövrə qədər olan müddəti əhatə edir. Müasir dövr nanotexnologiyalar, yəni informasiya–kommunikasiya texnologiyaları dövrü kimi hesab olunur [8].

**Milli innovasiya sisteminin formalaşması.**

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının formalaşmasının əsas məqsədi müasir innovasiyaya əsaslanan iqtisadiyyata keçiddir. Azərbaycanda milli innovasiya sisteminin formalaşması üçün tələb olunan mühit, bu sistemin və onun tərkib hissəsi olan ayrı-ayrı altsistemlərin təsirli fəaliyyəti üçün hüquqi və inzibati zəmin yaradılmalıdır [1].

Ümumiyyətlə, bütün inkişaf etmiş dövlətlərdə innovasiya proseslərinin aktivləşdirilməsi məqsədilə innovativ iqtisadiyyatın inkişafının əsası olan milli innovasiya sistemi yaradırlar. İnnovasiya sistemi əsasən elmi-texniki inkişafın və innovasiya fəaliyyətinin nəticələrinin cəmlənməsi, ötürülməsi və təcrübədə istifadəsinin səmərəli mexanizmlərindən istifadə etməklə ölkənin iqtisadi inkişafının sürətlə artırmağa imkan verir. Azərbaycan iqtisadiyyatı ən son inkişaf mərhələsinə keçidi formalaşdıran funksional, sahə və regional altqrupların fundamental dəyişikliklər tələb edən innovasiya fəaliyyətinin aktivləşməsi əsasında müəyyən edilir [6]. Buna əsaslanıb deyə bilərik ki, biznesin təşkil edilməsinin institusional şəraitini nəzərə alaraq müasir dəyişikliklər aparmaq, yeni informasiya və kommunikasiya texnologiyalarının, bilik və yeniliklərin yaradılması sayəsində inkişafa nail olmaq mümkündür.

Azərbaycanda davamlı iqtisadi inkişafın təmin olunması məqsədilə milli innovasiya sisteminin konseptual əsaslarının formalaşması vacib məsələdir. Bu istiqamətdə sistemli tədqiqatlar hələ lazımınca aparılmamışdır. Bir çox göstəricilərə əsasən, deyə bilərik ki, innovasiya inkişafının

tətbiqində zəif inkişaf mövcuddur, milli innovasiya sisteminin metodoloji əsasları tam dolğun şəkildə işlənməmişdir. Ölkəmiz üçün innovasiya sisteminin dünya təcrübəsinə əsaslanaraq təhlil edilməsi, onlarda tətbiq olunan modellərin Azərbaycan üzrə istifadə olunması mümkünlüyü böyük əhəmiyyətə malikdir [5].

**Milli innovasiya sisteminin informasiya tərkibi**

Müasir zamanda biliyə əsaslanan innovasiya iqtisadiyyatının inkişafı 2 meylin qarşılıqlı əlaqəsilə xarakterizə edilir: postindustrial cəmiyyətə keçid və qloballaşma. Bu, milli rəqabət qabiliyyəti və onun informasiya ehtiyatları və innovasiya nailiyyətləri yolları məsələlərini avtomatik olaraq ön sıralara çıxarır [1].

Qeyd etdiklərimiz yeni və müasir iqtisadi sistemin aşağıdakı xüsusiyyətlərilə təsdiqlənir:

1. iqtisadi inkişaf və rəqabət qabiliyyətli innovasiyaya əsaslanan texnoloji modernləşmədən asılılıq. Bu halda əldə edilmiş nailiyyətin əsasını ənənəvi əsas fondlar (torpaq, əmək, kapital) deyil, innovasiyanın əsasını yaradan bilik, informasiya və informasiya ehtiyatlarının məcmusu təşkil etmiş olur;
2. fərqlilik yaradan xüsusiyyətli yeniliyin qısa müddət ərzində innovasiyaya çevrilməsi olan innovasiya iqtisadiyyatının təşəkkülü;
3. humanitar, xüsusilə də, iqtisadi elmlərin rolunun getdikcə artması.

Bu, yalnız istehsal proseslərinin təkmilləşdirilməsilə deyil, bütün mənbələr hesabına maksimal səmərəlilik əldə edilməsi zərurətilə bağlıdır. Bu şərait 2 fərqli sinif innovasiyanın seçilməsinə əsas yaradır: istehsalat və ictimai-funksional. Bunlar da öz növbəsində ictimai (sosial, iqtisadi, siyasi, mədəni) və funksionala (təşkilatı-idarəetmə və informasiya) bölünür [1].

**Nəticə**

XXI əsrdə iqtisadi innovasiyanın xüsusi əhəmiyyətə malik olduğunu qeyd edə bilərik. Onu da qeyd edə bilərik ki, müasir dövrdə elm, texnologiya və iqtisadi innovasiya tutumlu sahələr daha sürətlə inkişaf edir. Şəkil və cədvəl 1-dən aydın şəkildə görmək olar ki, ölkəmizdə son dövrlərdə elmi potensialı artırmaq üçün kifayət qədər ciddi addımlar atılmış və bu sahəyə yönəldilən investisiyaların miqdarı nəzərə çarpacaq qədər artırılmışdır. Elə bu səbəbdən elmə, innovasiyaya və biliyə əsaslanan iqtisadiyyat sektoruna tələb artmışdır. Bununla da deyə bilərik ki, bu sahəyə olan tələb müasir dövrümüzün ən aktual məsələlərindən biridir.

**Məhəmməd Xəlilov**

**Azərbaycanda iqtisadi innovasiya**

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasında müasir dövrdə iqtisadi innovasiyanın mövcud vəziyyəti təhlil edilmişdir. Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın formalaşmasında əsas məqsəd müasir innovasiyaya əsaslanan iqtisadiyyata keçidin olduğu araşdırılmışdır. Müəyyən illər ərzində ölkədə inovasiyanın stimulaşdırılması üçün müxtəlif elm, təhsil və yaradıcılıq sahəsinə yönəldilən investisiyalar təhlil edilmişdir. Bundan əlavə, milli innovasiya sisteminin inkişaf yolları və inkişaf istiqamətləri qeyd edilmişdir. Azərbaycanda elmi inkişaf etdirilməsi üçün elmə qoyulan investisiyaların illər üzrə dinamikası qeyd edilmişdir.

**Мухаммад Халилов**

**Экономические инновации в Азербайджане**

**Резюме**

В статье анализируется состояние экономических инноваций в Азербайджанской Республике за последние 15 лет. Показано, что основной целью в формировании социально-экономического развития Азербайджанской Республики является переход к экономике,

основанной на современных инновациях. Инвестиции в различные области науки, образования и творчества проанализированы в динамике за ряд лет. Кроме того, были изучены и проанализированы пути развития национальной инновационной системы, отмечены направления их развития. Показана динамика инвестиций в науку по годам.

**Muhammad Khalilov**

**Economic innovation in Azerbaijan**

**Summary**

The article analyzes the current state of Economic Innovation in the modern period in the Republic of Azerbaijan. The main purpose of the formation of socio-economic development in the Republic of Azerbaijan is the transition to a modern innovation-based economy. Over certain years, investments in various fields of Science, Education and creativity were analyzed to stimulate innovation in the country. In addition, the ways and directions of development of the national innovation system are outlined. The dynamics of investments in science for the development of Science in Azerbaijan over the years was noted.

**Ədəbiyyat**

1. iqt.e.n., dos, Hüseynova Arzu Qoğru qızı Azərbaycanda İnovasiya potensialının təhlili. Bakı: Elm və təhsil, 2013, 385 s.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezdentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı.
3. Azərbaycanın Statistika Göstəriciləri 2022. Bakı, 2022
4. www.e-qanun.az
5. http:www.stat.gov.az
6. https://www.elibrary.az/docs/jurnal/jrn2016_957.htm
7. Mahir Abbaszadə, İqtisadiyyat İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı, Azərbaycan
8. https://unec.edu.az/application/uploads/2015/11/nnovasiya-marketinqi-az-m-h.docx
9. Hüseynova a.d. elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə, Bakı: TUNA, 2020, 374 s.

Məqalə redaksiyaya daxil olmuşdur: 17.01.2022
Təkrar işlənməyə göndərilmişdir: 21.01.2022
Çap üçün qəbul olunmuşdur ...........2022

UOT: 005.027.21
DOI: 10.338.70/2413-6557-2022-8-4-39-48

# ТУРИСТИЧЕСКИЙ РЫНОК АЗЕРБАЙДЖАНА В РУСЛЕ ТЕНДЕНЦИЙ РАЗВИТИЯ МЕЖДУНАРОДНОГО ТУРИЗМА

***Эльдар Гулиев***
*Азербайджанский Государственный Экономический Университет (UNEC),*
*Русская экономическая школа,*
*доцент кафедры «Экономика», доктор философии по экономике*
*АЗ 1134, город Баку, улица Асифа Магеррамова 68, блок 1, кв.6*
*e-почта: eldargeorgia1948@mail.ru*

**Açar sözlər:** turizm, turizm sənayesi, beynəlxalq turizm, turizm marketinqi, turizm bazarı, gəlirlər, xidmətlər.
**Ключевые слова:** туризм, индустрия туризма, международный туризм, туристический маркетинг, туристический рынок, доходы, услуги.
**Keywords:** tourism, tourism industry, international tourism, tourism marketing, tourism market, income, services.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin müddəti bitdikdən sonra rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin tənzimlənməsi məsələləri «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamında öz əksini tapmışdır [4, 5, 7]. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin müddətinin bitməsini nəzərə alaraq rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin tənzimlənməsi istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə xarici təcrübəyə əsasən araşdırmalar aparmışıq [29, 35, 37, 41]. Belə ki, biz M.F. Neves, A. Gray, F.R. Valerio və başqalarının «2030-cu ildə ərzaq və aqrobiznes: yol xəritəsi» adlı əsərində rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin qarşılaşdığı yeni makro mühit anlamaq məqsədilə alətlər təklif olunmuşdur və bu alətlər qida zəncirlərini yerləşdirməyə şərait yaradır [35]. Bu alətlər yeni ssenaridə ərzaq zəncirlərinin strateji planlaşdırılması, zəncir iştirakçıları ilə gələcəkdə nələrin olacağını, bazar həcmlərinin harada artacağını, istehlakçıların necə davranacağını, davamlılığın hansı önəmliliyə nail olacağını və kooperativlərin, birliklərin və digər kollektiv təsərrüfat formalarının necə olacağını başa düşməklə əlaqədardır. Araşdırmalarımıza əsasən ölkəmizdə rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin gələcək yol xəritəsi müəyyənləşdirilərkən aşağıdakıların nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

- ərzaq zənciri üçün strateji plan yaradılmalı;
- ərzaq, aqrobiznes və bioyanacaq zəncirləri üçün yeni makromühit formalaşdırılmalı;
- ərzaq zəncirinin iştirakçıları, onların xüsusiyyətləri və meylləri müəyyənləşdirilməli;
- ərzaq və içki marketinqində bəzi inkişaf meylləri müəyyənləşdirilməli;
- ərzaq zəncirində davamlılıq formalaşdırılmalı;
- ərzaq istehlakına meyllər gücləndirilməli;
- qlobal dünyada kooperativlərin əhəmiyyəti qiymətləndirilməli;
- Covid-19-dan sonrakı dünyanın vəziyyəti araşdırılmalı.

Respublikanın aqrobiznes sahələrində rəqabətqabiliyyətli və ixrac yönümlü əlaqələri liberallaşdırmaq üçün müxtəlif tədbirlərlə milli iqtisadiyyatın rəqabətdən qorunması və xarici ölkələrin müdaxiləsinin məhdudlaşdırılması üzrə dövlət siyasəti (proteksionist) həyata keçirilməlidir. Daxili bazarı xarici rəqabətdən mühafizə etmək üçün idxal olunan əmtəələrə yüksək gömrük tarifi qoymaqla, həmçinin ixracatın könüllü məhdudlaşdırılması, lisenziyalaşdırılması və idxal olunan əmtəələrə qeyri-tarif valyuta məhdudiyyətləri müəyyən etməklə idxal olunan əmtəələrdən daxili rüsum və vergi yığmaqla, sərt antidempinq gömrükləri almaqla dövlət öz himayəçilik siyasətini (proteksionizim) həyata keçirir. Lakin ifrat proteksionist dövlət siyasəti respublikanın iqtisadiyyatının inkişafını məhdudlaşdıra və beynəlxalq rəqabət qabiliyyətini aşağı sala bilər. Bu halın aradan qaldırılması və beynəlxalq ticarətin liberallaşdırılmasında vahid maliyyə sistemini tənzimləmək üçün 1944-cü ildə ABŞ-in Bretton-Vuds şəhərində Beynəlxalq Valyuta Fondu yaradılmışdır. Beynəlxalq Valyuta Fondu proteksionist dövlət siyasətinə qarşı ticarətdə böyük

müqavilə işləyib hazırlamışdır. Həmin müqaviləyə əsasən xarici ticarətdə müxtəlif tariflər işlənib hazırlanmış, lakin onların yersiz tətbiqi məhdudlaşdırılmışdır. Digər tərəfdən, həmin müqaviləyə əsasən beynəlxalq ticarətdə iştirak edən ölkələr eyni səviyələrdə tarif və vergi sistemindən istifadə etməlidirlər.

Beləliklə, respublikanın aqrobiznes sahələrində xarici-iqtisadi fəaliyyətin təkmilləşdirilməsi yolları araşdırılmalı, aqrobiznes sahələrində kommersiya xidməti strukturu yaradılmalı və fəaliyyətinin əsas istiqamətləri göstərilməli, aqrobiznes sahələrinin səmərəliliyinin müəyyənləşdirilməsinin yeni üsulları müəyyənləşdirilməli, o cümlədən aqrobiznes sahələrinin dünya təcrübəsi öyrənilərək milli iqtisadiyyata tətbiq olunmalıdır.

Ölkəmizin aqrobiznes sahələrində biznesin formalaşdığı şəraitdə istehsalın inkişaf etdirilməsi və onun səmərəliliyinin yüksəldilməsi seqmentlər üzrə idxalla ixrac arasında məqsədyönlü nisbətin yaranmasından asılıdır. Belə bir şəraitdə idxalla ixrac arasında yaranmış nisbətin və rəqabətqabiliyyətli və ixrac yönümlü fəaliyyətin daim dövlət tərəfindən dəstəklənməsinə böyük ehtiyac vardır.

Azərbaycan Respublikasında idxal əməliyyatlarının tənzimlənməsi üçün «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmilləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında» (aprel 2001, aprel - sentyabr 2004), «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»ndə dəyişiklik edilməsi barədə (iyun 2003) və «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»ndə bəzi mallar üzrə spesifik gömrük idxal dərəcələri advalor gömrük idxal rüsum dərəcələrilə əvəz edilməsi» barədə (aprel 2004) ölkənin Nazirlər Kabinetinin Qərarları qüvvəyə minmişdir. Ölkəmizdə idxal əməliyyatlarının tənzimlənməsinə dair normativ-hüquqi bazanın formalaşmasından və təkmilləşdirilməsindən sonra 2008-2021-ci illərdə xarici ölkələrdən idxal olunan buğda üzrə ayrı-ayrı ölkələrin xüsusi çəkisi biri digərindən əsaslı dərəcədə fərqlənməsi vəziyyəti müşahidə olundu.

Müasir şəraitdə ölkəmizin aqrobiznes sahələrində istehsal həcminin dəyişməsi bazar amillərinin dəyişməsindən asılıdır. Ölkə əhalisinin ərzaq təminatının yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına aqrobiznes sahələrində istehsalın həcmi yüksəldilməlidir. Ölkəmizin müxtəlif təbii iqlim şəraitə malik olması ayrı-ayrı növ kənd təsərrüfatı və ərzaq məhsulları istehsalını reallaşdırmağa imkan verir. Belə bir əlverişli şəraitin olmasına baxmayaraq bəzən yerli məhsulların qiymətləri analoji idxal məhsullarının qiymətlərindən baha başa gəlir. Ona görə də istehlakçılar ucuz idxal məhsullarına üstünlük vermək məcburiyyətində qalırlar. Belə vəziyyətin yaranması milli istehsalçıların maraqlarına ziddir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra aqrobiznes sahələrində xarici-iqtisadi fəaliyyətini genişləndirmək məqsədilə hüquqi bazanın formalaşmasına ehtiyac yaranmışdır. Müstəqilliyin ilk dövrlərindən indiyədək həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində xarici-iqtisadi fəaliyyətin yaxşılaşdırılmasına dair xeyli işlər görülmüşdür. Belə ki, «Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında» (dekabr 1996), «Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında» (iyun 1997) və «Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə balıq və digər dəniz məhsullarının ixracının tənziməlnməsi haqqında» (iyul 2005) Azərbaycan Respublikası Prezidentinin Fərmanları, o cümlədən «Gömrük tarifi haqqında» (iyun 1995) və «Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında» Beynəlxalq Konvensiyanın dəyişdirilməsi haqqında protokola qoşulmaq barədə (dekabr 2003) Azərbaycan Respublikasının Qanunları qəbul olunmuşdur. «Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında» Sazişin təsdiq edilməsi barədə (fevral 2000), «Azad ticarət zonasının yaradılması haqqında» Sazişin iştirakçısı olan dövlətlər tərəfindən idxalın lisenziyalaşdırılması qaydaları barədə» Protokolun təsdiq edilməsi haqqında (iyun 2001) və «GUÖAM iştirakçısı olan dövlətlər arasında azad ticarət zonasının yaradılması haqqında» Sazişin təsdiq edilməsi barədə (iyun 2003) Azərbaycan Respublikasının Qanunlarına əsasən ölkə azad ticarət zonası elan edilmiş, bir çox dövlətlərdə ikitərəfli və çoxtərəfli ticarət əlaqələrinə dair müqavilələr bağlanılmışdır. Həmin sazişlərin əsas müddəalarına uyğun olaraq idxal edilən kənd

təsərrüfatı və yeyinti məhsullarına ən aşağı gömrük rüsumları tətbiq olunmaqla, bəzən isə bu məhsullara heç bir ödənişlər aid edilmədən reallaşdırmaq olar.

Ölkəmizdə xarici-iqtisadi fəaliyyətin reallaşdırılması üçün formalaşdırılmış mövcud qanunvericilik bazasına əsasən əlverişli aqrobiznes sahələri təşkil olunmuşdur. Belə şəraitdə Azərbaycan Respublikası dünyanın 185 dövləti ilə və 20-dən artıq beynəlxalq təşkilatlarla sərbəst iqtisadi əlaqələr yaratmaqla əməkdaşlıq edir.

4. Müasir şəraitdə aqrobiznes sahələrində ixracın stimullaşdırılması.

Xarici ölkələrlə iqtisadi əlaqələrin genişlənməsi nəticəsində ölkəmizdə səmərəli aqrobiznes sahələri formalaşmış və bu sferada istehsal olunan yüksək rəqabətqabiliyyətli məhsulların ixracatı həyata keçirilir. Statistik məlumatların təhlili göstərir ki, ölkəmizdə istehsal olunan bəzi aqrobiznes məhsullarından həm keçmiş ittifaq dövründə, həm də indiki aqrobiznes sahələrində ixracı reallaşdırılır. Keçmiş ittifaq dövründə ölkəmizin aqrobiznes sahələrindən məhsulların müttəfiq respublikalara ixrac olunmasına baxmayaraq müstəqilliyə nail olunduqdan sonra onun ixracat dairəsi genişləndi. Belə ki, müstəqil ölkəmiz yaxın və uzaq xarici ölkələrlə iqtisadi əlaqələri genişləndirdi.

Bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş ölkələr aktiv surətdə ixracın stimullaşdırılması ilə məşğul olur və həmin ölkələr bir sıra məqsədə nail olurlar: hər hansı bir ölkə ixracı genişləndirməklə malların ölkə xaricinə ixracına nail olur və bununla də milli iqtisadiyyatını genişləndirmək imkanı yaradır; ixrac təmayüllü iqtisadiyyatı dinamikləşdirir və ixraca yeni keyfiyyət elementləri daxil edir; ixracın genişləndirilməsi istehsalı da demonopolizasiyalaşdırır (öz malını diktə edən dövlətə çevrilir və digər inhisarçıları sıradan çıxarır).

Azərbaycan Respublikasının aqrobiznes sahələrində ixracı stimullaşdırmaq üçün aşağıdakı tədbirlərdən istifadə edilir:

a) ixracla məşğul olan biznes qurumlarına güzəştli vergilər tətbiq edilir;

b) ixrac kreditlərinin zəmanətləri dövlətin üzərinə götürülür;

c) ikitərəfli və çoxtərəfli müqavilələr bağlanır;

ç) dövlətlərarası ticarət maraqlarının nizamlanması tədbirləri həyata keçirilir, məqsədli proqramlar hazırlanır və həyata keçirilir;

d) respublikanın ixrac potensialının artırılmasına şərait yaradılır və s.

Müasir aqrobiznes sahələrində respublikada bazar iqtisadiyyatının əsas prinsiplərinin iqtisadiyyatımıza tətbiqi şəraitində ixracın stimullaşdırılmasının ən güclü təsiredici vasitəsi valyuta məzənnəsinin tənzimlənməsi hesab edilir. Respublikanın daxili bazarı xarici istehsalçılardan lazımi səviyyədə qorunmur, gömrük və vergi siyasəti aqrobiznes məhsulları istehsal edən sahibkarların marağı ilə lazımınca uzlaşdırılmır, tədarük sistemi ləğv edilmiş, onun əvəzində isə topdansatış birjaları formalaşdırılmamışdır, məhsulun tədarükündə stimullaşdırıcı qiymətlərdən istifadə edilmir.

## Nəticə

Azərbaycan Respublikasının rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin dövlət tənzimlənməsində və proteksionist dövlət siyasətinin həyata keçirilməsində aşağıdakı məsələlər daha da təkmilləşdirilməlidir: ticarət siyasətinin inzibati qanunauyğunluğunun hüquqi normativ bazası (lisenziyaların verilməsi, yeni texnologiyaların alınması) reqlamentləşdirilməlidir; rəqabətqabiliyyətli və ixrac yönümlü əlaqələrdə iştirak edən dövlətlərlə hesablaşma qaydası, maliyyə məsələləri, gömrük tarifi və vergi sistemi getdikcə təkmilləşdirilməlidir; idxal və ixrac münasibətlərində iştirak edən şəxslərin (biznes qurumlarının) vətəndaşlıq qanunvericiliyi təkmilləşdirilməlidir; xarici ölkələrlə beynəlxalq arbitraj və digər qanunvericilik təkmilləşdirilməlidir; idxal olunan məhsullara yüksək gömrük tarifi qoyulmalıdır; müxtəlif maneələrin, lisenziyaların məhdudlaşdırılmasının qarşısının alınması üçün qeyri-standart tariflər tədbiq edilməlidir; idxal olunan məhsullara respublikanın milli xüsusiyyətlərinin, səhiyyə və digər texniki normativlərin uyğun olması tələbləri qoyulmalıdır; respublikanın ixrac potensialının formalaşması və inkişafı, ixracın strukturunun dəyişdirilməsi, bonus sisteminin (hazır məhsulun ixracının) mükafatlandırılması həyata keçirilməlidir; yerli istehsalçıların rəqabət qabiliyyətliyi artırılmalıdır; idxalın strukturuna elastik yanaşılmalıdır; texniki modelləşdirmə üçün investisiyalar cəlb olunmalıdır; daxili bazarın idxal-ixrac nəzarəti (valyuta) gücləndirilməlidir; ixracın strukturu

təkmilləşdirilməlidir, yəni xammal (yarımfabrikat) ixracından rəqabətqabiliyyətli hazır məhsul ixracına keçirilməlidir.

Müasir aqrobiznes sahələrində respublikada beynəlxalq bank təşkilatları ilə yeni əlaqələr qurulur, xarici müştərək banklar fəaliyyət göstərir, kredit verilmə qaydası yeniləşdirilir, yeni sığorta siyasəti tətbiq edilir, qiymətlər sərbəstləşdirilir və alqı-satqı sistemi bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılır. Bütün bunlar rəqabətqabiliyyətli və ixrac yönümlü fəaliyyətin formalaşdığı müasir aqrobiznes sahələrində əvvəlki maliyyə münasibətlərinin tədricən ləğv edilməsinə, bazar iqtisadiyyatının əsas prinsiplərinə uyğun yeni maliyyə münasibətlərinin formalaşdırılmasına səbəb olur. Ölkəmizdə bu cür iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün dövlətin tənzimləyici tədbirləri həyata keçirilməlidir. Bunun üçün rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin formalaşdırılması aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

– rəqabətqabiliyyətli və ixrac yönümlü fəaliyyətin hüquqi prinsiplərini müəyyənləşdirən normaları işləyib hazırlamaq və onları tənzimləmək;

rəqabətqabiliyyətli və ixrac yönümlü əlaqələri tənzimləyən orqanların statusunu müəyyənləşdirmək;

– rəqabətqabiliyyətli və ixrac yönümlü əlaqələrin inkişafı istiqamətlərini müəyyənləşdirmək, aqrobiznes sahələrində müştərək biznes qurumlarının təşkili üçün normativ aktlarını tərtib etmək;

– aqrobiznes sahələrində istehsal olunan məhsulların ixrac rejimini müəyyənləşdirmək, ixracı lisenziyalaşdırmaq, məhsulların idxal-ixrac qaydasını müəyyənləşdirmək;

– valyuta, gömrük tənzimlənməsini həyata keçirmək;

– rəqabətqabiliyyətli və ixrac yönümlü əlaqələrdə iştirak edən dövlətlərin marağının qorunması tədbirlərini həyata keçirmək;

– beynəlxalq qurumlarla əlaqələri genişləndirmək və s.

**Qalib Hacıyev**

## Rəqabətqabiliyyətli və ixrac yönümlü innovativ aqrobiznes sahələrinin tənzimlənməsi istiqamətləri

### Xülasə

Məqalədə mövcud iqtisadi münasibətlər şəraitində milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini nəzərə alaraq rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin tənzimlənməsinin əsas istiqamətləri müəyyənləşdirilərək təkliflər hazırlanmışdır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra aqrobiznes sahələrində xarici-iqtisadi fəaliyyətini genişləndirmək məqsədilə hüquqi bazanın formalaşmasına ehtiyacın yarandığı məqalədə göstərilmişdir. Bu baxımdan məqalədə indiyədək həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində xarici-iqtisadi fəaliyyətin yaxşılaşdırılmasına dair xeyli işlərin görüldüyü qeyd olunur. Məqalədə tədqiqatın nəticəsi kimi rəqabətqabiliyyətli və ixrac yönümlü innovatik aqrobiznes sahələrinin tənzimlənməsinin əsas istiqamətlərinin müəyyən olunmasına dair təkliflər hazırlanmışdır.

**Галиб Гаджиев**

## Направления регулирования конкурентоспособных и экспортоориентированных инновационных отраслей агробизнеса

### Резюме

В статье определены основные направления регулирования конкурентоспособного и экспортоориентированного инновационного агробизнеса с учетом особенностей развития национальной экономики в современных экономических отношениях и подготовлены предложения. В статье говорится о том, что после восстановления нашей страной независимости возникла необходимость формирования правовой базы для расширения внешнеэкономической деятельности в сфере агробизнеса. В связи с этим, в статье отмечается, что в результате успешной экономической политики, многое было сделано для улучшения внешнеэкономической деятельности. В результате исследования внесены предложения по выявлению основных направлений регулирования конкурентоспособных и экспортоориентированных инновационных направлений агробизнеса.

**Galib Hajiyev**

**Directions of regulation of competitive and export-oriented innovative Agribusiness Areas**

**Summary**

The article identifies the main directions of regulation of competitive and export-oriented innovative agribusinesses, taking into account the development features of the national economy in the current economic relations, and prepares proposals. The article states that after the independence of our country, there is a need to form a legal framework in order to expand foreign economic activity in the field of agribusiness. In this regard, the article notes that as a result of successful economic policies pursued since the early days of independence, much has been done to improve foreign economic activity. As a result of the research, proposals have been made to identify the main directions of regulation of competitive and export-oriented innovative agribusiness areas as a result of the research.

**Ədəbiyyat**

1. Abbasov, V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri / V.H.Abbasov. -Bakı: MBM, - 2012. -424 s.
2. «Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2019, № 1
3. Aqrobiznes və ərzaq təhlükəsizliyi / İ.Ş.Qarayevin redaktəsi ilə. -Bakı: İqtisad Universiteti, -2015. -366 s.
4. «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
5. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş)
6. «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı. «Azərbaycan» qəz. Bakı, 2003, 25 noyabr.
7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş)
8. Azərbaycan Respublikasının Torpaq Qanunvericiliyi (tərtibatçı və nəşrə məsul Şahbaz Xuduoğlu). Bakı: Qanun, -2008. -840 s.
9. Azərbaycan Respublikası regionlarının (2009-2013-ci illər) sosial-iqtisadi inkişafı Dövlət Proqramı. «Respublika» qəz., Bakı, 2009, 16 aprel
10. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. «Respublika» qəz. Bakı: 2014, 27 fevral.
11. «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı». «Respublika» qəz., Bakı: 2019, 29 yanvar
12. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). «Mülkiyyət» qəz. Bakı, 2004, 14 fevral.
13. Hacıyev, Q.B. Aqrar sahədə xarici-iqtisadi əlaqələrin dövlət tənzimlənməsi // AzETKTİ və Tİ-da «Aqrar islahatlar 10 ildə» mövzunda keçirilmiş respublika elmi-praktik konfransın materialları, -Bakı: AzETKTİ və Tİ-nun mətbəəsi, -2005, -s. 387-395.
14. Hacıyev, Q.B. Koronovirus pandemiyası şəraitində ölkəmizin aqrobiznes sistemində maliyyə mexanizminin rəqabətədavamlılığın formalaşmasına təsiri istiqamətləri / Q.B.Hacıyev, A.A.Səlimova, R.A.Musayeva // «Kənd təsərrüfatının iqtisadiyyatı» jurnalı, -Bakı: -2020. №2 (32), -s. 119-129.
15. Hüseynov, T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika / T.H.Hüseynov. -B.: Elm, -2015. -466 s.
16. Xəlilov, H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri / H.A.Xəlilov. -Bakı: Adiloğlu, -2001. -176 s.

17. İbrahimov, E.R. İlham Əliyev və müasir aqrar siyasət / E.R.İbrahimov. -Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, -2013. -936 s.
18. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. «İqtisadiyyat» qəz. Bakı, 2008, 28 avqust-3 sentyabr və 4-10 sentyabr.
19. Quliyev, E.A. Aqrar iqtisadiyyat / E.A.Quliyev -Bakı: Elm, - 2015. -320 s.
20. Quliyev, E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri / E.A.Quliyev. -Bakı: Elm, -2013. -308 s.
21. Məmmədova, M.Ə. Aqrar sahədə xarici-iqtisadi əlaqələrin dövlət tənzim¬lənməsi: / iqtisad elmləri üzrə fəlsəfə doktoru..dis. / -Bakı, 2010. -161 s.
22. Muradov, Ə.C. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: monoqrafiya / Ə.C.Muradov, M.A.Əhmədov, Ə.Q.Əlirzayev [və b.]. - Bakı: Şərq-Qərb, -2019. -328 s.
23. Salahov, S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri / S.V.Salahov. - Bakı: Nurlar, -2004. -504s.
24. Гаджиев, Г.Б. Регулирование бизнеса зерноводства и направления его развития / Г.Б.Гаджиев // Глобальный научный потенциал, - Санкт-Петербург: -2015. №3(45), - с. 110-113.
25. Гаджиев, Г.Б. Современное состояние экспорта в системе агробизнеса и направления регулирования внешнеэкономической деятельности / Г.Б.Гаджиев // Наука и бизнес: пути развития, - Москва: - 2014. №8(38), с.146-148.
26. Кулиев, А.А. Регулирование бизнес производства и продажи продуктов в аграрном секторе/ А.А.Кулиев, Г.Б.Гаджиев // Science and Education Studies, - 2016, № 1 (17), - Stanford University Press, - p.105-114.
27. Савицкая, Г.В. Комплексный анализ хозяйственной деятельности предприятия. 7-е изд., перераб. и доп. / Г.В.Савицкая. - М.: ИНФРА-М, - 2017. - 608 с.
28. Aliyev, E. Evalution security in the Region Within the Framework of the FAO UN Cooperation Program Using the Fuzzy Interence / E.Aliyev, T.Kerimova, G.Hajiyev // 13th International Conference on Theory and Application of Fuzzy Systems Soft Computing-ICAFS-2018. - pp.609-618.
29. Clark, J.K. A contemporary concept of the value (s)-added food and agriculture sector and rural development / Jill K. Clark, Becca B.R. Jablonski, Shoshanah Inwood [et al.] // Community Development, - 2021. Vol. 52. Issue 2, - p. 186-204.
30. Hajiyev, G.B. On regulation directions of export in agrobusiness system / 55th International Scientific Conference on Economic and Social Development Baku, - 18-19 June 2020, - Vol. 4/4, - pp. 12-20.
31. Hajiyev, G.B., Salimova, A.A. On directions for improving the efficiency of the financial mechanism in the context of supporting competitiveness in the agribusiness system / 55th International Scientific Conference on Economic and Social Development Baku, - 18-19 June 2020, - Vol. 2/4, - pp. 202-209
32. Ioris, A.A.R. The politics of agribusiness and the business of sustainability / Antonio A.R. Ioris // Sustainability, - 2018. Vol. 10. Issue 5.
33. Kirwan, B.E. US farm dynamics and the distribution of US agricultural subsidies / Barrett E. Kirwan // Applied Economics Letters, - 2017. Vol. 24. Issue 3, - p. 207-209.
34. Lusk, J. Economic impacts of covid-19 on food and agricultural markets / Jayson Lusk // CAST Commentary Council for Agricultural Science and Technology, - 2020, - p. 1-44.
35. Neves, M.F. Food and agribusiness in 2030: a roadmap / M.F. Neves, A. Gray, F.R. Valerio [et al.] // Food and agribusiness in, - 2020, - 126 p.
36. Rzayev, R. Assessment the Attractiveness of Countries for Investment by Expert Knowledge Compilation / R.Rzayev, S.Aliyeva, G.Hajiyev [et al.] // Assessment the Attractiveness of Countries for Investment. – 2020, - pp. 331–339.

37. Trejo-Pech, C.O. Mergers and acquisitions in the US agribusiness sector, 1990-2017. / Carlos O. Trejo-Pech, Michael Gunderson, Dayton Lambert // Agribusiness: An International Journal, - 2021. Vol. 37. Issue 4, - p. 713-730.
38. www.az.stat.orq
39. www.e-qanun.az
40. www.president.az
41. Zheng, Y. The 21st century agribusiness in China: E-commerce, consumer preference, and competition / Yuqing Zheng, Songqing Jin, Jian Zhang // Agribusiness: An International Journal, - 2018. Vol. 35. Issue 1.

Məqalə redaksiyaya daxil olmuşdur: 22.09.2022
Təkrar işlənməyə göndərilmişdir: 28.09.2022
Çap üçün qəbul olunmuşdur: 19.11.2022

UOT: 338.43.02
DOI:10.338.70/2413-6557-2022-8-4-73-85

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ XARİCİ ÖLKƏLƏRİN AQROBİZNES SİSTEMİNDƏ SAHİBKARLARA DÖVLƏT DƏSTƏYİ TƏCRÜBƏSİNDƏN

***Müşfiqə Məmmədova***
*Aqrar Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, i.ü.f.d, dosent*
*AZ 1010, Bakı şəhəri, Nizami küç. 92*
*e-poçt: mushfiqa38@gmail.com*

***Aygül Səlimova***
*Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı*
*AZ 1010, Bakı şəhəri, Nizami küç. 92*
*e-poçt: vipaygul76089@gmail.com*

***Rəna Musayeva***
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)*
*«İqtisadiyyatın tənzimlənməsi» kafedrasının müəllimi*
*AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küç.6*
*e-poçt: musayevarena59@gmail.com*

**Açar sözlər:** sahibkar, aqrobiznes sistemi, Aİ (Avropa İttifaqı), dövlət dəstəyi, xarici investisiya.
**Ключевые слова:** предприниматель, система агробизнеса, ЕС (Европейский Союз) государственная поддержка, иностранные инвестиции.
**Keywords:** entrepreneur, agribusiness system, EU, state support, foreign investment.

Azərbaycan Respublikasında uğurlu iqtisadi islahatlar nəticəsində əlverişli iqtisadi mühitin reallığına baxmayaraq müasir iqtisadi şəraitdə dünyada fasiləsiz olaraq baş verən dəyişikliklər prosesində real olan qlobal böhranın təsir etməsi sayəsində iqtisadi əlaqələrin dərinləşməsi istiqamətində bir sıra həlli vacib olan məsələlər ortaya çıxır. Göstərilən məsələlərin həlli məqsədilə ölkəmizin aqrobiznes sistemində iqtisadi əlaqələrin mövcud reallıqları, onun qiymətləndirilməsi və inkişaf perspektivləri kimi məsələlər araşdırılmalıdır [3, 5, 6, 11, 29, 32, 36]. Məhz buna görə ölkənin aqrobiznes sistemində sahibkarlara dövlət dəstəyinin dünya təcrübəsinin öyrənilməsi mühüm məsələlərdən birinə çevrilmişdir. Ölkəmizdə aqrobiznesin inkişafı və əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və onunla əlaqədar olan sahələrin inkişafı bilavasitə müasir iqtisadi şəraitdə xarici ölkələrin aqrobiznes sistemində sahibkarlara dövlət dəstəyinin vəziyyətinin araşdırılaraq müsbət təcrübənin milli iqtisadiyyatımıza tətbiq olunmasından asılıdır. Bu baxımdan tədqiqatın mövzusu aktuallıq kəsb edir.

1. Xarici ölkələrin aqrobiznes sistemində məhsulların qiymət siyasəti.

Azərbaycan Respublikasında aqrobiznes sisteminin bazar iqtisadiyyatının əsas prinsiplərindən istifadə edildiyi şəraitdə səmərəli dövlət tənzimləməsi məqsədilə rəqabətə davamlı kənd təsərrüfatına malik olan qabaqcıl təcrübəyə malik ölkələrin, xüsusilə Şimali Amerika və Avropa İttifaqına (Aİ) üzv olan ölkələrin praktikası öyrənilməlidir [1, 4, 7, 9, 12, 17, 18, 21]. Bir sözlə, qabaqcıl təcrübəyə malik ölkələrdə, xüsusilə də, Aİ-na üzv olan ölkələrdə aqrobiznes sisteminə büdcədən dəstəyin 3 istiqaməti bərqərar edilib. Bunlar sahibkarlara büdcədən birbaşa ödəmələr, kənd ərazilərinin inkişafına kömək, aqrobiznesə struktur köməyidir.

Aİ-na üzv olan ölkələrin aqrobiznes sistemində sahibkarlara qiymət dəstəyi xüsusi yer tutur. Belə ki, təminatlı qiymətlərin nisbətən yüksək səviyyəsi orta və iri kənd təsərrüfatı müəssisələri üçün müəyyən gəlir təmin edir. Həmin qiymətlərə dövlət satınalma strukturları kənd təsərrüfatı müəssisələrindən istehsal etdikləri məhsulları satın alırlar. S.Dash, R.P.Pradhan, R.P.Maradana və başqaları qeyd edirlər ki, Avrozona ölkələrində dövlətin məhsulları qabaqcadan müəyyən edilmiş

qiymətlərlə tədarükü bazar qiymətlərinin minimumdan aşağı enməsinə qarşı əlverişli vasitədir [31, s. 53]. Qərbi Avropa ölkələrinin aqrobiznes sistemində kənd təsərrüfatı məhsullarına təminatlı qiymət mexanizmi mövcuddur. Məsələn, Finlandiyada təminatlı, dotasiyalı və əlavə olaraq 3 növ qiymətlər tətbiq edilir. Kənd və Meşə Təsərrüfatı Nazirliyi hər il təminatlı qiymətləri təyin edir, sonra da aqrobiznes sistemində sahibkarların mərkəzi strukturu ilə razılığa gələrək təsdiqləyir. Bu qiymətlər il ərzində inflasiyanın səviyyəsinə əsasən dəyişdirilə bilər. Təminatlı qiymətlərin istinad yeri kimi ölkənin daha münasib mühitə malik cənub bölgəsinin aqrobiznes sistemində əsas məhsul növlərinin maya dəyərinə əsaslanan qiymət modeli götürülür, daha çətin şəraitə malik olan bölgələrdə isə dotasiyalar nəzərdə tutulur.

Dotasiya qiymətləri dedikdə elə təminatlı qiymətlər kimi, ancaq ixrac edilən kənd təsərrüfatı məhsullarına tətbiq edilməsi başa düşülür. İxrac olunan məhsulların maya dəyəri dotasiya qiymətlərindən yuxarı olduqda isə kənd təsərrüfatı müəssisələri qarşıladıqları ziyanın təzminatını almırlar. Üstəlik kənd təsərrüfatı təyinatlı ixracat məhsulları normalarını aşarsa, ixracat artığı dotasiya qiymətlərilə ödəniş olunmur. Aqrobiznes sistemində real dövlət normalarından yuxarı istehsal edilən kənd təsərrüfatı məhsulları üçün ölkənin müvafiq bölgəsinin bazarındakı cari vəziyyətə əsasən dəyişən və adətən təminatlı qiymətlərdən ucuz olan əlavə qiymətlər nəzərdə tutulur. Aqrobiznes sistemində qiymətlərin müəyyən həddə saxlanması dövlət büdcəsi və vergi ödəyənlər üzərində ağır yük olsa da, bu qiymət stabilliyi ölkənin ərzaq təhlükəsizliyini, aqrobiznes sistemində istehsal potensialını təmin edir. Məsələn, İsveçrədə ərzağın qiymətləri dünya qiymətlərindən yuxarı olsa da, əhali qiymət ucuzlaşmasının kənd təsərrüfatı, nəticədə bir sözlə iqtisadiyyat üçün mənfi nəticələrini dərk etdiyinə görə bu halı qəbul edirlər. Praktikadan aydın olur ki, hazırkı şəraitdə elm və istehsalat baxımdan qabaqcıl təcrübəyə malik ölkələrdə aqrobiznes sistemi dövlət büdcəsi üçün müəyyən ziyan hesabına olsa belə dövlət köməyi göstərilir [15, 16, 26, 28, 38].

Aİ-na üzv olan ölkələrdə aqrobiznes sisteminin dövlət tərəfindən dəstəklənməsinin əsas kriteriyalarından biri məhsullara kənd təsərrüfatı müəssisələrinin təyin etdikləri qiymətlərə büdcə dəstəyinin səviyyəsidir. Bu məlumat müxtəlif məhsulların istehsal-satışına, həmçinin ixracına büdcədən hər cür qiymət və qiymətdənkənar dotasiyaların həmin məhsulların kənd təsərrüfatı müəssisələrinin qiymətinə nisbətini göstərir [31].

Aqrobiznes sistemində məhsul istehsalının və satışının həcmini dotasiyalar vasitəsilə dəstəkləyən dövlət bu məqsədlə bir tərəfdən qiymət vasitəsilə kənd təsərrüfatı müəssisələrinin gəlirlərinə, digər tərəfdən də güzəştli vergi və kreditlər vasitəsilə onların məxaricinə təsir göstərir. Adətən büdcə dotasiyaları ancaq dövlət proqramlarında iştirak edən kənd təsərrüfatı müəssisələrinə ayrılır.

Bir sözlə, aqrobiznes sistemində kənd təsərrüfatı məhsullarının böyük hissəsinin (86-96 faizi) bazar qiymətləri Aİ strukturları tərəfindən daim müşahidə edildiyi üzv ölkələrində bazarın «sağlamlaşması»na tələblə təklif arasında müvazinət yaratmaqla, yaxud da bazar qiymətlərini müəyyən səviyyədə saxlayaraq dəstəkləməklə nail olunur [13]. Xarici ölkələrin aqrobiznes sistemində mövcud olan biznes qurumlarında qiymətqoymanın ümumi təməli kənd təsərrüfatı məhsullarına satınalma qiymətlərinin istehsalı və satışına ictimai zəruri məsrəflərin uzlaşdırılmasıdır. Belə şəraitdə dünya qiymətlərinin də səviyyəsi və dinamikası imkan daxilində nəzərə alınır. Qiymətin əsas vəzifəsi olaraq aqrobiznesin sonrakı inkişafı məqsədilə sahibkarların gəlirlərini tənzimləməkdir. Qiymətqoyma sistemi istehsalat vasitələri qiymətlərinin, aqrobiznesdə gəlir və xərclərin, məhsulların qiymətlərinin cari müşahidəsini nəzərdə tutur.

Müasir şəraitdə az qala bütün Aİ-na üzv olan ölkələrdə ərzağın qiymətlərində müşahidə edilən artım əksər hallarda əhalinin gəlir səviyyəsinin daha sürətlə yüksəlməsilə ödəniş olunur. Belə ki, ərzaq məhsullarına istehlakçı tələbatı yalnız əhalinin gəlir səviyyəsilə deyil, həm də ərzaq məhsulları və xidmətlərinin qiymətinə əsasən şərtlənir. Burada kənd təsərrüfatı müəssisələrinin qiymətlərinin büdcədən dəstəyin rolu daha da artır. Qiymətlərin dövlət tənzimlənməsi məqsədilə hüquqi baza yaradılıb, qiymətlərin səviyyəsi və dəyişməsi barədə müntəzəm olaraq statistik göstəricilər dərc edilir. Bu göstəricilər adətən gəlirlərin tənzimlənməsində və indeksləşməsində istifadə edilir. Aİ-na üzv olan ölkələrdə subsidiyalar kənd təsərrüfatı müəssisələrinin istehsal etdiyi məhsulun dəyərinin 45-50 faizini, Finlandiya və Yaponiyada isə 70 faizini təşkil edir [35].

Son dövrlərdə Aİ-na üzv olan ölkələrdə aqrobiznes sisteminə edilən büdcə dəstəyi dəyişir. Belə ki, məsələn, 1986-1988-ci illərdə aqrobiznes sistemində kənd təsərrüfatı məhsullarının bazar qiymətlərini stabil saxlamaq üçün birbaşa ödəmələrin 82 faizi sərf edilirdisə, 2017-ci ildə bu göstərici 67 faizədək endi, istehsalçı qiymətlərinin maksimum qiymətlərini üstələməsi isə 56%-dən 31%-dək azalıb. Aqrobiznes sisteminə edilən büdcə dəstəyində kəndə dövlət maliyyələşməsinin xüsusi çəkisi 13%-dən (1986-1988-ci illərdə) 18%-dək (2011-2017-ci illərdə) artmışdır [35]. Qeyd edək ki, həmin kömək növü təkcə istehsalçı üçün yox, həm də istehlakçı üçün əlverişlidir. Belə durumda kadr hazırlığı və ixtisas artırılması, göstərici və məsləhət xidmətləri, elmi təhqiqatlar da maliyyələşdirilir. Bir sözlə, 2017-ci ildə Aİ-na üzv olan ölkələrdə aqrobiznes sisteminin dövlət dəstəyinin payına kənd təsərrüfatı ÜDM-sinin 65 faizi düşmüşdür [27].

Dünya təcrübəsində ərzaq məhsullarına qiymətqoymanın önəmli konsepsiyalarından biri məhsul istehsal edərək gəlir əldə etmək məqsədilə satmaq kimi ənənəvi prinsipdən istehlakçının ehtiyaclarını müəyyənləşdirib ödəməyə yönələn marketinq prinsipinə keçməyi nəzərdə tutur. Əslində qiymətqoymanın marketinq prinsipinə əsasən məhsulun pərakəndə qiymətində ara halqaların xüsusi çəkisi azalmalıdır. Bu baxımdan kənd təsərrüfatı istehsalında dövlət və kooperativ idarəetməsini uğurla uzlaşdıran Kanada praktikasının daha maraqlı olduğu fikrindəyik. Burada əsas məqsəd istehsal edilən məhsulu satıb kənd təsərrüfatı müəssisələrinin maksimum gəlir əldə etmələrindən ibarətdir. Ölkənin bütün bölgələrində mövcud olan marketinq birlikləri müəyyən bir məhsula ixtisaslaşmış sahibkarlar tərəfindən yaradılaraq ictimai əsaslarla fəaliyyət göstərir və məhsul satışını genişləndirmək məqsədilə istehlakçı tələbatını hərtərəfli araşdırırlar. Həmin strukturlar qanunla da təsbit edilmiş geniş səlahiyyətlərə malikdirlər. Məsələn, Manitoba Əyalət Kartof Məclisi vahid qiymət tətbiq edir, bu qiymətə əməl etməyən satıcılar isə qiymətin 2-3 misli qədər məbləğdə cərimə olunurlar [25].

Kanadada oxşar strukturlar dövlət səviyyəsində də var və bölgə strukturlarının müvafiq sahələri, habelə Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi ilə birgə aqrar sənaye istehsalını dəstəkləməyin iqtisadi normativlərini hazırlayır. Nazirlik özünü maliyyələşdirən ticarət agentliklərinin köməkliyilə marketinq məclislərilə əlaqələrini formalaşdırır. Belə ki, məsələn, quşçuluq məhsullarına aid yumurta, quş əti, broyler yumurtası satışı üzrə agentliklər təşkil olunub. Bu cür agentliklər ölkənin bölgələrinə əsasən məhsul satışı normalarını müəyyənləşdirir, bazara nəzarəti həyata keçirir, marketinq və reklam tədbirlərini görürlər. Həmin sahədə dövlət idarəetmə strukturları isə Kanada Südçülük Sənayesi Komissiyası və Kanada Taxıl Komitəsidir. Daha çox xarici bazarda taxıl ticarətilə məşğul olan Komitənin büdcəsi satışlardan komissiya rüsumları hesabına formalaşır, lakin bu rüsumlar 3%-dən çox olmamalıdır [25]. Kənd təsərrüfatı müəssisələri üçün isə taxıl istehsalında 100%-lik mənfəət təmin edilir.

2. Aqrobiznes sisteminə dövlət dəstəyi üçün kənd təsərrüfatına dair sığorta proqramları

Aqrobiznes sisteminin dövlət tənzimlənməsi sferasında xarici ölkələrin praktikası baxımından fikrimizcə, ABŞ-də tətbiq edilən dövlət proqramlarının öyrənilməsi və cəmləşdirilməsi böyük əhəmiyyətə malikdir [2, 6, 14, 22, 34, 37]. Belə ki, ABŞ Kənd Təsərrüfatı Nazirliyinin göstəricisinə əsasən, 2021-ci ildə ölkənin fərqli mülkiyyət mənsubiyyətlərinə malik aqrobiznes qurumlarının 1/3-ə qədəri fərqli formalarda dövlət ödəmələri almışlar.

1949-cu ildə «Kənd Təsərrüfatı haqqında» ABŞ-nin Qanunu qəbul olunmuş və bu qanuna əsasən onun davamı kimi 2002-ci ildə qəbul edilmiş «Kənd təsərrüfatının və kənd ərazilərinin inkişafına investisiyaların qorunması haqqında» (Farm Bill 2002) Qanunla edilmiş dəyişikliklər sığorta edilmə, qiymətlərə dövlət köməyinin göstərilməsi tədbirlərini, eyni zamanda ətraf mühitin və torpaqların məhsuldarlığının qorunmasına dair fərqli proqram və tədbirlər çərçivəsində güzəştli istiqraz və ödəmələri ehtiva edir.

3. ABŞ-nin aqrobiznes sistemində kənd təsərrüfatına dair sığorta proqramları.

ABŞ sığorta sahibkarlığı əhatə dairəsinə əsasən dünyada öncül sıradadır. Bu ölkənin sığorta qurumları qabaqcıl təcrübəyə malik sənaye ölkələri bazarının yarısınadək payına nəzarət edir. Belə ki, ABŞ-də sığorta fəaliyyəti antiinhisar qanunları ilə dəstəklənməyən nadir biznes sferasıdır.

1930-cu ildə ABŞ Konqresi Böyük Tənəzzüldən sonra aqrobiznes sistemini inkişaf etdirməyə yönəlmiş Dövlət Məhsulu Sığortalama Proqramının maliyyələşməsi haqqında qərar qəbul etmişdir. 1938-ci ildə formalaşmış ABŞ Kənd Təsərrüfatı Departamenti yanında Dövlət Məhsulu Sığortalama Korporasiyası (FCIC) isə hazırda da faydalı fəaliyyət göstərərək artıq Risqləri İdarəetmə Agentliyi tərəfindən idarə edilir.

1980-ci ildə Dövlət Məhsulu Sığortalama Aktı qəbul edilməklə özəl sığorta qurumlarını cəlb etmək məqsədilə subsidiya tətbiq edilməyə başladı və sığorta örtüyünü artırmaq şəraiti formalaşdı. Müasir şəraitdə 27 mindən yuxarı sığorta agentinin çalışdığı 14 özəl sığorta qurumu sığorta müqavilələri bağlamaqla məşğuldur.

Səlahiyyətli sığorta qurumları sığorta məhsullarını inkişaf etdirərək yenilərini təqdim edə bilər. Ancaq proqramda iştirak edəcək məhsullar Risqləri İdarəetmə Agentliyi (RİA) tərəfindən təsdiq olunmalıdır. Eyni zamanda proqramın iştirakçısı qurumları illik fəaliyyət planlarını da Risqləri İdarəetmə Agentliyinin təsdiqinə təqdim etməlidirlər. Bu planda qurumun götürdüyü öhdəliklər üzrə mümkün ziyanları ödəyə bilib-bilməməsi, həmçinin qəbul olunmuş risqlərin müəyyən növlərinə dair sonradan Risqləri İdarəetmə Agentliyinin köməkliyilə təkrar sığorta edilmək üçün təsnifatı barədə göstəricilər əks edilir.

Bundan başqa sığorta qurumları qarşıladıqları inzibati xərclərini, habelə ziyanı tənzimləmə xərclərini ödəyəcək subsidiyaları Risqləri İdarəetmə Agentliyi vasitəsilə alır. Təkrar sığorta edilmə də Risqləri İdarəetmə Agentliyinin köməkliyilə, risqin və sığorta mükafatının bir hissəsi müvafiq təkrar sığorta fondlarına köçürülməklə reallaşdırılır. Subsidiyaların məbləği və təkrar sığorta edilmənin şərtləri proqramda iştirak edən bütün sığorta qurumlarının imzaladığı standart təkrar sığorta sazişində əks olunur.

Sığorta proqramının daha faydalı və fərqli olması kənd təsərrüfatı müəssisələrini bu proqramlara cəlb edir. Belə ki, ABŞ-də 1997-ci ildə kənd təsərrüfatı müəssisələri 73,8 mln. ha əkin sahələrini, 2019-cu ildə isə 88,3 mln. ha, yəni bütün əkin sahələrinin 62 faizini sığorta etmişdirlər [14, 24].

«Məhsulun dəfələrlə sığortası» proqramı (MPCİ) aqrobiznes sistemində bitkiçilik məhsulunun sığorta edilməsilə əlaqədar ən qədim proqramlardan biri olaraq quraqlıq, yüksək rütubət, subasma, dolu, fırtına kimi əksər təbii fəlakətlərdən sığorta edilməni nəzərdə tutur və 70-dən yuxarı kənd təsərrüfatı bitki növlərini əhatə edir. Həmin proqrama əsasən sığorta hadisəsi əvvəlki bir neçə il dövründə orta (gözlənilən) məhsuldan az məhsul götürüldükdə baş verir. Minimum sığorta məbləği tamamilə dövlət büdcəsindən ödəniş olunur və gözlənilən məhsulun yarıdan az həcmdə məhsul götürüldükdə qarşılanan ziyana Risqləri İdarəetmə Agentliyinin tətbiq etdiyi qiymətin 55 faizi səviyyəsində kompensasiya ödənişi olunur. Proqramda iştirak etmək istəyən kənd təsərrüfatı müəssisələri sığorta etdikləri hər bitki növünə əsasən ancaq 100 $ məbləğində inzibati haqq ödəyirlər. Həmin sığorta növü «fəlakətli risqlərin sığortası» (CCI) adlanır.

Sığorta edilmiş risqlərin minimum risqə nisbətən genişləndirilməsi könüllü sığorta edilmə hesab olunur. Kənd təsərrüfatı müəssisələri risqlərin sığorta edilmə səviyyəsini seçə bilirlər. Belə ki, onlar məhsulun sığorta örtüyünü (50-85%), qiymətini (bazar qiymətinin 55-100 faizi) seçmək imkanına sahibdirlər. Həmin sığorta növünə Buy-up Coverage (BUP) deyilir.

«Məhsulun dəfələrlə sığorta edilməsi» proqramı (MPCİ) proqramı sahibkarlara ancaq əlverişsiz iqlim şərtləri səbəbindən məhsulun müəyyən səviyyəyə çatmaması ilə bağlı istehsalat risqinə qarşı mühafizə olunmaq imkanı qazandırır. Bununla yanaşı, sahibkarlar üçün nəinki bitkiçilik məhsulunun azalmasından, həm də istehsal etdikləri məhsulu bazar qiymətlərinin ucuzlaşmasından da qoruyacaq sığorta proqramlarının tətbiqi böyük rola malikdir. Bununla əlaqədar ABŞ-də gəlirlərin sığorta olunması proqramı olan Crop Revenue Coverage (CRC) hazırlanmışdır və uğurla tətbiq edilir. Həmin proqram sahibkarlara öz gəlirlərini məhsulun azalmasından, habelə istehsal etdikləri kənd təsərrüfatı məhsullarının bazarda ucuzlaşmasından qorumağa şərait yaradır. Hərçənd həmin proqramla aqrobiznes sistemində bitki növlərinin heç də hamısı sığorta oluna bilməz. Üstəlik hər ştata görə CRC ilə sığorta olunacaq aqrobiznes sistemində bitki növlərinin ayrıca siyahısı tərtib edilib. Həmin proqramda iştirak etmək məqsədilə kənd təsərrüfatı müəssisələri hər sığorta olunacaq bitkiyə əsasən 30 $ məbləğində inzibati haqq ödəyirlər.

Proqrama əsasən sığorta hadisəsi məhsul biçinindən sonra əldə edilən gəlir (faktiki məhsuldarlıq × biçin aparılarkən bazar satış qiyməti) minimum zəmanət məbləğindən az olduğu halda baş verir və sığorta qurumu bu fərqi ödəyir. Onu da qeyd etmək lazımdır ki, bu proqram da dövlətin yaxından maliyyə iştirakı ilə reallaşdırılır. Belə ki, cədvəl 1-in məlumatlarından göründüyü kimi, 2019-cu ildə ABŞ-də kənd təsərrüfatı müəssisələrinin sığorta haqlarının yarıdan çoxuna dövlət subsidiya ayırmışdır.

**Cədvəl**

**ABŞ-də sığorta proqramları üzrə sığorta haqlarının və ödəmələrinin ölçüləri [14, 24]**

| Sığorta proqramları | Sığorta olunmuş sahələr | | Sığorta haqları, ABŞ dolları | | Cəmi sığorta ödəmələri, ABŞ dolları | |
|---|---|---|---|---|---|---|
| | hektar | % | ümumi | O cümlədən dövlət tərəfindən subsidiyalaşdırılan | ümumi | % |
| **MPCI** | 89429804 | 41,1 | 1110551792 | 718763038 | 990931249 | 31,03 |
| **CRC** | 53073006 | 24,4 | 1023127299 | 586374453 | 1085692291 | 34 |
| **Ümumi proqramlar üzrə** | 217438938 | 100 | 3429971939 | 2041231913 | 3193340126 | 100 |

Beləliklə, ABŞ-də son zamanda sığorta biznesi sürətlə inkişaf edərək önəmli bir sferaya çevrilib. Bu ölkədə sığorta sahibkarlığının elmi əsaslarla, səmərəli təşkili müəyyən səviyyədə aqrobiznes sistemindəki fərqli mülkiyyət mənsubiyyətlərinə malik biznes qurumlarının da davamlı inkişafına töhfə vermişdir. Xarici praktikanı nəzərə alıb yerli mühitə uyğunlaşdırmaqla sığorta biznesinin inkişaf etdirilməsi və dövlət köməyi göstərilərək tənzimlənməsi ölkəmizdə də aqrobiznes sistemində formalaşmış müəyyən maneələrdən çıxarmağın faydalı vasitəsi olmalıdır.

3. Aqrobiznes sistemində sahibkarlara qiymət və gəlir dəstəyinə dair dövlət proqramları

ABŞ-də geniş vüsət tapmış dövlət proqramlarının daha bir qrupu aqrobiznes sistemində sahibkarlara qiymət və gəlir dəstəyi haqqında federal proqramlardır. Belə ki, aqrobiznes sistemində qiymətləri tənzimləyən dövlət proqramlarının əhatəli sistemi mövcuddur. K.C.Binita, J.M.Shepherd, Anthony V.King və başqaları hesab edirlər ki, iqlim riski dedikdə iqlim təhlükələri, təhlükələrə məruz qalma və zəifliyin nəticəsidir (IPCC 2014). Burada biz çoxlu təhlükələri, məruz qalmaları və zəiflikləri birləşdirən yeni iqlim riski indeksilə bütün bitişik ABŞ üçün gələcək (2040-2049) iqlim riskini bölgə səviyyəsində qiymətləndirmişlər [30]. Deyilənlər sahibkarlara birbaşa ödəmələr proqramı (DP), əks dövri ödəmələr proqramı (CCP), bazara yardım səhmləri (MAL), əskik gəlmə ödəmələrinin səhmləri (LDPs) proqramlarıdır. Hər bir proqrama aşağıda ayrıca ətraflı şəkildə nəzərdən keçirək.

Birbaşa ödəmələr proqramı (DP) buğda, qarğıdalı, arpa, çəltik, yulaf, pambıq, soya, yerfındığı, günəbaxan kimi yağlı bitkiləri ənənəvi istehsal edən sahibkarlara ünvanlanır. Dövlətin birbaşa ödəmələrinin məbləği müəyyən bir mexanizm vasitəsilə təyin edilir. Belə ki, keçmişdə sadalanan bitki növləri becərilən torpaq sahələri nömrələnərək (Farm Number) bu təsərrüfatda bitkilərin təməl sahəsi və məhsuldarlığı müəyyən edilir. Əkin sahələrini genişləndirməyi stimullaşdırmamaq məqsədilə təməl sahə əvvəlki, adətən 5-7 ilin göstəricilərinə görə, təməl məhsuldarlıq isə məsələn, 1991-1995-ci, yaxud 1998-2002-ci illərin orta məhsul həcminə əsasən təyin edilir. 2002-ci ildə ABŞ-də qəbul edilmiş Yeni Aqrar Qanunu (New US Farm Bull, 2002) ilə hər bitkiyə əsasən ödəmələrin məbləği müəyyən olunur. Məsələn, buğdaya əsasən ödəmələr 0,52 $/buşel (yaxud 1 sentnerə görə 1,91 $), arpaya əsasən 0,24 $/buşel (yaxud 1 sentnerə görə 0,59 $), soyaya əsasən 0,44-dür (yaxud 1 sentnerə görə 0,59 $). Sahibkarılara birbaşa ödəmələr (DP) aşağıdakı şəkildə ödəniş olunur:

DP = tarif × baza məhsuldarlığı × baza sahəsi × 85%.

Qeyd etmək lazımdır ki, bu ödəmələr təsərrüfatlarda bu bitkilərin hazırda becərilib-becərilirməməsinə baxmayaraq verilir. Vahid kənd təsərrüfatı müəssisəsindən son 3 il müddətində

məcmuu gəlir 2,5 mln. $-dan yuxarı olmayıbsa, 40 min $-lıq hədd müəyyən olunur. Ödəmələrin məcmu illik məbləği isə 5,4 mlrd. dolları dəkdir.

Əks dövri ödəmələr proqramı (CCP) çərçivəsində dövlət sahibkarlara məhsulların dəyərsizləşdiyi şəraitdə birbaşa ödəmələr edir. Bu proqrama DP proqramının da əhatə etdiyi bitkilər daxil olmuşdur. Əks dövri ödəmələr proqramı (CCP) aşağıdakı kimi ödəniş olunur:
CCP = təminatlı qiymət – birbaşa ödəmələrin tarifləri – (ikisindən daha çox: illik orta bazar qiyməti yaxud girov tarifləri).

ABŞ-nin 2002-ci ildə qəbul edilmiş Yeni Aqrar Qanununda 2004-2007-ci illər üçün təminatlı qiymətlər və girov tarifləri müəyyən olunmuşdur. DP proqramından bu proqramın fərqi odur ki, sahibkarlara pul kompensasiyası ancaq bazar qiymətləri müəyyən həddən aşağı enəndə ödəniş olunur. Belə şəraitdə elə DP proqramındakı kimi ödəmələr müvafiq bitkilərin real istehsalına baxmayaraq verilir. Bundan əlavə, CCP proqramına əsasən bir kənd təsərrüfatı müəssisəsi üçün son 3 il müddətində məcmuu gəlir 2,5 mln. $-dan yuxarı olmayıbsa, 65 min $-lıq hədd müəyyən olunur. Ödəmələrin məcmuu illik həcmi isə 5,7 mlrd. $-dan ibarət olur.

Bazara yardım səhmləri (MAL) proqramının mexanizminə diqqət edək. ABŞ-ın 2002-ci ildə qəbul edilmiş Yeni Aqrar Qanununda bir sıra kənd təsərrüfatı bitkiləri üçün stabil girov tarifləri təsbit edilir. Bu tariflərə görə istehsalatın spesifik xüsusiyyətlərinə əsasən hər dairədə yerli stabil girov tarifləri tətbiq edilir. Məhsul biçinindən sonra istehsal edilən məhsulların qiyməti girov tariflərindən aşağıdırsa, kənd təsərrüfatı müəssisələri məhsullarını dövlətə girov qoyaraq yerli tariflərə uyğun olaraq pul ala bilərlər. Bundan sonra sahibkarın öz məhsulu üçün sərfəli satış bazarı tapmaq məqsədilə 9 ay vaxtı var. Bazar qiymətləri yüksələrsə, kənd təsərrüfatı müəssisəsi öz məhsulunu daha baha qiymətə sata və götürdüyü pul vəsaitini faiz stavkası ilə birgə Əmtəə Kredit Korporasiyasına (ƏKK-na) geri qaytara bilər. Daha sərfəli bazar tapa bilməsə, kənd təsərrüfatı müəssisəsi 9 aylıq müddət başa çatdıqdan sonra aşağıdakı variantlardan birini seçə bilər:

1. Girova qoyulmuş məhsulun ƏKK-nın mülkiyyətinə keçməsinə icazə verir. Adətən ƏKK mülkiyyətinə keçən məhsulu 2-3 aydan sonra aparır. Belə şəraitdə kənd təsərrüfatı müəssisəsi bu məhsulun saxlanması məqsədilə müəyyən məsrəf çəkə bilər.

2. Kənd təsərrüfatı müəssisəsi öz məhsulunu öz dairəsindəki cari bazar qiymətinə sataraq qazancı ƏKK-na təhvil verir.

Nəhayət, geniş rəğbətə malik olan əskik gəlmə ödəmələrinin səhmləri (LDPs) proqramının mahiyyəti dövlət tərəfindən girov dərəcəsilə (borc faizi ilə birgə) bazar qiyməti arasındakı fərq məbləğində kənd təsərrüfatı müəssisələrinə kompensasiya ödənişinin olunmasıdır. Bu kompensasiyanı əldə etmək məqsədilə də kənd təsərrüfatı müəssisəsinin öz məhsulunu satması vacib deyil, sadəcə lazımi kəmiyyət və keyfiyyətdə məhsulun olması kafidir. Kompensasiyanı proqramın qüvvədə olduğu təqvim müddəti dövründə almaq olar. Bu təqvim dövrü müxtəlif bitki növləri üzrə fərqlidir: buğda üzrə biçin başlayandan növbəti ilin 31 martınadək, günəbaxan üzrə isə 31 mayınadək. Proqram iştirakçısı kənd təsərrüfatı müəssisəsi qeyd olunan müddət dövründə kompensasiya almaq barədə qərar verə bilər. Kompensasiyanı alan kənd təsərrüfatı müəssisəsi istədiyi vaxt məhsulunu özünə sərf edən bazar qiymətinə sata bilər. Bu proqrama əsasən bir kənd təsərrüfatı müəssisəsi üçün son 3 il dövründə məcmuu gəlir 2,5 mln. $-dan yuxarı olmayıbsa, 75 min $-lıq hədd müəyyənləşdirilir. Ödəmələrin məcmuu illik həcmi 6 mlrd. $-a yaxındır.

1986-cı ildən ekoloji təhlükəsizliyi artırmaq, torpaqların münbitliyini və sair təbii resursları mühafizə məqsədilə ABŞ-də torpaqların mühafizəsi proqramı (CRP) müvəffəqiyyətlə icra edilir. Həmin proqramda iştirak etmək məqsədilə kənd təsərrüfatı torpaqlarının sahibləri uzunmüddətli, orta hesabla 10 illik müqavilə bağlayırlar. Bu müddət dövründə iştirakçı öz sferasında məhsul becərmək haqqını itirir və bunun müqabilində dövlətdən maliyyə yardımı alır. Bu yardımın ölkə üzrə orta məbləği bir hektara əsasən 120 $-a yaxın olmaqla bölgələrə əsasən xeyli dəyişir. Məsələn, Kanzas ştatında bu göstərici 94 $-dan ibarətdirsə, Marylandda 295 $ təşkil etmişdir. Sözügedən proqram çərçivəsində ABŞ-də aqrobiznes sisteminin istifadəsindən çıxarılan torpaqlar 34 mln. akrdan yuxarı, ödəmələrin məcmuu həcmi isə 1,8 mlrd. $ olmuşdur.

4. Dövlətin kənd təsərrüfatı sahibkarlarına kömək siyasətinin əsas istiqamətləri.

Yuxarıda göstərilən dövlət proqramlarından başqa əksəriyyəti qısa dövrü əhatə edən bir sıra daha kiçik proqramlar mövcuddur. Həmin proqramlar aqrobiznes sistemində bitki növlərinin məhsuldarlığı, bazardakı cari vəziyyət, təbii fəlakətlər və sair ilə bağlı dövlət tərəfindən 1-2 illik müddətə tətbiq edilir. Bu baxımdan ABŞ-də şəkər çuğunduru istehsal edən sahibkarların fəaliyyətinin tənzimlənməsi sferasında praktikasının araşdırılması böyük maraq kəsb edir.

ABŞ-də şəkər çuğunduru istehsal edən sahibkarlara dövlət köməyi göstərilməsi uzun tarixə malik şəkər sənayesinin dəstəklənməsi və dövlət köməyi göstərilməsi proqramlarına birləşdirilmişdir. 1934, 1937, 1948-ci il qanunlarına uyğun olaraq Kənd Təsərrüfatı Nazirliyi daxili bazarda şəkərin mühüm istehlak həcmini müəyyən edərək daxili və xarici istehsalçıları arasında bölüşdürməyi, habelə müvafiq normalar təyin etməli idi. Bu qanunlara uyğun olaraq istehsalatın yüksəlməsini əngəlləmək məqsədilə sahibkarlara ödəmələr verilir, ölkə ərazisində istehsal və emal olunan şəkərə vergi aksizləri tətbiq edilirdi. 1974-cü ildə həmin proqramların müddəti bitdi və növbəti 7 il müddətində ABŞ bazarı 1977-1978-ci illərdə ödəniş olunan icbari təminatlı qiymətlərə şəkər idxalı məqsədilə açılmışdı. 1981-ci il Ərzaq və Kənd Təsərrüfatı Aktı, habelə 1985-ci il Ərzaq Təhlükəsizliyi Aktı ilə Konqres şəkərə icbari təminat qiymətlərini bərpa etdi. Sonradan 1990-cı ildəki qanun aktı, 1993-cü ildəki büdcə razılaşdırılmasına dair qanun layihəsi, 1996-cı və 2002-ci ildəki qanunları ilə bəhs olunan proqramların müddəti 2007-ci ilədək artırıldı.

2002-ci ildə qəbul edilmiş qanunda şəkər proqramının «no cost» (bütün hallarda dövlət ziyanla qarşılaşmamalıdır) prinsipi əsasında tətbiq edilməsi nəzərdə tutulur. Dövlətin şəkər istehsal edən sahibkarlarına kömək siyasəti 3 əsas istiqamətdə həyata keçirilir: təminatlı qiymətlərə istiqrazlar; bazarın bölüşdürülməsi; idxal tarifləri normaları.

ABŞ-nin real strategiyası daxili bazarda əksər qiymətləri xarici qiymətlərdən artıq həddə saxlamaqla yerli sahibkarları mühafizə etməyə yönəlir.

Təminatlı qiymətlərə istiqrazlar. İstiqraz proqramının şərtlərinə əməl edən şəkər istehsal edən sahibkarlar aldıqları məhsulları girov qoyaraq müvafiq dairədəki girov tariflərinə uyğun olaraq dövlətdən ƏKK vasitəsilə borc götürə bilərlər. Həmin borclar ƏKK məqsədilə şəkərin daxili qiymətlərini yüksək səviyyədə saxlamağın əsas vasitəsidir. Girov tarifləri malların hər vahidinə (pound) təyin edilir. Bu tariflərin müxtəlif dairələrə əsasən təsnif edilməsi fərqli bölgələrin yerli xüsusiyyətlərini nəzərə almağa şərait yaradır.

Növbəti 9 ay müddətində sahibkar məhsulu üçün daha münasib bazar axtarıb tapa bilər. Bazardakı qiymətlər artdığı halda şəkər istehsal edən sahibkarlar öz məhsulunu daha baha qiymətə satıb əvvəl götürdüyü pul vəsaitini faiz stavkası ilə birgə ƏKK-na geri qaytara bilər (girov əməliyyatı üzrə faiz stavkaları ABŞ-nin yenidən maliyyələşmə tariflərindən asılı olaraq ƏKK-nın faiz stavkalarından 1% artıqdır. 2021-ci ildə ƏKK-nın faiz stavkaları 2,25% və girov əməliyyatı üzrə faiz stavkaları isə 3,25% təşkil etmişdir). Daha sərfəli bazar tapa bilməyən sahibkar isə 9 aydan sonra girov qoyduğu məhsulun ƏKK mülkiyyətinə keçməsinə razılığını verir. Adətən ƏKK mülkiyyətinə keçən məhsulu 2-3 aydan sonra aparır. Belə olduqda kənd təsərrüfatı müəssisəsi bu məhsulun saxlanması məqsədilə xeyli xərc çəkə bilər.

Emal biznes qurumları borc götürməzdən qabaq Kənd Təsərrüfatı Nazirliyinin təyin etdiyi və şəkər qamışı ilə şəkər çuğunduruna girov dərəcələrindən asılı olan minimum kömək qiymətini sahibkarlara ödəniş olunmasına icazə verməlidirlər. Adətən borcların 60 faizi, yaxud satışdan əldə edilən gəlirin 40 faizi sahibkarlara çatır, dəqiq məbləğ isə müqaviləyə əsasən məhsulun keyfiyyətindən asılıdır.

Emal biznes qurumu borclar sistemindən istifadə etmirsə, ona məhsul tədarük edən sahibkarlar borclar sistemi vasitəsilə qiymət dəstəyindən məhrum olurlar. Borc götürən borcu qeyd olunan dövrdə ödəyib girov qoyduğu məhsulu qaytaracağını, yoxsa ödəmənin reallaşacağını özü qərarlaşdırır. Ödəmə verilmirsə, girov əlavə cərimə ödəniş olunmadan tam şəkildə ƏKK-nın səlahiyyətinə keçir. ƏKK sistemi vasitəsilə əldə olunan borclar dövriyyə haqqı olmayan borclardır, çünki emal müəssisələri borcla əlaqədar öhdəliklər yerinə yetirilməyincə girov qoyulmuş kənd təsərrüfatı məhsullarına sahiblik edə bilməzlər.

Daxili bazarda şəkər qiymətləri qanunla təyin edilmiş girov dərəcəsindən aşağıdırsa, ƏKK girov məhsulunu tarifləri nəzərə almaqla, borcun qaytarılması kimi qəbul etməlidir. Həmin mexanizm şəkər istehsal edən sahibkarları məhsullarını satarkən ziyandan qoruyur. ƏKK-nın səlahiyyətinə keçən şəkər bazarda qiymətləri yüksək saxlamaq üçün həmin anda satışa təqdim olunmur. Bazar qiyməti müsadirə məbləğindən (girov tariflərinin cəmi və müəyyən nəqliyyat xərcləri) yuxarıdırsa, sahibkarlar bazara qayıdırlar. Bu vasitəylə dövlət daxili bazardakı qiymətlərin minimum səviyyəsini bərqərar etməyə cəhd göstərir. Bir müddətdən sonra isə istehsal, yaxud idxalın yüksəlişinin baş vermədiyi halda, bazar qiymətləri özü stabilləşdirir. Hərçənd bu proqram ancaq girova qoyulmuş şəkərə görə minimum qiymətləri təmin edir. Daha bir məqam ondan ibarətdir ki, girova qoyulmuş şəkər emalı qurumlarının anbarlarında saxlanmalıdır. Hərçənd bu anbarların tutumunun məhdudluğundan qurumlar sözügedən proqrama iri həcmdə şəkər cəlb edə bilmirlər.

Digər əmtəə proqramlarından fərqli şəkildə bu borclar sistemi sahibkarlara yox, emal müəssisələrinə ünvanlanır. Belə ki, şəkər çuğundurunun və şəkər qamışının saxlanma dövrü şəkərin saxlanma dövründən xeyli az olduğundan emal zərurəti kəskin formada qarşıya çıxır.

2002-ci ildə qəbul edilmiş qanunda 2021-ci ilədək dövrdə şəkər xammalına 18 sentner/pound, şəkər çuğundurundan əldə edilən şəkərə isə 22,9 sentner/pound səviyyəsində federal tariflər müəyyənləşdirilib. Bu tariflər 1995-ci ildən etibarən dəyişməz qalıb. Çuğundur şəkərinə olan girov tariflərinin yüksək məbləği rafinad şəkər əldə etmək məqsədilə əlavə emal işlərinin zəruri olduğu şəkər xammalına nisbətən daha az zəhmət tələb etməsilə əlaqədardır.

Şəkər proqramları digər kənd təsərrüfatı məhsullarından olan taxıl, çəltik, yerfındığı, pambıq proqramlarından kəskin fərqlənir. ABŞ Kənd Təsərrüfatı Nazirliyi şəkər qamışı və şəkər çuğunduru istehsal edən sahibkarlarına və emalçılarına hər hansı birbaşa ödənişlər reallaşdırmır. Bu da şəkər proqramı tərəfdarları tərəfindən şəkər sektorunun üstün cəhəti kimi irəli sürülür.

Nəzərə alınmalıdır ki, girov tarifləri başqa proqramlar reallaşdırılmadan daxili şəkər qiymətlərini müəyyən edə bilməz. Kənd Təsərrüfatı Nazirliyinin məqsədi də təmizlənmiş şəkərin qiymətini 25,2 sentner/pound səviyyəsindən aşağı düşməyə imkan yaratmamaqdır. Qiymətlərin əvvəl qeyd olunan həddən azalmasına zəmanət formalaşdırmaq məqsədilə dövlət idxal normaları və bazarın bölüşdürülməsi kimi vasitələrdən də istifadə edir.

Bazarın bölüşdürülməsi. Şəkərin həddindən çox istehsalına imkan verməyən bu proqrama uyğun olaraq Kənd Təsərrüfatı Nazirliyi sahibkarlar üçün planlaşdırılan daxili tələbata uyğun səviyyədə çevik bölüşdürmə sistemi vasitəsilə daxili bazarda satışlara məhdudiyyətlər qoya bilir. Bu proqram şəkər çuğundurunu, yaxud şəkər qamışını istehsal etməyə məhdudiyyət qoymayaraq sadəcə satışa çıxarılacaq şəkərin istehsalına məhdudiyyət qoyur. Emal qurumları başqa proqram çərçivəsində sata biləcəyindən yuxarı istehsal edirlərsə, bu artığın saxlanmasının haqqını özləri ödəyirlər. Bölüşdürmə vasitəsilə Kənd Təsərrüfatı Nazirliyi qiymətlərin xərcləri ödəyərək girov məbləğinin də faiz tarifləri̇lə birgə qaytarılması məqsədilə qənaətbəxş həddə yüksələnədək ölkədə istehsal edilən şəkərin satışını cilovlamaq şəraiti qazanır. Milli sahibkarlar üçün bazardakı bölüşdürmə hər il ayrıca düsturla reallaşdırılır.

Belə ki, 2021-ci maliyyə ilində bölüşdürmə aşağıdakı şəkildə baş vermişdir. Kənd Təsərrüfatı Nazirliyi dövrün axırınadək şəkər ehtiyatı da nəzərə alaraq şəkər ehtiyacının həcmini müəyyən edir. Həmin göstəricidən real şəkər ehtiyatlarının, habelə ÜTT və NAFTA müqavilələrinin şərtlərinə uyğun təyin edilən şəkər idxalının həcmi çıxılır (1,5 mln. metrik t.). Əldə edilmiş qiymət də şəkər çuğundurundan (54,35%) və şəkər qamışından (46,35%) şəkər istehsalçıları arasında bölüşdürülür. İl ərzində fərqli amillərin təsiri əsasında təkrar bölüşdürmə də ola bilər. Bazar bölüşdürməsi və borclar sistemi vasitəsilə milli sahibkarlar tərəfindən şəkərin həddindən çox istehsalının qarşısını almaq, bununla da şəkərin dünya bazarından da baha qiymətə satışına yönələn iqtisadi təsirləri minimuma endirmək mümkün olur.

Həmin proqramlar taxıl, soya, buğda, pambıq kimi bəzi kənd təsərrüfatı bitki növlərinin istehsalına dövlət köməyi göstərən proqramlarla kəskin ziddiyyət yaradır. Belə ki, göstərilən həmin məhsullar müvafiq proqramlara uyğun olaraq dünya bazarında daha aşağı qiymətə satılır (maya dəyərindən də ucuz), dövlət köməyi proqramları çərçivəsində isə dövlətin birbaşa ödəmələri sayəsində aşağı qiymətlə maya dəyəri arasındakı fərqi ödəniş olunur.

İdxala tarif kvotaları (TRQ). Tarif normaları tarixən mövcud olmuş şəkər idxalının idarəetmə sistemidir. Həmin iki qatlı sistem hesabına dünyanın 41 ölkəsi adətən tətbiq ediləndən daha az tarif stavkalarilə ABŞ-yə şəkər ixrac edir və bununla da ABŞ-də istehlak edilən şəkərin stabil həcmi təmin edilir. Ölkələrə real həddən yuxarı da şəkər ixrac etməyə razılıq verilir, lakin həmin halda çox yüksək tarif stavkaları tətbiq edilir. Normadan yuxarı idxal məqsədilə tətbiq edilən həmin tariflər o qədər yüksəkdir ki, daxili bazar həddindən artıq şəkər idxalından etibarlı şəkildə qorunmuş olur. Borclar sistemi və bazarın bölüşməsi ABŞ-dəki istehsalı nəzarətdə saxladığından səmərənin dərəcəsi daxili bazara şəkərin ölkədəki qiymətləri girov tariflərindən də aşağı salacaq miqdarda idxalının qarşısını almaqla ölçüləcək.

Tarif normaları ehtiyatların, deməli, qiymətlərin də idarə olunmasının daxili alətlərini sıradan çıxarmaması məqsədilə idxalı məhdudlaşdıran önəmli vasitədir. ÜTT-nın qarşısındakı öhdəliklərinə uyğun olaraq ABŞ-nin daxili bazarına ildə ən azı 1,256 mln. t. şəkər idxal olunmalıdır. Həmçinin NAFTA şərtlərinə əsasən, ABŞ-yə Meksikadan şəkər idxal edilməlidir. Belə ki, sahibkarlara qiymət dəstəyi proqramlarına baxmayaraq, ABŞ daxili ehtiyaclarını öz istehsalı sayəsində heç zaman ödəyə bilməmişdir və şəkər idxalçısı olaraq qalır. Beləliklə, daxili bazarın real qiymət tənzimlənməsi sistemi daha faydalıdır. 1980-ci illərin əvvəlinədək milli sahibkarlar ABŞ-nin daxili ehtihacının 55%-ini təmin edirdilər, sonrakı 25 il müddətində isə həmin göstərici şəkərə zəmanət qiymətlərini təmin edən proqramlar hesabına yüksəlməkdə idi və 2018-ci maliyyə ilində 86%-ə çatdı, idxal da müvafiq olaraq 14% təşkil etdi [33].

Araşdırmalarımıza əsasən, ABŞ-də şəkərin daxili qiymətləri xüsusilə dövlət tərəfindən hərtərəfli dəstəklənməsi tədbirləri sayəsində stabil qalır. Belə ki, ƏKK sistemi külli miqdarda kənd təsərrüfatı məhsulları cəlb etdiyi nəzərə alınsa, bir növ dövlət inhisarı sistemilə müqayisə oluna bilər [8, 10, 19, 20, 21, 23]. Ölkədə istehsal edilmiş şəkərin idxal həcmi qeyd olunan səviyyədən az qiymətləndirildikdə bazarın inzibati yollarla bölüşdürülməsi ilə satıla biləcək miqdarına məhdudiyyət gətirilir. İdxal normaları isə ABŞ bazarına idxal ediləcək şəkərin miqdarını məhdudlaşdırır. Ölkədə şəkər və şəkər çuğunduru istehsal edən sahibkarlara dövlət köməyinin göstərilməsi və qorunma proqramları aqrar bazarındakı təkmil rəqabətə gətirilən sərt buxovlar hesabına bu qədər faydalıdır. ABŞ-nin aqrobiznes sistemində qiymətləri və sahibkarların gəlirlərinə dövlət köməyinin göstərilməsi məqsədilə dövlətin birbaşa ödəmələrinin həcmi daha böyükdür. Belə ki, 1995-2019-cu illər müddətində bəhs olunan məqsədlərə birbaşa dövlət ödəmələrinin illik həcmi 15 mlrd. $-a qədər təşkil etmişdir. Bu zaman ərəfəsində ən yuxarı göstərici 2006-cı ildə göstərilərək 32,2 mlrd. $ olmuşdur [33].

Fikrimizcə, aqrobiznes sistemində fərqli kənd təsərrüfatı bitki növlərinin istehsalına dövlət dəstəyi səviyyəsinin daha bir vacib əlaməti məhsulun dəyərində dövlət dəstəyinin xüsusi çəkisidir. Göstərilən müddət ərəfəsində daha artıq dövlət dəstəyi – 60% çəltik istehsal edən sahibkarlara göstərilib. Ödəmələrin orta məbləği 12,517 $ təşkil edir ki, bu da dövlət proqramlarının iştirakçısı fermalardakı orta məcmuu gəlirin 7,4%-inə, xalis gəlirin isə 26%-inə bərabər tutulur. Ödəmələrin məcmuu həcminin 1/3 hissəsi birbaşa ödəmələrin payına düşmüşdür və kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti məhz belə ödəmələri almışlar.

Beləliklə, qabaqcıl təcrübəyə malik xarici ölkələrdə aqrobiznes sisteminə kömək göstərən çoxşaxəli sistemlər mövcuddur. Əksər ölkələrin aqrar siyasəti dövlətin maksimum səviyyədə qida məhsulları ilə zəmanətlə təmin olunmasına, aqrobiznes sistemindəki iqtisadi vəziyyəti stabil saxlamağa, sahəni sərmayələr baxımdan cazibədar edəcək həddə minimum mənfəətlilik səviyyəsini təmin etməyə, həddindən artıq istehsalın qarşını almağa, daxili bazarı dəstəkləməyə, yerli sahibkarların beynəlxalq əmək bölgüsündə rəqabətqabiliyyətliliyini təmin etməyə və sair istiqamətlənir.

## Nəticə

Təkmil bazar münasibətləri mövcud olan ölkələrin praktikasından aydın olur ki, buradakı iqtisadi artımla ÜDM istehsalında dövlət xərclərinin xüsusi çəkisi də xeyli artmış olur. Belə ki, Avropanın Fransa, Almaniya kimi ən qabaqcıl ölkələrində dövlət büdcəsi vasitəsilə bölüşdürülən ÜDM-in xüsusi çəkisi son 100 il müddətində 10-15% kimi yüksək göstəricilərdən aşağı

düşməmişdir. «Böyük tənəzzül»dən sonra, habelə II dünya müharibəsi dövründə dövlət xərclərinin azalması belə iqtisadiyyatda dövlətin əhəmiyyətinin yüksəlməsi meylini dəyişdirə bilmədi. Bir sözlə, dünyanın qabaqcıl təcrübəyə malik ölkələrində ÜDM istehsalındakı dövlət xərcləri payının son yüz il müddətində 2,5-3,5 dəfə yüksəlməsi bazar iqtisadiyyatının tənzimlənməsində dövlətin əhəmiyyətinin davamlı yüksəlməsi meylinin əyani ifadəsi sayılmalıdır.

Qabaqcıl təcrübəyə malik ölkələrin vəziyyəti araşdırılarkən aydın olmuşdur ki, həmin ölkələrdə, xüsusilə AB ölkələrində kənd təsərrüfatına büdcə dəstəyinin 4 istiqaməti bərqərar olub. Bunlara sahibkarlara birbaşa ödəmələr, kənd yerlərinin inkişafına dövlət köməyi, kənd təsərrüfatına struktur köməkliyinin edilməsi, kənd yerlərinə məcmuu xidmətlərin maliyyələşdirilməsi aiddir. Həmin sferadakı xarici ölkələrin təcrübəsinə nəzər salsaq, ABŞ Kənd Təsərrüfatı Nazirliyinin göstəricilərinə əsasən, ölkənin aqrobiznes sistemində mövcud olan fərqli mülkiyyət mənsubiyyətli biznes qurumlarının 1/3-ü fərqli olaraq dövlət köməyindən bəhrələniblər.

**Müşfiqə Məmmədova, Aygül Səlimova, Rəna Musayeva**

**Müasir iqtisadi şəraitdə xarici ölkələrin aqrobiznes sistemində sahibkarlara dövlət dəstəyi təcrübəsindən**

**Xülasə**

Məqalədə müasir iqtisadi şəraitdə xarici ölkələrin aqrobiznes sistemində sahibkarlara dövlət dəstəyi vəziyyəti araşdırılmış və real problemlərin həlli yolları dəqiqləşdirilmişdir. Məqalənin işlənib hazırlanmasında məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilib. Məqalədə qeyd olunur ki, əksər ölkələrin təcrübəsinə əsasən Azərbaycanın aqrar siyasəti dövlətin maksimum səviyyədə ərzaq məhsulları ilə zəmanətlə təmin olunmasına, ifrat istehsalın qarşısını almağa, daxili bazarı dəstəkləməyə, yerli sahibkarların beynəlxalq əmək bölgüsündə rəqabətqabiliyyətliliyini təmin etməyə və sair yönələ bilər. Məqalədə xarici ölkələrin aqrobiznes sistemində məhsulların qiymət siyasəti dəyərləndirilmiş, dövlət dəstəyi üçün sahibkarlara qiymət və gəlir dəstəyinə dair dövlət proqramlarının vəziyyəti öyrənilmişdir. Nəticədə, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlara dövlətin kömək siyasətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

**Мушфига Мамедова, Айгуль Салимова, Рена Мусаева**

**Из опыта государственной поддержки предпринимателей в системе агробизнеса зарубежных стран в современных экономических условиях**

**Резюме**

В статье рассматривается состояние государственной поддержки предпринимателей в системе АПК зарубежных стран в современных экономических условиях и уточняются пути решения реальных проблем. При написании статьи использовались логическое обобщение, системный подход, методы анализа и синтеза. С учетом опыта большинства стран, аграрная политика Азербайджана направлена на обеспечение максимального уровня продовольственной безопасности, поддержание стабильной экономической ситуации в системе АПК, обеспечение, рентабельности производства что позволит привлечь инвестиции, предотвратить перепроизводство и поддержать внутренний рынок, обеспечить конкурентоспособность местных предпринимателей в международном разделении труда и т.д. В статье оценивается политика ценообразования продукции в системе АПК зарубежных стран, изучено состояние государственных программ поддержки цен и доходов предпринимателей. В результате, были определены основные направлении государственной политики помощи сельскохозяйственным предпринимателям.

**Mushfiga Mammadova, Aygul Salimova, Rena Musayeva**

**From the experience of state support for entrepreneurs in the agribusiness system of foreign countries in modern economic conditions**

**Summary**

The article examines the state of state support for entrepreneurs in the agribusiness system of foreign countries in modern economic conditions and outlines ways to solve real problems. Logical generalization, systematic approach, analysis and synthesis methods were used in the development of the article. It is noted in the article that according to the experience of most countries, Azerbaijan's Agrarian Policy can be aimed at providing the state with maximum guarantees of food products, preventing extreme production, supporting the domestic market, ensuring the competitiveness of local entrepreneurs in the international division of Labor and so on. The article assessed the pricing policy of products in the agribusiness system of foreign countries, studied the state of state programs on pricing and income support for entrepreneurs for state support. As a result, the main directions of the state's policy of assistance to entrepreneurs operating in the agricultural sector were determined.

**Ədəbiyyat**

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: monoqrafiya / Ə.C.Muradov, M.A.Əhmədov, Ə.Q.Əlirzayev [və b.]. - Bakı: Şərq-Qərb, - 2019. - 328 s.
2. Hacıyev, Q.B. Koronovirus pandemiyası şəraitində ölkəmizin aqrobiznes sistemində maliyyə mexanizminin rəqabətədavamlılığın formalaşmasına təsiri istiqamətləri / Q.B.Hacıyev, A.A.Səlimova, R.A.Musayeva // «Kənd təsərrüfatının iqtisadiyyatı» jurnalı, - Bakı: - 2020. №2 (32), - s. 119-129.
3. Qarayev, İ.Ş. Ərzaq təminatının yaxşılaşdırılmasında istehsal satış biznesinin tənzimlənməsi / İ.Ş.Qarayev, Q.B.Hacıyev // AzETKTİ və Tİ-nun elmi əsərləri, - Bakı: «Şərq-Qərb» ASC - 2014. - 4 hissəli. I h., - s. 5-12.
4. Quliyev, E.A. Aqrar iqtisadiyyat / E.A.Quliyev - Bakı: Elm, - 2015. - 320 s.
5. Qurbanov, P.Ə. Azərbaycan Respublikasında aqrolizinqin formalaşması istiqamətləri / P.Ə.Qurbanov - Bakı: Ulu, - 2019, - 422 s.
6. Məmmədova, M.Ə. Aqrar sahədə xarici-iqtisadi əlaqələrin dövlət tənzimlənməsi: / iqtisad elmləri üzrə fəlsəfə doktoru... dis. / - Bakı, 2010. - 161 s.
7. Məmmədova, M.Ə. Regionlarda aqrobiznesin inkişaf istiqamətləri / AzETKTİ və Tİ-da keçirilmiş «Aqrobiznesin inkişaf probemləri» mövzusunda respublika elmi-praktik konfransının materialları, - Bakı: Nurlar, - 2007, - s.121-123.
8. Арустамов, Э.А. Основы бизнеса / 4-изд./ Э.А.Арустамов - М.: Дашков и К°, - 2019, - 230 с.
9. Гаджиев, Г.Б. Направления развития экономических отношений в зарубежных странах и организации бизнеса в Азербайджане / Г.Б.Гаджиев // Экономика и предпринимательство, - Москва: - 2017, №6(83), - с. 618-620.
10. Гаджиев, Г.Б. Регулирование бизнеса зерноводства и направления его развития / Г.Б.Гаджиев // Глобальный научный потенциал, - Санкт-Петербург: - 2015. №3(45), - с. 110-113.
11. Гаджиев, Г.Б. Современные проблемы и механизмы развития бизнеса в Азербайджанской Республике / Г.Б.Гаджиев // Региональная экономика и управление: электронный научный журнал [Электронный ресурс] - Москва, 2017, Режим доступа: http://eee-region.ru/article/5029/
12. Терентьева, М.А. Зарубежный опыт развития малого предпринимательства / М.А.Терентьева // Матрица Научного познания, - 2019. №1, - с. 62-68.
13. Зиятдинов, Ф.С. Ресурсный потенциал агропромышленного ком-плекса; анализ, оценка и эффективность использования / Ф.С.Зиятдинов - Казань: КФЭИ, - 2015. - 250 с.
14. Капустина, Н.Е. Теория и практика маркетинга в США / Н.Е.Капустина - М.: Экономика, - 2015. - 159 с.

15. Клюкин, Б.Д. Государственное регулирование агропромышленного производства / Б.Д.Клюкин - М.: Юристъ, - 2017. - 357 с.
16. Колесников, А.В. Эффективность государственной поддержки и регулирования сельского хозяйства / А.В.Колесников - М.: Майский, - 2017. - 207 с.
17. Кузьмин, И.И. Экономическая поддержка сельского хозяйства в развитых странах / И.И.Кузьмин // Аграрная наука, - 2002. №4, - с.31.
18. Кулиев, А.А. Регулирование бизнес производства и продажи продуктов в аграрном секторе/ А.А.Кулиев, Г.Б.Гаджиев // Science and Education Studies, - 2016, № 1 (17), - Stanford University Press, - p.105-114.
19. Маркетинг в агропромышленном комплексе / под ред. Н.В.Сурковой - Москва: Юрайт, - 2020. - 314 с.
20. Михалев, С.В. Основы организации агробизнеса / С.В.Михалев, Р.И.Галиева - Иркутск: 2015. - 189 с.
21. Овчинников, О.Г. Государственное регулирование аграрного сектора США / О.Г.Овчинников - М.: ООО «ДеЛи» - 2009. - 663 с.
22. Организация агробизнеса / Н.В.Банникова, Т.Н.Костюченко, Н.Ю.Ермакова [и др.] - Ставрополь: Ставропольский государственный аграрный университет, - 2017. - 111 с.
23. Организация агробизнеса / Сост. М.Ю.Руднев. - Саратов: ФГБОУ ВО «Саратовский ГАУ», - 2017. - 77 с.
24. Пименов, Н.А. Управление финансовыми рисками в системе экономической безопасности / Н.А.Пименов. - 2-е изд., перераб. и доп. - М.: Юрайт, - 2019. - 326 с.
25. Радугин, Н.П. Аграрная экономика: проблемы обновления / Н.П.Радугин. - М.: Финансы и статистика, - 2015. - 240 с.
26. Светлов, Н.М. О неоднородности эффектов господдержки сельского хозяйства / Н.М.Светлов, Р.Г.Янбых, Д.А.Логинова // Вопросы экономики, - 2019. №4, - с. 59-73.
27. Турчаева, И.Н. Страхование в АПК / И.Н.Турчаева. - М.: Юрайт, - 2019. - 229 с.
28. Чарыкова, О.Г. Инфраструктура агропродовольственного рынка: теория, анализ, концепция / О.Г.Чарыкова [и др.] – Воронеж: Место издания Воронеж – 2019. - 141 с.
29. Aliyev, E. Evalution security in the Region Within the Framework of the FAO UN Cooperation Program Using the Fuzzy Interence / E.Aliyev, T.Kerimova, G.Hajiyev // 13th International Conference on Theory and Application of Fuzzy Systems Soft Computing-ICAFS-2018. - pp.609-618.
30. Binita, K.C. Multi-hazard climate risk projections for the United States / K.C.Binita, J.M.Shepherd, Anthony W.King [et al.] // Natural Hazards, - 2021. - Vol. 105. Issue 2, - p. 1963-1976.
31. Dash, S. Insurance market penetration and economic growth in Eurozone countries: Time series evidence causality / S.Dash, R.P.Pradhan, R.P.Maradana [et al.] // Future Business Journal, - 2018. № 4, - p. 50-67.
32. Humbatova, S.İ. External fi nancing of Azerbaijan’s agriculture / S.İ.Humbatova, N.G.Hajiyev // Bulgarian Journal of Agricultural Science, - 2016. №22, - pp. 875-892.
33. Jiang, S.J. Asymmetric adjustment of insurance profits: evidence from the U.S. non-life insurance markets / S.J.Jiang, F.Xiang, N.Zhang // Economic Research-Ekonomska Istraživanja, - 2019. Vol. 32, № 1, - p. 2780-2797.
34. Kontsevaya, S. Development of Agricultural Insurance in the Russian Federation / S.Kontsevaya, G.Kontsevoy, L.Adamaytis // Hradec Economic Days: 17th international scientific conference on Hradec Economic Days, Hradec Králové, Czech Republic. - 5-6 February, - 2019, - Vol. 9, №1, - pp. 415-421.
35. Marano, P. Insurance regulation in the European Union: Solvency II and beyond / Pierpaolo Marano, Michele Siri. - Springer International Publishing, - 2017.
36. Musayeva, R.A. World experience of state support for entrepreneurs in the agribusiness system / Rena Aydin Musayeva, Mushfiga Ajdar Mammadova, Aygul Aydin Salimova /// 70th International

Scientific Conference on Economic and Social Development Baku, 25-26 June 2021, Book of Proceedings, pp. 573-580.
37. Rzayev, R. Assessment the Attractiveness of Countries for Investment by Expert Knowledge Compilation / R.Rzayev, S.Aliyeva, G.Hajiyev [et al.] // Assessment the Attractiveness of Countries for Investment. – 2020, - pp. 331–339.
38. Sofina, E.V. Agricultural land-use optimization by farms based on quality management: lines of research / E.V.Sofina // International Journal for Quality Research, - 2019, Vol. 13, №4, - pp. 915-930.

Məqalə redaksiyaya daxil olmuşdur: 22.09.2022
Təkrar işlənməyə göndərilmişdir: 27.09.2022
Çap üçün qəbul olunmuşdur: 19.11.2022

***2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARININ YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR***

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2022-ci ilin yanvar-sentyabr ayları, faktiki | 2022-ci ilin yanvar-sentyabr ayları 2021-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | Məlumat üçün 2021-ci ilin yanvar-sentyabr ayları 2020-cu ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **98 077,8** | **105,6** | **104,8** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 50 285,8 | 110,1 | 106,2 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **9 748,9** | **105,1** | **104,3** |
| **Sənaye məhsulu, milyon manat** | **64 131,8** | **99,4** | **104,5** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 13 032,4 | 107,2 | 119,6 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **10 154,4** | **104,6** | **91,3** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 6 551,1 | 118,1 | 92,0 |
| ondan qeyri neft-qaz sənayesinə | 897,7 | 91,6 | 98,0 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **8 919,4** | **103,0** | **105,0** |
| o cümlədən: bitkiçilik | 5 026,6 | 103,0 | 107,3 |
| Heyvandarlıq | 3 892,8 | 102,9 | 102,6 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **157,6** | **112,3** | **99,8** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1 165,2** | **138,9** | **90,0** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 964,3** | **115,5** | **105,7** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **35 553,1** | **102,9** | **102,8** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **6 416,3** | **107,8** | **104,6** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **22 401,5*** | **125,3** | **99,5** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **20 470,7** | **115,6** | **95,0** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **1 930,8** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **50 951,5** | **120,2** | **102,3** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **5 064,6** | **119,7** | **101,8** |

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2022-ci il 01 oktyabr vəziyyətinə, milyon manat** | **11 225,7** | **127,0** | **112,8** |
| **Kredit qoyuluşları, 2022-ci il 01 oktyabr vəziyyətinə, milyon manat** | **19 701,7** | **123,5** | **107,3** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 649,6 | 74,6 | 81,5 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **827,4** | **114,4** | **102,3** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **113,4** | **105,2** |
| **Əhalinin sayı, 2022-ci il 01 oktyabr vəziyyətinə, min nəfər** | **10 198,6** | **100,5** | **100,4** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **41 256,2** | **171,9** | **134,6** |
| **müqayisəli qiymətlərlə** | **x** | **109,1** | **100,1** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 30 962,9 | 197,8 | 156,5 |
| müqayisəli qiymətlərlə | x | 113,3 | 109,8 |
| ondan **qeyri-neft ixracı** | | | |
| faktiki qiymətlərlə | 2 116,8 | 117,0 | 140,9 |
| müqayisəli qiymətlərlə | x | 105,8 | 128,5 |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 10 293,3 | 123,4 | 106,6 |
| müqayisəli qiymətlərlə | x | 101,1 | 87,7 |

**Qeyd:**

1) Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

* Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları istisna olmaqla.

## ÜMUMİ DAXİLİ MƏHSUL İSTEHSALI

milyon manat

| | Yanvar-sentyabr | | 2022-ci ilin yanvar-sentabr ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | 2022 | 2021 | |
| **Ümumi Daxili Məhsul** | **98 077,8** | **63 889,0** | **105,6** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 5 147,8 | 4 274,9 | 103,0 |
| Sənaye | 51 160,6 | 26 119,8 | 99,2 |
| o cümlədən:<br>mədənçıxarma sənayesi | 45 182,3 | 20 752,8 | 98,2 |
| emal sənayesi | 4 999,3 | 4 579,7 | 103,0 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 818,5 | 704,5 | 103,8 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 160,5 | 142,8 | 105,5 |
| Tikinti | 3 879,9 | 3 314,1 | 113,3 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 7 640,5 | 6 466,4 | 103,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 5 839,7 | 4 557,1 | 127,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1 489,8 | 754,9 | 174,0 |
| İnformasiya və rabitə | 1 304,6 | 1 129,6 | 115,5 |
| Digər sahələr | 13 939,0 | 11 511,4 | 104,7 |
| **Məhsula və idxala xalis vergilər** | **7 675,9** | **5 760,8** | **108,1** |

## MALİYYƏ MƏNBƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏR

| | 2022-ci ilin yanvar-sentyabr aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **10154,4** | **104,6** | **100,0** |
| o cümlədən:<br>Müəssisə və təşkilatların öz vəsaitləri | 5271,4 | 96,3 | 51,9 |
| Bank kreditləri | 309,1 | 51,3 | 3,0 |
| Büdcə vəsaitləri | 3325,0 | 151,4 | 32,8 |
| Büdcədənkənar dövlət fondlarının vəsaitləri | - | - | - |
| Əhalinin şəxsi vəsaiti | 815,3 | 114,6 | 8,0 |
| Sair vəsaitlər | 433,6 | 59,4 | 4,3 |

## İQTİSADİYYATIN SAHƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏRİN DƏYƏRİ

| İqtisadiyyatın sahələri | 2022-ci ilin yanvar-sentyabr aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrün nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **10154,4** | **104,6** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə** | **252,3** | **100,0** | **2,5** |
| **Sənaye** | **4501,0** | **87,5** | **44,3** |
| o cümlədən: | | | |
| Mədənçıxarma sənayesi | 3312,5 | 93,0 | 32,6 |
| Emal sənayesi | 774,9 | 58,8 | 7,6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 331,6 | 161,1 | 3,3 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 82,0 | 138,2 | 0,8 |
| **Tikinti** | **1900,7** | **103,9** | **18,7** |
| ondan mənzil tikintisi | 660,1 | 87,9 | 6,5 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **89,2** | **78,3** | **0,9** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **2653,8** | **163,1** | **26,1** |
| o cümlədən: | | | |
| nəqliyyat | 2650,7 | 162,9 | 26,1 |
| poçt və kuryer fəaliyyəti | 3,1 | 9,7 d. | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **52,7** | **60,0** | **0,5** |
| **İnformasiya və rabitə** | **170,4** | **2,4 d.** | **1,7** |
| ondan rabitə | **167,2** | **2,4 d.** | **1,6** |
| **Maliyyə və sığorta fəaliyyəti** | **72,2** | **4,2 d.** | **0,7** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **1,5** | **3,0 d.** | **0,0** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **15,2** | **8,9** | **0,2** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **50,6** | **124,9** | **0,5** |
| **Dövlət idarəetməsi və** | **228,9** | **138,1** | **2,3** |
| **Təhsil** | **116,1** | **89,8** | **1,1** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **39,5** | **105,1** | **0,4** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **7,6** | **67,9** | **0,1** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **2,7** | **28,6** | **0,0** |

## PƏRAKƏNDƏ TİCARƏT DÖVRİYYƏSİNİN MƏHSULLAR ÜZRƏ STRUKTURU

| | 2022-ci ilin yanvar-sentyabr ayları, milyon manat | 2022-ci ilin yanvar-sentyabr ayları 2021-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **35 553,1** | **102,9** |
| o cümlədən:<br>ərzaq məhsulları, içkilər və tütün məmulatları | 20 014,1 | 102,3 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 4 809,2 | 100,1 |
| elektrik malları və mebellər | 1 826,4 | 100,9 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 364,2 | 126,7 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 826,5 | 119,7 |
| avtomobil benzini və dizel yanacağı | 2 012,7 | 108,7 |
| digər qeyri-ərzaq malları | 5 700,0 | 102,3 |

## İQTİSADİYYATA KREDİT QOYULUŞU

| | 2022-ci il oktyabrın 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | **19701,7** | **123,5** |
| o cümlədən:<br>qısamüddətli | 4017,8 | 139,1 |
| uzunmüddətli | 15683,9 | 120,0 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 649,6 | 74,6 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 3,3 | x |

## DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

| | 2022-ci ilin yanvar-sentyabr ayları, milyon manat* | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Gəlirlər – cəmi** | **22514,73** | **100,0** | **22,96** |
| o cümlədən:<br>Fiziki şəxslərin gəlir vergisi | 1059,26 | 4,70 | 1,08 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 5239,10 | 23,27 | 5,34 |
| Torpaq vergisi | 30,88 | 0,14 | 0,03 |
| Əmlak vergisi | 170,74 | 0,76 | 0,18 |
| Əlavə dəyər vergisi | 5322,03 | 23,64 | 5,43 |
| Sadələşdirilmiş vergi | 239,84 | 1,06 | 0,25 |
| Aksiz | 972,42 | 4,32 | 0,99 |
| Yol vergisi | 109,81 | 0,49 | 0,11 |
| Mədən vergisi | 107,73 | 0,48 | 0,11 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 1179,17 | 5,24 | 1,20 |
| Digər daxilolmalar | 8083,75 | 35,90 | 8,24 |

* Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla ilkin məlumatlar əsasında

## DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

| | 2022-ci ilin yanvar-sentyabr ayları, milyon manat | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Xərclər – cəmi** | **20470,72** | **100,0** | **20,87** |
| o cümlədən:<br>Ümumi dövlət xidmətləri | 2829,06 | 13,82 | 2,89 |
| Müdafiə və milli təhlükəsizlik | 3350,61 | 16,37 | 3,42 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq | 1593,02 | 7,78 | 1,61 |
| Təhsil | 2385,89 | 11,65 | 2,43 |
| Səhiyyə | 1159,76 | 5,66 | 1,18 |
| Sosial müdafiə və sosial təminat | 2633,80 | 12,87 | 2,69 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 284,87 | 1,39 | 0,29 |
| Mənzil və kommunal təsərrüfatı | 160,98 | 0,79 | 0,16 |
| Kənd təsərrüfatı | 627,03 | 3,06 | 0,64 |
| Ətraf mühitin mühafizəsi | 166,87 | 0,82 | 0,17 |
| İqtisadi fəaliyyət | 4428,95 | 21,64 | 4,52 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 849,88 | 4,15 | 0,87 |

## NƏQLİYYAT SEKTORUNDA YÜK DÖVRİYYƏSİ

| | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2021-ci ilin müvafiq dövründə | 2021-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **66 318,6** | **57 728,3** | **114,9** |
| o cümlədən:<br>Dəmir yolu | 5 247,9 | 3 941,5 | 133,1 |
| Dəniz | 2 675,8 | 2 304,0 | 116,1 |
| Hava | 2 184,9 | 1 785,6 | 122,4 |
| Boru kəməri | 47 668,8 | 42 713,4 | 111,6 |
| neft kəməri | 38 917,2 | 35 254,0 | 110,4 |
| qaz kəməri | 8 751,6 | 7 459,4 | 117,3 |
| Avtomobil | 8 541,2 | 6 983,8 | 122,3 |

## NƏQLİYYAT SEKTORUNDA SƏRNİŞİN DÖVRİYYƏSİ

| | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2021-ci ilin müvafiq dövründə | 2021-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **1 165 176,4** | **838 905,3** | **138,9** |
| o cümlədən: Dəmir yolu | 3 377,5 | 1 763,3 | 191,5 |
| Dəniz | 15,8 | 12,5 | 126,4 |
| Hava | 1 656,6 | 795,4 | 208,3 |
| Metro | 146 701,6 | 38 947,6 | 3,8 d. |
| Avtomobil | 1 013 424,9 | 797 386,5 | 127,1 |
| avtobus | 952 900,6 | 729 912,4 | 130,6 |
| taksi | 60 524,3 | 67 474,1 | 89,7 |

## 2022-ci İLİN YANVAR-SENTYABR AYLARINDA AZƏRBAYCANIN TƏRƏFDAŞ ÖLKƏLƏRLƏ XARİCİ TİCARƏT GÖSTƏRİCİLƏRİ*

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **39814437,7** | **10293312,0** | **29521125,7** |
| o cümlədən: İtaliya | 14799674,8 | 228386,5 | 14571288,3 |
| Türkiyə | 4352690,0 | 1624496,9 | 2728193,1 |
| Rusiya | 2538206,4 | 1910699,5 | 627506,9 |
| Hindistan | 1594139,5 | 165261,2 | 1428878,3 |
| Çin | 1529704,8 | 1486806,9 | 42897,9 |
| İsrail | 1384981,4 | 25247,5 | 1359733,9 |
| Yunanıstan | 1095173,6 | 15443,8 | 1079729,8 |
| Birləşmiş Krallıq | 960668,0 | 184066,0 | 776602,0 |
| Almaniya | 730137,5 | 454912,8 | 275224,7 |
| Çexiya | 702585,4 | 42074,8 | 660510,6 |
| Xorvatiya | 698217,5 | 11059,2 | 687158,3 |
| Gürcüstan | 579042,7 | 96450,9 | 482591,8 |
| İspaniya | 561384,9 | 58591,5 | 502793,4 |
| Portuqaliya | 556825,9 | 9808,6 | 547017,3 |
| Ukrayna | 521773,9 | 183944,7 | 337829,2 |
| Amerika Birləşmiş Ştatları | 446506,7 | 358881,2 | 87625,5 |
| Vyetnam | 438490,3 | 76363,0 | 362127,3 |
| İsveçrə | 417199,2 | 48926,3 | 368272,9 |
| Qazaxıstan | 417196,2 | 356678,0 | 60518,2 |
| Tunis | 413138,4 | 4575,1 | 408563,3 |
| İran | 363290,7 | 341936,4 | 21354,3 |
| Rumıniya | 355885,0 | 57779,3 | 298105,7 |
| Türkmənistan | 305580,6 | 292419,0 | 13161,6 |
| İrlandiya | 297761,9 | 20448,6 | 277313,3 |
| İndoneziya | 293471,9 | 72411,3 | 221060,6 |
| Digər ölkələr | 3460710,5 | 2165643,0 | 1295067,5 |

**Gömrük məlumatı*

## İXRAC OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2022-ci ilin yanvar- sentyabr aylarında | | 2021-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| Təzə tərəvəz, ton | 134532,4 | 146078,3 | 93,8 | 102,2 |
| Təzə meyvə, ton | 183763,8 | 246223,6 | 105,6 | 117,5 |
| Kartof, ton | 78215,5 | 35085,8 | 85,2 | 88,0 |
| Çay, ton | 1560,9 | 9656,1 | 193,0 | 157,4 |
| Bitki yağları, ton | 6574,3 | 12333,4 | 76,6 | 111,5 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 1229,5 | 2347,4 | 62,8 | 87,3 |
| Şəkər, ton | 27121,7 | 18763,7 | 54,7 | 72,0 |
| Meyvə və tərəvəz konservləri, ton | 5395,7 | 6007,2 | 92,3 | 97,0 |
| Meyvə və tərəvəz şirələri, ton | 7899,8 | 9988,2 | 86,1 | 89,4 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 190,4 | 3373,6 | 123,6 | 132,2 |
| Tütün, ton | 5121,3 | 15465,8 | 188,6 | 2,2 d. |
| Bentonit gili, ton | 127774,7 | 9543,6 | 103,3 | 134,0 |
| Sement klinkerləri, ton | 512893,6 | 23717,4 | 114,5 | 143,1 |
| Mineral gübrələr, ton | 275702,9 | 163531,7 | 134,4 | 3,1d. |
| Xam neft, min ton | 19514,2 | 14897429,9 | 96,2 | 160,1 |
| Xam neft, min ton (SOCAR və ABƏŞ-in məlumatlarına əsasən) | 19723,3 | 14897582,4 | 93,7 | 149,8 |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, ton | 86006,6 | 95800,5 | 2,8 d. | 6,2 d. |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, ton | 350790,6 | 179034,2 | 37,7 | 40,7 |
| Maye qaz, ton | 14140,8 | 4695,4 | 26,5 | 30,7 |
| Təbii qaz, mlyn. kub metr | 16552,8 | 12102516,1 | 110,9 | 4,1 d. |
| Təbii qaz, mlyn. kub metr (SOCAR və ABƏŞ-in məlumatlarına əsasən) | 16591,5 | 13544114,6 | 122,8 | 4,1 d. |
| Neft koksu, ton | 106071,2 | 32153,8 | 46,1 | 167,0 |
| Polietilen, ton | 86736,8 | 112715,7 | 84,0 | 92,2 |
| Polipropilen, ton | 72590,0 | 104500,2 | 85,4 | 84,7 |
| Pambıq lifi, ton | 61442,5 | 147145,0 | 64,2 | 98,4 |
| Pambıq ipliyi, ton | 7044,4 | 28573,3 | 51,1 | 71,4 |
| Qara metallardan borular, ton | 20347,2 | 21630,1 | 124,8 | 161,8 |
| Qara metallardan yarımfabrikatlar, ton | 27403,1 | 18474,6 | 57,6 | 72,3 |
| Qara metaldan çubuqlar, ton | 53379,7 | 39054,5 | 135,1 | 144,2 |
| Emal olunmamış alüminium, ton | 23528,5 | 74383,3 | 124,2 | 170,3 |

## İDXAL OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2022-ci ilin yanvar-sentyabr aylarında | | 2021-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 2491,3 | 11213,3 | 59,9 | 69,8 |
| Quş əti və onun əlavə məhsulları, ton | 22983,1 | 35361,1 | 110,9 | 131,1 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 14026,9 | 80960,6 | 124,8 | 140,9 |
| Kartof, ton | 121075,4 | 33465,1 | 97,4 | 107,4 |
| Təzə tərəvəz, ton | 21829,8 | 13378,9 | 71,8 | 85,5 |
| Təzə meyvə, ton | 100318,8 | 96544,4 | 109,0 | 111,5 |
| Çay, ton | 10827,4 | 55409,4 | 99,5 | 117,8 |
| Buğda, ton | 744200,4 | 262066,4 | 107,9 | 143,4 |
| Bitki yağları, ton | 92218,7 | 157797,3 | 98,2 | 122,1 |
| Xam şəkər, ton | 248950,9 | 135130,0 | 103,4 | 120,4 |
| Şokolad və şokolad məhsulları, ton | 18938,1 | 62845,9 | 93,9 | 105,5 |
| Unlu qənnadı məmulatları, ton | 28773,5 | 67008,9 | 111,3 | 127,0 |
| Siqaretlər, mlyn. ədəd | 138,2 | 2898,9 | 22,0 | 21,4 |
| Sement, ton | 22443,6 | 4173,4 | 134,0 | 149,8 |
| Dərman vasitələri, ton | 20006,8 | 383208,5 | 127,1 | 123,3 |
| Mineral gübrələr, ton | 68374,9 | 56848,7 | 62,0 | 159,2 |
| Sintetik yuyucu vasitələr, ton | 62311,8 | 62294,2 | 109,4 | 113,6 |
| Polietilen, ton | 32666,6 | 49227,1 | 167,9 | 193,6 |
| Polipropilen, ton | 10114,9 | 18211,5 | 117,7 | 131,0 |
| Rezin şinlər, ədəd | 1592496 | 68265,7 | 98,1 | 118,0 |
| Polad prokatı, ton | 198356,2 | 202799,1 | 135,1 | 133,1 |
| Qara metallardan çubuqlar, ton | 57249,3 | 47993,6 | 122,4 | 139,8 |
| Qara metallardan künclüklər, ton | 18683,8 | 20237,1 | 91,9 | 90,8 |
| Qara metallardan borular, ton | 71748,2 | 133012,9 | 82,4 | 87,6 |
| Məişət kondisionerləri, ədəd | 190022 | 60546,4 | 141,8 | 176,0 |
| Məişət soyuducuları, ədəd | 20405 | 7300,6 | 62,0 | 70,1 |
| Paltaryuyan maşınlar, ədəd | 113760 | 28092,2 | 71,8 | 81,2 |
| Hesablama maşınları, blok və qurğuları, ədəd | 382546 | 93486,5 | 75,1 | 98,7 |
| Minik avtomobilləri, ədəd | 51055 | 595320,1 | 84,3 | 105,8 |
| Avtobuslar, ədəd | 337 | 46321,4 | 2,4 d. | 2,3 d. |
| Yük avtomobilləri, ədəd | 3585 | 73676,5 | 87,0 | 114,8 |
| Oturacaq, ofis, mətbəx, yataq və digər mebellər, ədəd | 613671 | 55045,3 | 111,5 | 118,6 |

# 2022-ci İLDƏ "STATİSTİKA XƏBƏRLƏRİ" JURNALINDA DƏRC OLUNMUŞ MƏQALƏLƏRİN MÖVZU-ƏLİFBA ÜZRƏ SİYAHISI

## İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR


***Афет Сулейманова*** О одном из подбходов к маркированию документов на предонфиденциальности ........ 2
***Айбениз Губадова, Эмилия Аббасова*** Методические аспекты разработки бизнес – плана ........ 3
***Almas Həmidova*** Müəssisələrdə tədarükat logistikasının idarlməsi məsələləri ........ 3
***Ənvər Qasımov*** Neft-qaz sənayesində beynəlxalq maliyyələşmənin mahiyyəti və onun inkişafının əsas istiqamətləri ........ 3
***Famil Niftiyev*** Azərbaycanda insan kapitalının inkişaf səviyyəsinin qiymətləndirilməsi ........ 3
***Fərid Əhmədov*** Hüquq pozmaların anlayışı növləri və statistik təhlili ........ 1
***Günay Rəhimli*** Azərbaycanın sosial hesablar matrisinin tərtibi ........ 2
***Gündüz Məmmədov, Hicran Cabbarova*** Azərbaycanda quşçuluğun mövcud vəziyyəti və inkişaf istiqamətləri ........ 1
***Hicran Köçərli, Səmirə Seyidova*** Aqrar sahənin innovasiya potensialı və onun reallaşdırılmasının informasiya bazasının mövcud vəziyyəti ........ 2
***Nərgiz Çələbi*** Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında kiçik və orta sahibkarlığın rolu və inkişafının statistik qiymətləndirilməsi ........ 1
***Rauf Allahyarov*** Neft-qaz sənayesi müəssisələrinin maliyyə hesabat formalarının təhlili ........ 2
***Рауф Салаев*** Основные задачи в формировании эффективного налогового менеджмента в период пандемии COVID-19 в Азербайджане ........ 2
***Səadət Rəhimova*** Müasir dövrdə ölkəmizdə demoqrafik vəziyyət ........ 1
***Şahin Mustafayev, Saleh Mövlamov*** Ölkədə taxıl məhsullarına tələbatın tədqiqi ........ 3
***Şamxal Məmmədov*** Azərbaycanda dövrün tələbinə uyğun İKT-nin və elektron ticarətin inkişafı ........ 1
***Yadulla Həsənli, Gülbala Quliyev*** Nəqliyyat sektorunda yükdaşımalara təsir edən amillərin ekonometrik qiymətləndirilməsi ........ 3
***Yaşar Paşa, Nəbi Quliyev*** Haqqı ödənilməyən işin hesablanmasında vaxtdan istifadə sorğusunun məlumatlarından istifadə ........ 3
***Yusif Yusifov, Vüqar Məmmədəlizadə*** Rəsmi statistikada metaməlumatlar və təsnifatlar sisteminin inkişafı. ........ 2
***Zaur Rəsulov*** Dağıdıcı innovasiyalar və karyera ........ 2

## METODOLOGİYA

***Aqşin Əliyev*** Azərbaycanın müasir sənaye siyasəti iqtisadi diversifikasiya kontekstində........... 3
***Alvina Babayeva*** İnformasiya texnologiyalarının sosial təsirləri................................................ 3
***Anar Rzayev*** Dəyər zəncirinin qloballaşmasına beynəlxalq nəqliyyat dəhlizlərinin təsirinin artması........................................................................................................................... 3
***Эльдар Абиев*** Анализ состояния и перспектив развития экономики освобожденных от армянских оккупантов территорий Азербайджана ............................................................2
***Elçin Babayev*** Azərbaycanda tikinti sahəsi üzrə lizinq əməliyyatlarının uçotunun əsas problemlərinin təhlili və qiymətləndirilməsi ..................................................................2
***Famil Niftiyev*** Ömür boyu gəlirə əsaslanan Yorgenson və Fraumen yanaşması........................ 1
***Gülsabah Rəhimova*** Aqro-biznesdə innovasiya fəaliyyətinin sürətləndirilməsi üçün iqtisadi mexanizmin formalaşdırılması prioritetləri ....................................................................3
***Nazilə Ağayeva*** Rəqəmsal texnologiyaların ictimai həyatda rolu ..............................................2
***Севиндж Аббасова*** Влияние глобализации и цифровизации на развитие профессии специалиста по управленческому учету ...................................................................... 1
***Yusif Yusifov, Ramiz Cavadov*** İşğaldan azad edilmiş ərazilərin dayanıqlı inkişaf strategiyası və rəqabət mühitinə yeni baxış ...........................................................................................1
***Zaur Əliyev*** Müəssisə risklərinin araşdırılmasının nəzəri əsasları ..............................................2
***Zərifə Nağıyeva, Saleh Mövlamov*** Rəqəmsal texnologiyalara əsaslanan əmək bazarı .............1

**Korrektor:** Fatimə Qibləliyeva

**Çapa imzalanmışdır:** 05.12.2022